2023

# GƏNCLƏRƏ DAİR TƏDQİQAT AZƏRBAYCAN GƏNCLƏRİNİN SƏSİ – MÜNASİBƏTLƏR, DƏYƏRLƏR VƏ GƏLƏCƏK PERSPEKTİVLƏR

FRIEDRICH EBERT STIFTUNG

**NƏŞR EDƏN TƏŞKİLAT**
Fridrix Ebert Fondunun (FES) Cənubi Qafqaz Nümayəndəliyi
Nino Ramişvili küçəsi, 1-ci dalan, ev 1, 7, 0179
https://southcaucasus.fes.de/
Tbilisi, Gürcüstan

**TƏŞKİLATIN TƏMSİLÇİLƏRİ**
Marsel Rötiq (FES), Salome Alania (FES)

**MÜƏLLİFLƏR**
Rati Şubladze
David Siçinava
Tamar Xoştaria

**HƏMMÜƏLLİF**
Anar Vəliyev

**KORREKTƏ**
Günel Əbilova, Aişə Hətəmzadə

**TƏRCÜMƏ**
İsmayıl Cəbrayılov

**DİZAYN**
GOLDLAND MEDIA GmbH

**TİRAJ**
150

**ISBN** 978-9941-8-5327-2

Bu nəşr Fridrix Ebert Fondunun maliyyə dəstəyi ilə ərsəyə gəlmişdir. Bu nəşrdə təqdim olunan münasibətlər, fikirlər və gəlinən nəticələr mütləq şəkildə Fridrix Ebert Fondunun münasibətlərini əks etdirmir. Fridrix Ebert Fondu bu nəşrdə təqdim olunan məlumatların dəqiqliyinə təminat vermir. Fridrix Ebert Fondunun yazılı razılığı olmadan, onun dərc etdiyi bütün məhsullardan kommersiya məqsədilə istifadə yolverilməzdir.

© Friedrich-Ebert-Stiftung 2023

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| 1 | QISA XÜLASƏ | 4 |
| 2 | GİRİŞ | 12 |
| 3 | METODOLOGİYA | 14 |
| 4 | I HİSSƏ: EV TƏSƏRRÜFATI VƏ YAŞAYIŞ ŞƏRAİTİ | 16 |
| 5 | II HİSSƏ: TƏHSİL VƏ MƏŞĞULLUQ | 24 |
| 6 | III HİSSƏ: DEMOKRATİYA VƏ İDARƏÇİLİK | 34 |
| 7 | IV HİSSƏ: GƏNCLƏR VƏ XARİCİ SİYASƏTƏ MÜNASİBƏTLƏR | 48 |
| 8 | V HİSSƏ: YAXIN KEÇMİŞƏ VƏ QARABAĞ MÜHARİBƏSİNƏ TƏKRAR NƏZƏR | 62 |
| 9 | VI HİSSƏ: KİMLİK, DƏYƏRLƏR VƏ DİN | 76 |
| 10 | VII HİSSƏ: İQLİM DƏYİŞİKLİYİ | 94 |
| 11 | VIII HİSSƏ: NARAHATLIQLAR VƏ HƏDƏFLƏR | 100 |
| 12 | NƏTİCƏ | 110 |
| 13 | QEYDLƏR | 114 |
| | İXTİSARLARIN SİYAHISI | 117 |
| 14 | ƏDƏBİYYAT | 118 |
| 15 | ŞƏKİL SİYAHISI | 126 |
| 16 | FRİDRİX EBERT FONDUNUN (FES) GƏNCLƏRƏ DAİR TƏDQİQATLARI | 134 |

1

# QISA XÜLASƏ

- Azərbaycanda gənclərin yarıdan çoxu (51%) ailələrinin ərzaq və geyimdən daha çox şey almağa maddi imkanının olduğunu bildirir. 28%-i isə geyim və ayaqqabı üçün kifayət qədər pul olduğunu, lakin iri məişət cihazları almaq üçün kifayət qədər pulun olmadığını bildirir. Maliyyə nərdivanının ən aşağı pilləsində ev təsərrüfatlarının 14%-i yerləşir: 10%-i yalnız qida, 4%-i isə əsas zəruri məhsulları almağa maddi imkanlarının olduğunu bildirib.
- Kənd yerlərində yaşayanlarla müqayisədə, Bakı sakinləri maliyyə vəziyyətinin daha yaxşı olduğunu bildirir. Bundan əlavə, etnik baxımdan azərbaycanlı olan gənclər və ali təhsilli gənclər başqa etnik qruplara mənsub olan gənclərlə[1] və ibtidai təhsilli gənclərlə müqayisədə öz ev təsərrüfatlarının subyektiv rifah səviyyəsinin daha yaxşı olduğunu hesab edir.
- Azərbaycanda gənclərin əksəriyyəti (59%) öz maddi vəziyyətlərinin digər vətəndaşlarla eyni olduğunu hesab edir. Kişilərin, Bakı sakinlərinin, ən yuxarı yaş qrupundakı respondentlərin, işləyən şəxslərin, ali təhsilli şəxslərin öz ev təsərrüfatlarının maliyyə vəziyyətinin icmadakı əksər ev təsərrüfatları ilə müqayisədə daha pis olduğunu hesab etməsi ehtimalı daha yüksəkdir.
- Azərbaycan gənclərinin yarıdan çoxu[2] şəxsi gəlirə malikdir (o cümlədən maaş və digər gəlir növləri). Gənclərin 59%-i həm də maddi baxımdan valideynlərindən, qohumlarından və ya partnyorlarından/həyat yoldaşlarından asılıdır. Gənclərin yalnız 7%-i dövlətdən yardım[3], o cümlədən ailə müavinəti alır.
- Bakıdakı gənclərin əksəriyyəti (61%) müəyyən formada şəxsi gəlirə malikdir. Bakıdan kənarda yaşayan gənclər arasında isə ailə üzvlərindən asılı olanların sayı daha çoxdur. Gənc qadınların, 14-17 yaş qrupuna daxil olanların və azərbaycanlılardan başqa etnik qrupa mənsub olduğunu qeyd edənlərin ailə üzvlərindən asılı olması ehtimalı gənc kişilərlə, yuxarı yaş qrupları ilə və etnik azərbaycanlı gənclərlə müqayisədə daha yüksəkdir.
- Azərbaycanda gənclərin təqribən dörddə biri (26%) orta və ya daha yuxarı təhsil səviyyələrində təhsil almaqdadır. Bakı sakinləri arasında təhsil almaqda olan gənclərin payı (32%) digər şəhər (25%) və kəndlərdə (24%) yaşayan gənclərlə müqayisədə daha yüksəkdir.
- Azərbaycan gənclərinin yarıdan çoxu (56%) almaqda olduğu və ya aldıqları təhsilin keyfiyyətindən narazıdır. Ali təhsil almaqda olan və ya almış respondentlərin müvafiq təhsil müəssisəsinin verdiyi təhsilin keyfiyyətindən narazı qalmaq ehtimalı ən yüksəkdir.
- Gənclərin çoxu təhsil müəssisələrinin onları əmək bazarına hazırlamadığını düşünür. Təhsil almaqda olan gənclərin 72%-ə yaxını təhsil müəssisələrinin onları əmək bazarına hazırladığına ya qətiyyən inanmır (27%), ya da daha çox inanmır (45%). Cəmi 10%-i buna daha çox və ya tam inanır.
- Fokus qrupu müzakirələrindəki gənclər ölkənin təhsil sisteminə tənqidi yanaşıb. Respondentlər qeyd ediblər ki, məktəblərdə köhnəlmiş kurrikulumlar təqdim olunur, müəllimlər müasir təhsil yanaşmalarından xəbərdar deyillər və təhsilin keyfiyyəti əmək bazarının tələblərinə cavab vermir.

- Azərbaycanda gənclərin yarısı işlədiyini bildirir. Buraya tam iş qrafiki (27%) və natamam iş qrafiki (4%) ilə işləyənlər, müvəqqəti işlərdə işləyənlər (5%) və özünüməşğul gənclər (14%) daxildir.

- Paytaxtdan kənarda yaşayan gənclər, gənc qadınlar (36%), daha gənc yaş qrupları və təhsil səviyyəsi aşağı olanlarla müqayisədə, Bakıda yaşayan gənclər (59%), gənc kişilər (62%), 25-29 yaşlı gənclər (71%) və ali təhsilli gənclər (76%) arasında məşğulluq səviyyəsi daha yüksəkdir.

- Təhsil, məşğulluq və ya təlimdə iştirak etməyən[4] 14-29 yaşlı gənclərin xüsusi çəkisi 25%-ə yaxındır. Gənc kişilərlə (12%) müqayisədə, təhsil, məşğulluq və ya təlimdə iştirak etməyən gənc qadınların payı üç dəfə yüksəkdir (39%). Analoji olaraq, Bakıdan kənarda yaşayan gənclərin təhsil, məşğulluq və ya təlimdə iştirak etməmə ehtimalı daha yüksəkdir.

- Azərbaycanlı gənclər hesab edir ki, istədikləri işi əldə etmək üçün təhsil səviyyəsi (81%), tanışlar və qohumlar (65%), ailə sərvəti (64%) və keçmiş təcrübə (62%) ən vacib amillərdir. Bu, Azərbaycanda işə düzəlməkdə meritokratik amillərlə yanaşı, qeyri-meritokratik amillərin mühüm rol oynadığını göstərir.

- Hər on gəncdən yalnız biri (9%) son 12 ayda könüllülük fəaliyyəti ilə məşğul olub. Məhdud sayda azərbaycanlı gənc könüllülük fəaliyyəti ilə məşğul olsa da, son bir ildə paytaxtdan kənarda olan gənclər, milli azlıqlara mənsub gənclər, işləyən respondentlər və 24 yaşdan yuxarı gənclər kimi qruplar daha çox könüllülük fəaliyyəti ilə məşğul olublar.

- Azərbaycan gənclərinin yarıdan çoxu (54%) demokratiyanın Azərbaycanı idarə etmək üçün ən yaxşı üsul olduğunu hesab edir. 28%-i isə bu ideyaya qarşıdır. Lakin demokratiyaya ən az meylli olan qrup Bakıdakı gənclərdir. Onların əsas qismi ya tamamilə, ya da müəyyən dərəcədə bu ideyaya qarşıdır (42%).

- Azərbaycandakı demokratiya təcrübəsinə ya müsbət, ya da tam müsbət yanaşılır (53%). Azərbaycandakı demokratiya təcrübəsinə mənfi münasibətlər paytaxtdakı gənclər arasında daha geniş yayılıb (42%).

- Siyasətlə maraqlandığını deyən gənclərin sayı azdır. Əksəriyyət (43%) siyasətlə qətiyyən maraqlanmır, respondentlərin təqribən dörddə biri (26%) siyasətlə çox maraqlanmadığını deyir, beşdə biri (20%) isə siyasətlə müəyyən qədər və ya çox maraqlandığını deyir.

- Gənc kişilərin və 25-29 yaşlı gənclərin siyasətə ən azı müəyyən dərəcədə marağının olması ehtimalı daha yüksəkdir. Bundan əlavə, paytaxtda hər beş respondentdən biri bu suala cavab verməkdə çətinlik çəkir.

- Siyasətə ən azı müəyyən dərəcədə marağı olanların cəmi 23%-i[5] tez-tez tanışları ilə müvafiq müzakirələr aparır, 64%-i bunu nadir hallarda edir, 6%-i isə heç vaxt dostları ilə siyasətdən danışmır. Valideynləri ilə siyasətdən danışanların sayı isə daha azdır: cəmi 18%-i bunu tez-tez edir, 59%-i nadir hallarda edir, 11%-i isə heç vaxt valideynləri ilə siyasətdən danışmır.

- Siyasi xəbərlərlə maraqlanan Azərbaycan gənclərinin sayı azdır. Gənclərin yalnız dörddə biri həftədə ən azı 1 dəfə siyasi xəbərlərlə tanış olur. Respondentlərin üçdə birindən çoxu (35%) demək olar ki, heç vaxt siyasi xəbər oxumadığını deyir, 7%-i isə bunu nadir hallarda, ayda cəmi bir dəfə etdiyini deyir.

- Gənclərin çoxu (40%) mənafelərinin milli siyasətdə yaxşı təmsil olunduğunu hesab edir. Bir çoxu isə əmin deyil[6] və ya öz mənafelərinin zəif təmsil olunduğunu və ya ümumiyyətlə təmsil olunmadığını (hər biri 30%) hesab edir.

- Siyasi funksiyaları üzərinə götürməyə hazır olan gənclərin sayı azdır. Respondentlərin cəmi 18%-i ya məmnuniyyətlə, ya da bəlkə siyasi funksiyaları üzərinə götürməyə hazır olduğunu bildirib. Gənc kişilərin və ali təhsilli respondentlərin siyasi funksiyalar yerinə yetirməyə istəkli olması ehtimalı bir qədər daha yüksəkdir.

- Ümumilikdə, Azərbaycan gənclərinin dörddə üçə yaxını (74%) hər hansı sosial və ya siyasi fəaliyyətlərdə iştirak etməyib. Bakıdan kənarda yaşayanlar, daha gənc respondentlər və təhsil səviyyəsi daha aşağı olanların siyasi baxımdan fəal olması ehtimalı daha aşağıdır.

- Azərbaycan gəncləri üçün ən önəmli şikayət mənbəyi iqtisadiyyatdır. Onların 58%-i ölkənin üzləşdiyi ən mühüm problem kimi qiymətlərin qalxmasını göstərib. Qeyd etmək vacibdir ki, Azərbaycan gənclərinin 11%-i ərazi bütövlüyü məsələsini ən vacib problem hesab edir və bu, daha çox ikinci ən vacib problem kimi (45%) qeyd olunub.

- Sol və ya sağ təmayüllü siyasi ideologiyalara bağlı olduğunu iddia edən gənclərin sayı azdır. Gənclərin çoxu (36%) özlərini mərkəzi mövqedə yerləşdirir,[7] 32%-i isə ideoloji özünüqiymətləndirmə barədə əmin deyil.

- Əksər respondentlər sol və ya sağ təmayüllü siyasətlər arasında aydın fərqləndirmə apara bilmədiyindən, ideoloji özünüqiymətləndirmə ilə bağlı nəticələrə ehtiyatla yanaşılmalıdır.

- Azərbaycanda gənclərin yalnız kiçik bir qismi (26%) hesab edir ki, Azərbaycan Avropa ölkəsidir. Eyni sayda gənc (27%) bu sualı cavablandıra bilməyib.

- Gənclərin Avropaya baxışları mürəkkəbdir. Gənclərin çoxu Avropanın demokratiya və qanunun aliliyinin mövcud olduğu (45%) və mədəni və elmi nailiyyətləri (40%) olan bir yer olduğuna inanır. Gənclərin üçdə birindən çoxu Avropanı ən zəngin və çiçəklənən region kimi görür (35%). Bununla belə, mənfi hisslər də geniş yayılıb: gənclərin üçdə biri Avropanı öz qaydaları olan yad bir yer (36%), dörddə biri isə aqressiv və soyuq insanların olduğu (22%), mənəvi tənəzzül edən və ənənəvi dəyərlərin itirildiyi (24%) bir yer hesab edir.

- Gənclərin əksəriyyəti (89%) Türkiyənin Azərbaycanın ən yaxın dostu olduğunu bəyan edir. Türkiyə Azərbaycan iqtisadiyyatının inkişafına (86%), insan hüquqlarının qorunmasına (80%) və milli təhlükəsizliyə (90%) töhfə verə bilən ən mühüm xarici tərəfdaş kimi qəbul edilir.

- Türkiyənin iqtisadiyyatın inkişafına, insan hüquqlarına və milli təhlükəsizliyə dəstək verən tərəf kimi müsbət imici bütün sosial-demoqrafik qruplarda yüksək səviyyədədir. Aİ-nin Azərbaycan iqtisadiyyatına müsbət təsirini Bakıda yaşayan gənclər və ali təhsilli gənclər nisbətən daha çox təsdiq edirlər.

- Gənc respondentlərin yarıdan çoxu hesab edir ki, Ermənistanla əməkdaşlıq ölkənin milli dəyərlərinə (52%), milli təhlükəsizliyinə (53%) və dövlətçiliyinə (51%) təhlükə yarada bilər. Respondentlərin çoxu həmçinin iddia edir ki, Ermənistanla əməkdaşlıq Azərbaycanın iqtisadi sisteminə təhlükə yarada bilər (44%). Respondentlərin beşdə biri isə qorxur ki, ABŞ-la əməkdaşlıq da bunu edə bilər.

- Gənclər arasında beynəlxalq təşkilatlarla bağlı fikirlər bölünür. Gənclərin çoxu Aİ (49%), beynəlxalq maliyyə institutları (48%), NATO (46%) və ya digər beynəlxalq təşkilatların (44%) kifayət qədər müsbət və ya açıq-aşkar müsbət rol oynadığını düşünsə də, qalanları ya heç bir qiymət vermir və ya həmin təşkilatların ölkəyə təsirinin mənfi olduğunu düşünür.
- Gənclərə "Qərb" və "Rusiya" seçimi verildikdə, çoxu (48%) "Qərb"ə meyl edir. Bununla belə, "heç bir formada qütbləşmə arzuedilən deyil" (16%) kimi aralıq mövqelər də geniş yayılıb. Qütbləşmənin rədd edilməsi paytaxtda və ali təhsilli gənclər arasında daha geniş yayılıb.
- Azərbaycanda gənclərin böyük hissəsi SSRİ-nin dağılmasının təsirini ya qiymətləndirə bilməyib [30%-i cavabı bilmədiyini deyib, ya da cavab verməkdən imtina edib (8%)]. Neytral (24%) və ya müsbət (26%) cavablar verənlərin payı demək olar eyni idi, cəmi 12%-i isə Sovet İttifaqının dağılmasının mənfi hadisə olduğuna inanır.
- 14-17 yaşlı gənclərin və ibtidai təhsilli gənclərin yarıdan çoxunun Sovet İttifaqının dağılmasına dair heç bir mövqeyi yoxdur ("bilmirəm" və ya "cavab verməkdən imtina edirəm"). Ali təhsilli gənclər (38%) və 25-29 yaş qrupuna daxil olanlar (34%) digər gənclərlə müqayisədə bu hadisəni daha müsbət qiymətləndirib.
- Gənc respondentlərin yarıya yaxını (48%) 1990-cı illərin Azərbaycan üçün nəticələri barədə qərarsız qalıb. Gənclərin qalan hissəsi isə müstəqilliyin ilk onilliyinin daha çox yaxşı (24%), yoxsa pis (27%) şeylər gətirdiyi ilə bağlı sualda fərqli mövqelərə bölünüb.
- SSRİ-nin süqutunun müsbət qiymətləndiriməsi ilə 90-cı illərin müsbət qiymətləndirilməsi arasında uzlaşma müşahidə olunur. Sovet İttifaqının süqutunun yaxşı hadisə olduğunu hesab edənlərin 58%-i 90-cı illərin Azərbaycana pis şeylərdən daha çox yaxşı şeylər gətirdiyini hesab edir.
- 1990-cı illərdən bəri pul qazanmaq (25%) və peşəkar tibbi yardım (17%) kontekstində müəyyən yaxşılaşmalar qeyd edilib.
- Respondentlərin çoxu (43%) Qarabağ münaqişəsinin nəticəsindən məmnunluğunu bildirir, dörddə birdən bir qədər çoxu (28%) isə neytral mövqelər bildirir. Digər şəhər (44%) və kənd (47%) ərazilərində yaşayan gənclər paytaxtda yaşayanlarla müqayisədə (30%) müharibənin nəticəsindən bir qədər daha çox razıdır.
- Gənclərin 28%-i onların ailəsindən ən azı bir şəxsin 44-günlük Qarabağ müharibəsində əsgər, hərbi qulluqçu və ya könüllü kimi iştirak etdiyini bildirib. Paytaxtda yaşayanlarla (22%) müqayisədə, digər şəhər (28%) və kənd (31%) yerlərində yaşayanlar arasında bu rəqəmlər bir az yüksəkdir.
- Respondentlərin böyük qismi (45%) Azərbaycan və Ermənistan arasında nəqliyyat əlaqələrinin açılmasına qarşıdır. Digər şəhər (59%) və kənd (48%) ərazilərində yaşayan gənclər bu ideyaya qarşı çıxdıqları halda, paytaxtda bu ideyanın əleyhinə olanlar daha azdır (19%).

- Gənclərin nəzərəçarpan qismi növbəti 5 il ərzində Qarabağda yeni müharibə perspektivi ilə bağlı suala "bilmirəm" cavabını (29%) verib və ya mövqe bildirməkdən imtina edib (7%). Bununla yanaşı, gənclərin 38%-i müharibənin yenidən başlama riskinin olmadığını hesab edir, 26%-i isə müəyyən dərəcədə mümkün olduğunu bildirir.
- Qarabağ müharibəsi kontekstini və Azərbaycanın qonşularla münasibəti nəzərə alaraq, əksəriyyət (60%) hesab edir ki, vətəndaşlar Azərbaycanın dövlətçiliyinin gücləndirilməsi naminə müxtəlif fədakarlıqlar etməyə hazır olmalıdır. Onlar hesab edir ki, Azərbaycanın irəliləməsi üçün yeganə yol Rusiya (55%) ilə deyil, Türkiyə (89%) ilə inteqrasiyadır.
- Əksəriyyət (56%) "xalqların dinc yaşaması üçün keçmişdə baş verənləri unutmaq daha yaxşıdır" fikri ilə razılaşmır. Bu mövqe dövlətlərlə əməkdaşlığa dair iki fikrin müqayisəsi zamanı da özünü göstərir: gənclərin demək olar ki yarısı (47%) hesab edir ki, Ermənistandan başqa bütün ölkələrlə əməkdaşlıq etmək vacibdir. Cəmi 9%-i Ermənistan da daxil olmaqla bütün ölkələrlə əməkdaşlığa razıdır.
- Gənclər özlərini ən çox Azərbaycan vətəndaşları (90%) kimi eyniləşdirirlər. Sonrakı pillədə yerli-regional (68%) və Qafqaz (66%) səviyyəli özünüeyniləşdirmə dayanır. Digər tərəfdən, daha kosmopolitan şəxsiyyətlər, məsələn dünya vətəndaşı (36%) və ya Avropalı (9%) olmaq gənclərin nəzərəçarpan dərəcədə kiçik hissəsi tərəfindən qeyd edilir. Gənclərin cəmi dörddə biri (25%) özlərinin konkret bir etnik qrupa mənsub olduğunu hesab edir, respondentlərin üçdə biri (33%) isə bu fikri rədd edir.
- Respondentlərin əksəriyyəti (72%) dini qurumların Azərbaycan cəmiyyətində xüsusi rol oynaması fikri ilə razılaşmasa da, eyni sayda gənc (67%) də söz azadlığının bütün dinləri tənqid etməyin mümkünlüyünü ehtiva etməsi fikrinə qarşıdır. Bakıda yaşayanlar (54%) digər şəhər (30%) və kənd yerlərində (24%) yaşayanlarla müqayisədə söz azadlığının dinin tənqidini də ehtiva etməsi fikrini daha çox dəstəkləyir. Eyni zamanda, paytaxtda yaşayan gənclər (50%) digər şəhər yerlərində (19%) və kənd yerlərində (24%) yaşayan gənclərlə müqayisədə dini qurumların xüsusi rol oynadığını daha tez-tez qeyd edir.
- Gənclər hakim mədəniyyətin universallığını dəstəkləməyə meyllidir. 58%-i hesab edir ki, immiqrantlar Azərbaycanın mədəni ənənələrinə uyğunlaşmalıdır. 50%-i isə hesab edir ki, hər kəs eyni adət və ənənələrə əməl edərsə, ölkə üçün daha yaxşı olar. Bundan əlavə, gənclərin 64%-i müxtəlif din və mədəniyyətlərin qarışmasının Azərbaycan üçün faydalı olacağı fikri ilə razılaşmır. Digər şəhər (36%) və kənd (23%) ərazilərində yaşayan gənclərlə müqayisədə, paytaxtda yaşayan gənclər (55%) arasında dini və mədəni müxtəlifliyə dəstək daha geniş yayılıb.
- Mədəniyyət və cəmiyyətlə bağlı ənənəvi mövqelərə baxmayaraq, respondentlərin əksəriyyəti (63%) hesab edir ki, azlıqlara mənsub olan uşaqlara Azərbaycan dilində adi dərslərlə yanaşı, öz ana dillərini öyrənmək imkanı verilməlidir.

- Fərdlərin daha çox məsuliyyət götürməli olması və hökumətə arxalanmalı olmaması fikri respondentlərin 40%-i tərəfindən qəbul edilir və 60%- i tərəfindən rədd edilir. Digər şəhər (36%) və kənd (37%) yerlərində yaşayan gənclərlə müqayisədə paytaxtdakı gənclər (52%) bu cür fərdiyyətçi dəyərləri daha çox dəstəkləyir. Orta (39%) və ya ibtidai (35%) təhsilli gənclərlə müqayisədə ali təhsilli gənclər arasında (50%) şəxsi məsuliyyət daha çox dəstəklənir.

- Şəxsi uğur və ya fiziki görünüşlə bağlı ailə dəyərləri və atributları Azərbaycan gəncləri tərəfindən hamılıqla qəbul edilir, vətəndaş təşəbbüslərində iştirak isə daha az dəstəklənir. Məsələn, evlilik (82%), uşaq sahibi olmaq (77%), partnyoruna sadiq olmaq (86%), məsuliyyət götürmək (86%), müstəqil olmaq (86%), sağlam qidalanmaq (87%) və yaxşı görünmək (82%) gənclərin böyük əksəriyyəti üçün önəmlidir.

- Siyasətdə fəal olmaq (29%) və ya vətəndaş tədbirləri və ya təşəbbüslərində iştirak etmək (32%) Azərbaycanda gənclərin cəmi üçdə biri üçün ortaq dəyərdir. Siyasətdə və vətəndaş təşəbbüslərində iştirak paytaxtda nisbətən daha yüksəkdir: 44%-i üçün siyasətdə fəal olmaq, 49%-i üçün isə vətəndaş təşəbbüslərində iştirak önəmlidir.

- Azərbaycanda gənclər üçün şəxsi ləyaqət (35%), sosial prestij (19%) və maddi sərvət (14%) ən vacib dəyərlərdir. Mənəvi dəyərlərdən altruizm (14%) də tez-tez qeyd edilib, tolerantlıq (3%) və həmrəylik (1%) kimi dəyərlər isə nisbətən kənarda qalıb.

- Azərbaycanda gənclərin hüquq-mühafizə orqanlarına və icraedici hakimiyyət qurumlarına inamı böyükdür[8]: Ordu (97%), Prezident (93%), polis (83%) və milli hökumət (70%) ən çox etibar edilən qurumlar arasındadır.

- Azərbaycanda ən az etibar edilən institutlara KİV (46% inamsızlıq[9]), siyasi partiyalar (46% inamsızlıq) və vətəndaş cəmiyyəti təşkilatları (42% inamsızlıq) daxildir. Bu qurumlara inam paytaxtdan kənarda yaşayanlarla müqayisədə paytaxtda yaşayan gənclər arasında daha yüksəkdir. Bundan əlavə, ali təhsilli gənclər yuxarıda qeyd olunan qurumlara nisbətən daha yüksək inam ifadə edirlər.

- Ermənistandan olanlar (57%), homoseksual şəxslər[10] (37%) və narkomanlar (23%) ən çox rədd edilən qruplardır və respondentlər hətta onların Azərbaycana daxil olmasına belə imkan verilməməli olduğunu bildirib. Ən çox dəstəklənən qruplara gəldikdə isə gənclər qaçqınları (14%) və məcburi köçkünləri (10%) öz ailə üzvləri kimi qəbul edərdi.

- Gənclərin əksəriyyəti ata-ana və ya baba-nənələri ilə yaşayır. Ümumilikdə, gənclər valideynləri ilə yaxşı yola getdiyini (87%) və yalnız kiçik bir hissəsi onlarla tez-tez mübahisə etdiklərini (2%) bildirir. Cəmi 5%-i dostları və ya digər qohumları ilə yaşadığını və 1%-dən azı tək yaşadığını bildirir. Öz partnyoru/həyat yoldaşı ilə yaşayanların sayı paytaxtda və digər şəhərlərdə yaşayan sakinlərlə müqayisədə, kənd yerlərində daha çoxdur.

- Azərbaycanda gənclər iqlim dəyişikliyi barədə narahat deyil: onların 1%-dən az hissəsi bunu Azərbaycanın hazırda üzləşdiyi ən mühüm problemlər sırasında könüllü qeyd edib.

- Konkret soruşduqda isə 45%-i iqlim dəyişikliyinin qlobal fövqəladə hal olması ilə razılaşır, 28%-i konkret cavab verməkdə çətinlik çəkir və 5%-i suala cavab verməkdən imtina edir.

- Əksəriyyət (63%) hesab edir ki, iqlim dəyişikliyinin səbəbləri ya tamamilə təbiidir (31%), ya da ilk növbədə təbii (32%) səbəblərdən qaynaqlanır. Yalnız 33%-i hesab edir ki, iqlim dəyişikliyinin kökləri bu və ya digər şəkildə insan fəaliyyəti ilə bağlıdır. Təbii səbəblər ən çox Bakıda yaşayan gənclər tərəfindən qeyd edilir (85%). Eyni iddia digər şəhərlərdə yalnız gənclərin 64%-i, kənd yerlərində isə 54%-i tərəfindən qeyd edilir.

- Səbəblərlə bağlı fərqlərə baxmayaraq, respondentlərin əksəriyyəti (61%) iqlim dəyişikliyi ilə mübarizə üçün preventiv və məhdudlaşdırıcı tədbirlərin görülməsini dəstəkləyir. Paytaxtda yaşayan gənclər, ali təhsilli gənclər və yaşayış səviyyəsi daha yüksək olan gənclər bu cür tədbirləri fərqli sosial-demoqrafik xüsusiyyətlərə malik gənclərlə müqayisədə daha həvəslə dəstəkləyir.

- Ümumilikdə, gənclər gələcəyə nikbin baxırlar, çünki qlobal istiləşmənin yüngülləşdirilməsi səylərini eşidəndə onların 72%-i ümid, 63% isə əminlik hiss edir. Bununla belə, respondentlərin nəzərəçarpan qismi (51%) bu tədbirlərin onlar üçün fərqi olmadığını bildirir.

- Gənclərin yalnız kiçik bir qismi (13%) ən azı bir dəfə xaricdə olub. 25-29 yaşlı və ali təhsilli gənclər daha gənc və ali təhsili olmayanlarla müqayisədə xarici ölkələrə daha çox səfər ediblər.

- Respondentlərin daha da az qismi (bütün gənclərin 3%-i və xaricə səyahət təcrübəsi olanların 26%-i) 6 aydan çox xaricdə qalıb. Gənclərin yalnız 2%-i xarici ölkələrə təhsil və ya iş səbəbi ilə səfər etdiyini bildirir (xaricdə olanların 18%-i).

- Bundan əlavə, gənclərin əksəriyyəti (80%) təhsil və ya iş məqsədi ilə xarici ölkələrə getmək istəmir. Azərbaycanda qalmaq istəyi paytaxtda yaşayan gənclər, gənc qadınlar, ailəli respondentlər, 18-29 yaşlı gənclər və ali təhsilli gənclər arasında daha yüksəkdir.

- Xaricdə olmuş və ya iş və ya təhsil məqsədi ilə xarici ölkələrə getmək istəyənlərin əksəriyyəti başqa ölkəyə köçmələrinin əsas səbəbi kimi daha yüksək maaşlar (51%) və daha yaxşı təhsil perspektivlərini (44%) göstərir. Köçmək üçün ən çox arzu edilən təyinat ölkələr Türkiyə (39%), Almaniya (16%) və Rusiyadır (12%).

- Azərbaycanda gənclər növbəti 5 il ərzində ailələrinin (48%) və ölkənin (55%) həyat səviyyəsinin yaxşılaşacağına nikbin baxırlar. Lakin bir çoxu qərarsızdır.

2

# GİRİŞ

Gənclərin münasibətlərinin, onları narahat edən məsələlərin və inanclarının aydınlaşdırılması cəmiyyətin nəzərəçarpan bir hissəsini, daha dəqiq desək, ölkə əhalisinin üçdə birə yaxınını gənclərin təşkil etdiyi Azərbaycan kimi ölkələrdə xüsusi əhəmiyyət daşıyır. Buna baxmayaraq, gənclərə dair tədqiqatlarla bağlı meylləri tədqiq edən elmi ədəbiyyatın çatışmazlığı müşahidə olunur. Bu mövzunun tədqiq olunduğu nadir elmi işlərə gəldikdə isə onlar gənclər üzrə siyasətlərlə əlaqəli mövcud problemləri və bu siyasətlərin gənclərin ehtiyacları ilə əlaqələndirilmədiyini göstərir. [11]

Bu səbəbdən, bu tədqiqat layihəsinin əsas məqsədi Azərbaycandakı gənc insanların həyatlarını araşdırmaq idi. Fridrix Ebert Fondu regionda və digər postsovet ölkələrində aparılmış oxşar tədqiqatlara da istinad edərək, Azərbaycandakı gənclərin əsas narahatlıqlarını, dəyərlərini, inanclarını və hədəflərini araşdırmaq üçün hərtərəfli metodologiya və alətlər hazırladı. Məlumatlar Azərbaycanda gənclər arasında milli səviyyədə reprezentativ sorğu vasitəsilə toplandı. Əlavə olaraq, müxtəlif yaş qruplarına daxil olan gənclərlə üç fokus qrupu müzakirəsi aparıldı. Nəticədə, tədqiqat Azərbaycanda gənclərə dair aşağıdakı məlumatları toplamağa nail oldu:

- Gənclərin ev təsərrüfatı və yaşayış şəraiti
- Təhsil, məşğulluq və maliyyə vəziyyəti
- Sovet İttifaqının dağılmasına münasibətlər, 1990-cı illərin və ikinci Qarabağ müharibəsinin qiymətləndirilməsi
- Siyasətə maraq və ideoloji seçimlər
- Beynəlxalq siyasətlə bağlı baxışlar
- Dəyərlər, şəxsiyyət, mənsubiyyət və institusional inam
- Meyllər və mobillik təcrübəsi
- İqlim dəyişikliyi və qlobal istiləşməyə dair mövqelər

Tədqiqatda "gənclər" və ya "gənc insanlar" dedikdə, Azərbaycanda yaşayan 14-29 yaşlı gənc şəxslər nəzərdə tutulur.

Bu hesabat bir neçə fəsil və yarımfəsillərdən ibarətdir. Hesabatın növbəti bölməsində tədqiqatın metodologiyası, ardınca isə nəticələr təqdim olunur. "Gəlinən nəticələr" bölməsi 8 geniş fəslə bölünür. Əvvəlcə, gənclərin ev təsərrüfatı və yaşayış şəraiti təqdim olunur. Sonrakı fəsildə ümumi təhsil mühiti, məşğulluq vəziyyəti və karyera inkişafı mövzuları müzakirə edilir. Üçüncü fəsil gənclərin demokratiya ilə bağlı baxışları, siyasətə marağı və siyasətdə iştirakı, habelə ideoloji seçimlərindən bəhs edir. Sonrakı fəsildə gənclərin xarici siyasətlə bağlı seçimləri təqdim olunub. Daha sonra gənclərin Azərbaycanın yaxın keçmişi və mühüm hadisələrlə bağlı mövqelərinə nəzər salınır. Ən iri fəsil olan 6-cı fəsildə gənclərin milli kimliyi, mənsubiyyəti və dəyərləri ilə bağlı müxtəlif mövzular araşdırılır. Bununla yanaşı, həmin fəsildə institusional inam və ailə mühitinə dair gəlinən nəticələr təqdim olunur. Sonrakı fəsildə isə iqlim dəyişikliyi və qlobal istiləşməyə münasibətlər təqdim olunur. "Gəlinən nəticələr" fəsli narahatlıqlar və hədəflərə dair fəsillə yekunlaşır, qeyd olunan fəsildə gənclərin miqrasiya niyyətləri və gələcəyə dair mövqeləri müəyyənləşdirilir. Hesabat "Yekun nəticələr" bölməsi ilə başa çatır.

3

# METODOLOGİYA

Bu tədqiqatda gənclərin müxtəlif mövzular üzrə münasibətlərini, fikirlərini və təcrübələrini araşdırmaq üçün müxtəlif tədqiqat metodlarının kombinasiyasından istifadə edilib. Belə ki, məlumatların toplanması üçün fokus qrup müzakirələri vasitəsilə keyfiyyət əsaslı məlumatlar toplanılıb və 14-29 yaşlı gənclər arasında milli səviyyəli kəmiyyət əsaslı sorğu aparılıb. Tədqiqat metodologiyası Fridrix Ebert Fondunun (FES) Cənubi Qafqaz Regional Nümayəndəliyinin sifarişilə və onunla məsləhətləşmə şəraitində Birləşmiş Krallıqda yerləşən "R-Research Limited" şirkəti tərəfindən hazırlanıb.

Müfəssəl seçmə planı və məlumatların toplanması üzrə protokol Berlində yerləşən Şərqi Avropa və Beynəlxalq Araşdırmalar Mərkəzinin (ZOiS) nümayəndəsi Dr.Feliks Kravatsekin töhfəsi ilə "R-Research" tərəfindən hazırlanıb və FES tərəfindən təsdiq edilib. Sorğu anketi FES-in Tbilisi və Berlin ofisləri ilə məsləhətləşmə şəraitində ingilis dilində hazırlanıb. Kəmiyyət əsaslı tədqiqatın sahə işi 8 iyun - 21 iyul 2022-ci il tarixləri arasında icra edilib. 14-29 yaşlı 1605 respondentdən ibarət milli səviyyəli reprezentativ seçmə Bakıda fəaliyyət göstərən bir şirkət tərəfindən tərtib olunub[12] . Respondentlər çoxmərhələli, stratifikasiya olunmuş seçmə yanaşması ilə seçilib. Ev təsərrüfatlarında respondentlər yaş və gender kvotası nəzərə alınaraq seçilib. Orta hesabla, tamamlanmış sorğular 42 dəqiqə çəkib, standart kənaraçıxma 9,13 dəqiqə olub.

Kəmiyyət əsaslı sorğu əsasında tədqiqatın gəldiyi nəticələr tədqiqedici və təsdiqedici statistik təhlil komponentlərini tətbiq edir. Araşdırılan dəyişənlərdən asılı olaraq, əsas sosial-demoqrafik dəyişənlər arasında statistik əhəmiyyətli fərqləri bildirmək üçün xüsusi reqressiya modellərindən istifadə edilib. Bu hesabatda istifadə olunan əsas sosial-demoqrafik dəyişənlər aşağıdakılardır: yaş qrupları (14-17, 18-24 və 25-29), cins, yaşayış məntəqəsinin növü (paytaxt, digər şəhərlər, kənd), təhsil səviyyəsi (ibtidai/natamam orta, tam orta və tamamlanmış/natamam ali təhsil) və etnik mənsubiyyət (etnik azərbaycanlılar və özlərini azərbaycanlıdan başqa etnik qrupa aid edənlər (məsələn, ləzgilər, gürcülər və ya başqaları).[13] Məlumatların şərhini sadələşdirmək üçün qruplar arasındakı fərqlər çarpaz cədvəllərdən istifadə etməklə təqdim olunur. Qeyd etmək vacibdir ki, bəzi hallarda yuvarlaqlaşdırma xətalarına görə faiz göstəricilərinin cəmi 100%-ə bərabər olmaya bilər və ya faktiki və bildirilən məlumatlar arasında 1% uyğunsuzluq ola bilər.

Tədqiqatın keyfiyyət hissəsinə gəldikdə, Bakıda 14-29 yaşlı gənclər arasında üç fokus qrup müzakirəsi aparılıb. Fokus qrupları "R-Research" şirkətinin birbaşa nəzarəti altında Bakıda fəaliyyət göstərən bir şirkət tərəfindən təşkil edilib və aparılıb. Tədqiqat vasitələri, o cümlədən müzakirə təlimatları və göstərişlər FES, Dr.Feliks Kravatsek və "R-Research" arasında əməkdaşlıq yolu ilə hazırlanmışdır. Bu müzakirələrdə COVID-19 pandemiyası və müvafiq məhdudiyyətlər zamanı yaşanmış şəxsi təcrübələr[14] , müasir Azərbaycanda yaşamağın mahiyyəti, siyasi və ideoloji seçimlər kimi bir çox mövzular araşdırılıb. Bundan başqa, gənclər iqlim dəyişikliyi, miqrasiya və təhsilə dair mövqelərini, Sovet İttifaqına və yaxın keçmişin digər hadisələrinə münasibətlərini təqdim ediblər. Fokus-qrup müzakirələri lentə alınıb və yazıya köçürülüb. Bu hesabatda keyfiyyət əsaslı tədqiqatdan əldə edilən fikirlər kəmiyyət əsaslı tədqiqatın nəticələri ilə yanaşı şəkildə, mövzular üzrə təqdim olunur.

**Qeyd:** Verilənlər müvafiq yuvarlaqlaşdırma qaydalarına uyğun olaraq təqdim olunur. Bəzi hallarda ilkin dəyərlər ixtiyari dəyər müəyyənləşdirilmədən 100%-ə çatmır, ona görə də bunun əvəzinə ilkin dəyərlər saxlanılır. Nəticədə qrafikdə meydana çıxan kənaraçıxmalar bununla bağlıdır.

4

# I HİSSƏ: EV TƏSƏRRÜFATI VƏ YAŞAYIŞ ŞƏRAİTİ

# GİRİŞ

Bu bölmədə Azərbaycanda gənclərin iqtisadi vəziyyətinin (öz düşüncələrinə əsasən) hərtərəfli icmalı təqdim olunur. Təhlildə əsas diqqət gənclərin müqayisə nöqteyi-nəzərindən öz ailələrinin vəziyyətinə necə yanaşdığına və onların əsas gəlir mənbələrinin nə olduğuna yetirilir. Bundan əlavə, mətndə subyektiv rifahın göstəriciləri təhlil üçün təqdim olunur və araşdırılır, Azərbaycan gənclərinin əsas sosial-demoqrafik qrupları arasındakı fərqlər müəyyən edilir.

# GƏLİNƏN NƏTİCƏLƏR

- Azərbaycanda gənclərin yarıdan çoxu (51%) öz ev təsərrüfatlarının ərzaq və geyimdən daha çox şey almağa, o cümlədən avtomobil (14%) və ya iri məişət cihazları (36%) almağa maddi imkanının çatdığını bildirir. Gənclərin 28%-i geyim və ayaqqabı üçün kifayət qədər pul olduğunu, lakin iri məişət cihazları almaq üçün kifayət qədər pul olmadığını bildirir. Gənclərin 14%-i maliyyə nərdivanının ən aşağı pilləsində yerləşir: 10%-i yalnız ərzaq, 4%-i isə əsas zəruri şeyləri ala bilir.
- Orta hesabla, 7 ballıq subyektiv rifah şkalasında Bakı sakinləri 5 bal, kənd yerlərində yaşayanlar isə demək olar ki, ondan bir bal az (4,2) toplayır. Ali təhsili olanlarla (5,2) ibtidai təhsili olanlar (4,2) arasındakı bal fərqi isə daha kəskindir. Milli azlıqlara mənsub olduğunu bəyan edən gənclərin subyektiv rifah şkalasında milliyyətcə Azərbaycanlı olan gənclərlə müqayisədə daha az bal toplamaq ehtimalı daha yüksəkdir.
- Azərbaycanda gənclərin əksəriyyəti (59%) öz maddi vəziyyətlərinin digər vətəndaşlarla eyni olduğunu hesab edir. Gənc kişilərin, Bakı sakinlərinin, ən yuxarı yaş qrupundakı respondentlərin, işləyən şəxslərin və ali təhsili olanların öz sosial-iqtisadi vəziyyətinin digərləri ilə müqayisədə daha pis olduğunu hesab etməsi ehtimalı daha yüksəkdir.
- Azərbaycan gənclərinin yarıdan çoxu şəxsi gəlirə malikdir (o cümlədən maaş və digər gəlir növləri). Gənclərin 59%-i həm də maddi baxımdan valideynlərindən, qohumlarından və partnyorlarından/həyat yoldaşlarından asılıdır.[15] Gənclərin yalnız 7%-i dövlətdən yardım, o cümlədən ailə müavinəti alır.
- Bakıdakı gənclərin əksəriyyəti (61%) müəyyən formada şəxsi gəlirə malikdir. Bakıdan kənarda yaşayan gənclər arasında isə ailə üzvlərindən asılı olanların sayı daha çoxdur. Gənc qadınların, 14-17 yaş qrupuna daxil olanların və azərbaycanlılardan başqa etnik qrupa mənsub olduğunu qeyd edənlərin ailə üzvlərindən asılı olması ehtimalı gənc kişilərlə, yuxarı yaş qrupları ilə və etnik azərbaycanlı gənclərlə müqayisədə daha yüksəkdir.

# MALİYYƏ VƏZİYYƏTİ VƏ EV TƏSƏRRÜFATININ ŞƏRAİTİ

Bu fəslin ilk bölməsində əsas diqqət gənclərin subyektiv rifahına yetirilir. Subyektiv rifah müxtəlif sosial-iqtisadi göstəricilər və münasibətlərlə əlaqəli olsa da, iqtisadi təhlillərdə onun rolu, adətən, diqqətdən kənarda qalır.[16] Respondentlərdən əvvəlcə öz ev təsərrüfatlarının iqtisadi vəziyyətini qiymətləndirmələri xahiş olundu, sonra isə onların fikrincə, öz icmalarındakı və Azərbaycandakı digər ev təsərrüfatları ilə müqayisədə onların iqtisadi vəziyyətinin necə olduğu ilə bağlı əlavə dəqiqləşdirici suallar verildi.

Ev təsərrüfatlarının iqtisadi vəziyyətinin respondentlərin özü tərəfindən qiymətləndirilməsi ilə bağlı onu qeyd etmək lazımdır ki, respondentlərdən ev təsərrüfatlarının hansı əşyaları və ya xidmətləri ala biləcəyini söyləmələri xahiş edildi. Variantlar ən kövrək iqtisadi vəziyyətdən ("ərzaq üçün belə kifayət qədər pul yoxdur") ən yaxşı iqtisadi vəziyyətədək ("Bizim hər hansı bir maliyyə çətinliyimiz yoxdur, lazım olduqda mənzil və ya həyət evi ala bilərik") ardıcıllıqla sıralanmışdı (Şəkil 1). Ümumilikdə, respondentlərin çoxu öz ev təsərrüfatlarının ərzaq, geyim və iri məişət əşyaları kimi xərcləri qarşılaya biləcəyini, lakin avtomobil ala bilməyəcəyini qeyd edib (36%). Sonrakı ən çox qeyd edilən seçim isə bir pillə aşağı idi: Respondentlərin 28%-i bildirib ki, onların ev təsərrüfatları ərzaq və geyim kimi şeyləri ala bilər, lakin iri məişət əşyalarını ala bilməz.

Şəkil 1: **Aşağıdakı ifadələrdən hansı hazırda sizin ev təsərrüfatınızın maliyyə vəziyyətinə daha çox uyğundur? (%, tam seçmə, tək variantlı)**




Maliyyə nərdivanının ən aşağı pilləsində respondentlərin 14%-i yerləşir: Respondentlərin 10%-i geyim deyil, yalnız ərzaq ala bildiyini, 4%-i isə ən zəruri şeyləri almağa imkanının olduğunu qeyd edib. Ərzaq almağa belə pulunun olmadığını qeyd edənlərin faiz göstəricisi sıfıra yaxın olub.

Maddi vəziyyəti ən yaxşı olan respondentlərə gəldikdə, 14%-i ev və ya mənzildən başqa hər şey ala bildiyini deyib. Demək olar ki, heç kim öz ev təsərrüfatlarının asanlıqla ev ala biləcəyini deməyib. Respondentlərin 7%-i suala cavab verə bilməyib və ya cavab variantı seçməkdən çəkinib.

Müxtəlif sosial-demoqrafik qruplara daxil olan gənc azərbaycanlılar öz ev təsərrüfatlarının iqtisadi vəziyyətini necə qiymətləndirir? Sosial-demoqrafik qruplar arasındakı fərqləri öyrənmək məqsədilə, yuxarıdakı sual 7 ballıq şkalaya çevrildi: 1 bal ən zəif maddi vəziyyəti ("ərzaq almaq üçün belə kifayət qədər pul yoxdur") və 7 bal ən yaxşı maddi vəziyyəti ("lazım olduqda, mənzil və ya ev ala bilərik") göstərir. Bu şkalada azərbaycanlı gənclər orta hesabla 4,5 bal topladı (Şəkil 2). Ali təhsil almış (5,2) respondentlərlə tam orta (4,3) və ya ibtidai (4,4) təhsil almış respondentlər arasındakı fərq kəskindir. Bakı sakini olan gənclərlə (orta bal - 5,0) paytaxtdan kənarda yaşayan gənclər arasında maddi rifah baxımından nəzərəçarpan fərq mövcuddur.

Təəssüf ki, Azərbaycanın milli azlıq icmalarına mənsub olan gənclər milliyyətcə azərbaycanlı olan gənclərlə (4,5) müqayisədə nəzərəçarpan dərəcədə az bal (orta hesabla 3,9) toplayıb. İşləyən gənclərin balı (4,7) işləməyən gənclərlə (4,3) müqayisədə nisbətən yüksəkdir.

Respondentlərdən öz ev təsərrüfatlarının iqtisadi vəziyyətini icmalarındakı və Azərbaycandakı digər ev təsərrüfatları ilə müqayisə etmək xahiş edildi. Ümumilikdə, Azərbaycandakı gənclərin əksəriyyəti hesab edir ki, onların maddi vəziyyəti digər vətəndaşlarla eynidir. Gənclərin buna bərabər qismi (59%) razılaşıb ki, onların ev təsərrüfatlarının iqtisadi vəziyyəti həm yaşadıqları şəhər və ya kəndlərdəki insanların, həm də ümumilikdə, Azərbaycandakı insanların əksəriyyətinin iqtisadi vəziyyəti ilə oxşardır (Şəkil 3). Ev təsərrüfatlarının maddi vəziyyətinin icmadakı (15%) və ya ümumilikdə, Azərbaycandakı (16%) digər ev təsərrüfatları ilə müqayisədə daha yaxşı olduğunu qeyd edən respondentlərin payı bir-birinə yaxın olub.

Respondentlərin 18%-i onların ev təsərrüfatlarının maddi vəziyyətinin öz icmalarındakı digər ev təsərrüfatları ilə müqayisədə daha pis, 14%-i isə ümumilikdə, Azərbaycandakı ev təsərrüfatları ilə müqayisədə daha pis olduğunu düşünür. Qeyd etmək lazımdır ki, respondentlərin onda birə yaxını əmin deyildi: respondentlərin

8%-i öz ev təsərrüfatlarını icmalarındakı digər ev təsərrüfatları ilə, 11%-i isə Azərbaycandakı digər ev təsərrüfatları ilə necə müqayisə edəcəyini bilməyib və ya cavab verməkdən imtina edib.

Şəkil 2: **Fərz edilən iqtisadi vəziyyətin orta göstəriciləri, əsas əhali qrupları üzrə ("Bilmirəm" cavabı verən və ya cavab verməkdən imtina edənlər istisna olmaqla tam seçmə, 93%)**




Şəkil 3: **...-də yaşayan insanların əksəriyyətini düşünsək, sizin ev təsərrüfatınızın maddi vəziyyəti onların maddi vəziyyəti ilə müqayisədə necədir? (%, tam seçmə)**



Şəkil 4: **Rayon və ya şəhərinizdə/kəndinizdə yaşayan insanların əksəriyyətini düşünsək, sizin ev təsərrüfatınızın maddi vəziyyəti onların maddi vəziyyəti ilə müqayisədə necədir? (%, əsas əhali qrupları üzrə. "Daha pis" və "xeyli pis" cavab variantları "daha pis" variantında birləşdirilib. "Daha yaxşı" və "xeyli yaxşı" cavab variantları "daha yaxşı" variantında qruplaşdırılıb. Tam seçmə)**




Qeyd etmək lazımdır ki, əlverişli mövqedə olduğu hesab edilə biləcək qrupların (kişilər, Bakı sakinləri, ən yuxarı yaş qrupundakı respondentlər, işləyən şəxslər, ali təhsilə malik olanlar) öz ev təsərrüfatlarının maddi vəziyyətinin icmadakı əksər ev təsərrüfatları ilə müqayisədə daha pis olduğunu hesab etməsi ehtimalı daha yüksəkdir (Şəkil 4). Bakıdakı gənclərin dörddə bir hissəsi, paytaxtdan kənarda yaşayan gənclərin isə 16%-i hesab edir ki, onların ev təsərrüfatlarının maddi vəziyyəti yaşadıqları şəhərdəki digər ev təsərrüfatları ilə müqayisədə daha pisdir. Gənc kişilərin beşdə biri hesab edir ki, onların ev təsərrüfatının maddi vəziyyəti yaşadıqları icmadakı digər ev təsərrüfatları ilə müqayisədə daha pisdir. Gənc qadınlar arasında bu göstərici 15%-dir. Qeyd etmək lazımdır ki, sonuncu qrupun daha böyük hissəsi (18%) öz icmalarındakı digər ev təsərrüfatları ilə müqayisədə daha yaxşı yaşadığını hesab edir. Gənc kişilər arasında bu göstərici cəmi 13%-dir.

Ali təhsilə malik olan respondentlərin üçdə birindən çoxu (38%) öz icmalarındakı digər ev təsərrüfatlarından daha pis yaşadığını, cəmi 1%-i isə daha yaxşı yaşadığını hesab edir. Müqayisə üçün, təhsil səviyyəsi daha aşağı olan Azərbaycan gəncləri arasında digərlərindən daha yaxşı yaşadığını düşünənlərin sayı digərlərindən daha pis yaşadığını düşünənlərdən daha çoxdur.

Ən yuxarı yaş qrupundakı (25-29 yaş) respondentlərin dörddə birə yaxını (23%) öz ev təsərrüfatlarının müvafiq icmadakı digər ev təsərrüfatlarından daha pis yaşadığını hesab edib. Ən gənc yaş qrupu arasında bu göstərici 18%, 18-24 yaş qrupunda isə 12% olub. Qeyd etmək lazımdır ki, işləyən respondentlərin beşdə birə yaxını (21%) icmalarındakı digər ev təsərrüfatları ilə müqayisədə daha pis yaşadığını hesab edib. İşsiz respondentlər arasında bu göstərici 14%-dir.

Bakı sakinləri və ali təhsillilər də analoji olaraq, Azərbaycandakı digər ev təsərrüfatları ilə müqayisədə öz müvafiq sosial-iqtisadi vəziyyətlərini mənfi qiymətləndirib. Bakı sakinlərinin beşdə birindən çoxu (22%) digər azərbaycanlılarla müqayisədə daha pis yaşadığını hesab edib. Eyni cür düşünən ali təhsilli gənclərin payı isə 31%-dir. Qeyd edilməlidir ki, sonuncu qrupun cəmi 3%-i digər azərbaycanlılarla müqayisədə daha yaxşı yaşadığını hesab edir.

# GƏLİR MƏNBƏLƏRİ

Daha sonra biz Azərbaycan gənclərinin əsas gəlir mənbələrini araşdırdıq. Ölkənin 14-29 yaşlı əhalisinin yarıya yaxını müəyyən formada şəxsi gəlirə malikdir (Şəkil 5). Daha bir önəmli dolanışıq mənbəyi valideyn dəstəyidir. Bu, gənclərin üçdə birindən çoxu tərəfindən qeyd olunub (38%). Valideyn və ya qohumları (16%) və partnyorundan (15%) maddi dəstək aldığını qeyd edən gənclərin xüsusi çəkisi bir-birinə yaxın olub. Gənclərin daha az qismi ailə pensiyası (6%), dövlət dəstəyi və ya kirayə gəliri (1%) kimi variantları qeyd edib. Kredit və digər mənbələr gəlir mənbəyi kimi demək olar ki, qeyd edilməyib.

Yuxarıda göstərilən gəlir mənbələri üç əsas kateqoriyada qruplaşdırıla bilər. Birinci qrupa maddi baxımdan digərlərindən asılı olmayan respondentlər, məsələn, şəxsi maliyyə mənbələri olan, kirayə gəlirləri olan və qrant və ya tələbə krediti olan respondentlər daxildir. Ümumilikdə, Azərbaycan gənclərinin təqribən 51%-nin digərlərindən maddi asılılığı yoxdur (Şəkil 6). Qeyd etmək lazımdır ki, bu onların digər gəlir mənbələrinin olmadığını ehtiva etmir. Çünki respondentlərə bu suala cavab verərkən uyğun hesab etdikləri istənilən sayda cavabı seçmək imkanı verilib.

Azərbaycan gənclərinin yarıdan çoxu - təqribən 59%-i maddi baxımdan asılıdır, yəni valideyn və ya qohumlarından maddi yardım alır və ya partnyorunun dəstəyindən istifadə edir. Gənclərin cəmi 7%-i hökumətdən müəyyən formada yardım, məsələn, dövlət dəstəyi və ya ailə pensiyası alır.

Gəlir mənbələri baxımından əsas sosial-demoqrafik qruplar üzrə Azərbaycan gəncləri arasında fərqlər mövcuddur. Paytaxt Bakı şəhəri ölkədə iqtisadi baxımdan ən inkişaf etmiş coğrafi zonadır. Təəccüblü deyil ki, paytaxtda yaşayan gənclərin əksəriyyəti (61%) müəyyən formada şəxsi gəlirə malik olduğunu bildirir, cəmi 38%-i isə digərlərindən asılıdır. Bakıdan kənarda şəhər ərazilərində (47%) və kənd ərazilərində (49%) yaşayan gənclərin yarıdan azı müəyyən formada şəxsi gəlirə malik olduğunu bildirir. Bu qruplarda respondentlərin əksəriyyəti (müvafiq olaraq 67% və 64%) maddi baxımdan asılıdır, 7-9%-i dövlətdən yardım alır.

Gənc qadın və kişilər arasında fərq kəskindir. Şəxsi gəliri olan gənc qadınların payı daha az (36%), maddi baxımdan asılı olanların payı daha yüksəkdir (72%). Bunun əksinə, gənc kişilərin üçdə ikiyə yaxını (64%) müəyyən şəxsi gəlirə malikdir, yarıdan azı (48%) digərlərindən asılıdır.

Şəkil 5: **Gəlir mənbələriniz hansılardır? (%, çoxseçimli, tam seçmə)**



Şəkil 6: **Gəlir mənbələri, əsas əhali qrupları üzrə bölgüdə (%, yalnız statistik əhəmiyyəti olan fərqlər göstərilir, tam seçmə)**




Yaş qrupları arasında 18 yaşdan aşağı gənclərin böyük əksəriyyəti (95%) digərlərindən asılıdır. 18-24 yaş qrupundakı gənclərin 55%-i, 25-29 yaş qrupundakı gənclərin 72%-i şəxsi gəlirə malikdir. Bununla belə, 18-24 yaşlı gənclərin 57%-i kimdənsə asılıdır. 25 və yuxarı yaşlı gənclər arasında bu göstərici daha aşağıdır (41%).

Ölkə gənclərinin 7%-ə yaxınını təşkil edən milli azlıqların digərlərindən asılı olmaq ehtimalı (69%) milliyyətcə azərbaycanlı olan gənclərlə müqayisədə (58%) daha yüksəkdir. Milli azlıqlara mənsub olan gənclərin cəmi 41%-ə yaxını şəxsi gəlirə malikdir. Milliyyətcə azərbaycanlı olan gənclərin isə hər ikisindən birinin (51%) şəxsi gəliri var. Milliyyətcə azərbaycanlı olan gənclərlə müqayisədə (6%) milli azlıqların dövlət yardımı almaq (14%) ehtimalı daha yüksəkdir.

Gözlənildiyi kimi, işləyən respondentlərin mütləq əksəriyyətinin şəxsi gəliri var, işsiz respondentlərin əksəriyyəti isə digərlərindən asılıdır. Şəxsi gəliri olan subay gənclərin payı daha azdır. Bunun səbəbi böyük ehtimal ki, daha gənc olması və valideynləri ilə yaşamasıdır. Evli respondentlərin müəyyən şəxsi gəlirə malik olma ehtimalı daha yüksək olsa da, onların yarıdan çoxu (52%) maddi baxımdan digərlərinin maliyyə dəstəyinə arxalanır.

# MÜZAKİRƏ

Azərbaycan əsasən yüksək neft qiymətləri və hasilat sənayesinin inkişafı sayəsində 2004-2014-cü illərdə heyrətamiz iqtisadi inkişaf prosesi keçib.[17] Bu, ölkəyə yoxsulluq səviyyəsini azaltmağa (hazırda 5-6%[18]), eyni zamanda inkişaf etməkdə olan ölkələr arasında inklüziv iqtisadi inkişaf baxımından ilk sıralarda olmağa imkan verib.[19] 2014-cü ildə neft qiymətlərinin kəskin enməsindən sonrakı gəlir bərabərsizliyinə dair rəqəmlər mövcud olmasa da, Asiya İnkişaf Bankının hesablamalarına görə, Azərbaycanın rayonları inkişaf və investisiyalar baxımından əhəmiyyətli dərəcədə geridə qalır.[20]

Sorğunun nəticələri bu makroiqtisadi müşahidələri təsdiqləyir. Gənclərin əksəriyyəti əsas iqtisadi ehtiyacları qarşılamaq imkanına malik olduğunu bildirsə də, Bakı və digər ərazilər arasındakı bərabərsizlik aşkar görünür. Azərbaycanda gənclərin yarıdan çoxu (51%) ailələrinin ərzaq və geyimdən daha çox şey almağa, o cümlədən avtomobil (14%) və ya iri məişət cihazları (36%) almağa maddi imkanının çatdığını bildirir. Qeyd etmək lazımdır ki, sonuncu müşahidə respondentlərin böyük qisminə şamil edilir. Gənclərin 28%-i geyim və ayaqqabı üçün kifayət qədər pul olduğunu, lakin iri məişət cihazları almaq üçün kifayət qədər pul olmadığını bildirir. Gənclərin 14%-i maliyyə nərdivanının ən aşağı pilləsində yerləşir: 10%-i yalnız ərzaq, 4%-i isə əsas zəruri şeyləri ala bilir.

Bakı ilə kənd ərazilərinin sakinləri arasındakı bərabərsizlik kəskindir. Orta hesabla, Bakı sakinləri 7 ballıq subyektiv rifah şkalasında 5 bal, kənd sakinləri isə demək olar ki 1 bal aşağı (4,2) toplayır. Ali təhsilli gənclərlə (5,2 bal) ibtidai təhsilli gənclər (4,4 bal) arasındakı fərq isə daha da kəskindir. Milli azlıqlara mənsub olan gənclərin subyektiv rifah şkalasında milliyyətcə azərbaycanlı olan gənclərlə müqayisədə daha aşağı bal toplamaq ehtimalı daha yüksəkdir.

Ümumilikdə, Azərbaycandakı gənclərin əksəriyyəti hesab edir ki, onların maddi vəziyyəti digər vətəndaşlarla eynidir. Respondentlərin buna bərabər qismi (59%) razılaşıb ki, onların ev təsərrüfatlarının iqtisadi vəziyyəti həm yaşadıqları şəhər və ya kəndlərdəki insanların, həm də ümumilikdə Azərbaycandakı insanların əksəriyyətinin iqtisadi vəziyyəti ilə oxşardır. Təəccüblüdür ki, potensial olaraq daha əlverişli mövqedə olanların (kişilər, Bakı sakinləri, ən yuxarı yaş qrupundakı respondentlər, işləyən şəxslər və ali təhsili olanlar) öz sosial-iqtisadi vəziyyətinin digərləri ilə müqayisədə daha pis olduğunu hesab etməsi ehtimalı daha yüksəkdir.

Ümumilikdə, Azərbaycan gənclərinin 51%-i şəxsi gəlirə malikdir (maaş və digər gəlir növləri daxil olmaqla). Gənclərin 59%-i həm də valideynlərindən, qohumlarından və ya həyat yoldaşlarından asılıdır.[21] Gənclərin yalnız 7%-i dövlətdən yardım alır. Bakıdakı gənclərin əksəriyyəti (61%) müəyyən formada şəxsi gəlirə malikdir. Bakıdan kənarda yaşayan daha çox gənc isə ailə üzvlərindən asılıdır. Milliyyətcə azərbaycanlı olan gənclərlə müqayisədə, milli azlıqlara mənsub gənclərin digərlərindən asılı olma ehtimalı daha yüksəkdir.

5

# II HİSSƏ: TƏHSİL VƏ MƏŞĞULLUQ

## GİRİŞ

Gənclərlə bağlı dövlət siyasəti üzrə sənədlər gənclərin məşğulluğunun və təhsilinin vacibliyini təsdiq edir və onları əsas prioritet sahələr kimi vurğulayır. "Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı" bacarıqların inkişafını sahibkarlıq və məşğulluq imkanlarının artması ilə əlaqəli şəkildə qeyd edir.[22] İkitərəfli sənədlər, məsələn, Azərbaycanda dayanıqlı inkişaf siyasətlərinin inkişafına dair gözlənilən əsas nəticələri əks etdirən BMT və Azərbaycan arasındakı Əməkdaşlıq Çərçivəsi sənədi gənclərin təhsilini və məşğulluğunu ölkənin inklüziv inkişafı üçün əsas ilkin şərtlər kimi təqdim edir.

Bəyan edilən prioritetlərə baxmayaraq, real siyasət nəticələri kifayət qədər mürəkkəb mənzərəni ortaya qoyur. Hətta dövlət sənədlərində də gənclər və məşğulluq siyasətlərindəki mövcud çatışmazlıqlara, daha dəqiq desək, təhsil müəssisələrində əldə edilmiş biliklərlə əmək bazarında tələb olunan bacarıqlar arasındakı uyğunsuzluğa işarə edilir.[23] Qeyd etmək vacibdir ki, dövlət siyasəti sənədləri Azərbaycan gəncləri üçün imkanların artırılmasına kömək etmək üçün konkret addımlara dair qənaətbəxş plan təqdim etmir.[24] Dövlət siyasətlərindən başqa, beynəlxalq donorlar da məsələn, uzunmüddətli nəticələri düzgün nəzərə almadan müvəqqəti pilot layihələr icra edərkən, yerli kontekstin gənclər siyasətlərində rolunu nəzərə almayıb.[25]

Strukturla bağlı faktorlar, məsələn, ali təhsil sisteminin [26] kifayət qədər maliyyələşdirilməməsi və rüşvət kimi qeyri-rəsmi təcrübələr[27] uzun müddət Azərbaycanın təhsil sisteminə mənfi təsir göstərib. Azərbaycanın ali təhsil müəssisələrindən heç biri dünyanın ən yaxşı 1000 universiteti arasında yer almır.[28] Buna görə də, getdikcə daha çox azərbaycanlı gənc ali təhsil almaq üçün xaricə üz tutur. Bu isə xüsusən sosial-iqtisadi vəziyyəti zəif olanlar üçün əlçatmaz bir addımdır.[29]

Çatışmazlıqlardan başqa, Azərbaycanlı məktəblilər ilkin olaraq PİRLS və TİMSS kimi beynəlxalq standartlaşdırılmış imtahanlarda qarışıq nəticələr göstərsə də, son onillikdə onların balları əhəmiyyətli dərəcədə yaxşılaşıb.[30] Bakıda keçirilmiş standartlaşdırılmış PİSA imtahanı nəticələri göstərdi ki, Azərbaycan paytaxtında yaşayan 15 yaşlılar oxu, riyaziyyat və təbiət elmləri üzrə hələ də zəif nəticə göstərsə də, nəticələri məsələn, qonşu Gürcüstandakı şagirdlərin nəticələrindən yüksəkdir.[31]

Azərbaycanda 15-24 yaşlılar arasında işsizlik səviyyəsi (13,1%) qonşu Ermənistan (36,6%) və Gürcüstanla (30,5%)[32] müqayisədə iki dəfədən çox aşağı olsa da, bir çox işlər natamam iş qrafiki üzrədir, əmək haqları aşağıdır və aşağı məhsuldarlıq tələb edən sektorlardadır.[33] 15-29 yaşlı gənclər Azərbaycanın işsiz əhalisinin yarısını təşkil edir və bacarıq uyğunsuzluğu əhəmiyyətli dərəcədədir.[34] Azərbaycanın üzləşdiyi daha bir çətinlik təhsil, məşğulluq və ya təlimdə iştirak etməyənlərin payının yüksək olmasıdır (2017-ci ildə əhalinin 23%-i[35]). Bu, ölkədə işsizliyin azaldılması qarşısında əsas maneədir.[36]

Azərbaycan gəncləri üçün daha bir çətinlik nəzərəçarpan gender fərqidir. Bu, xüsusilə təhsildən əmək fəaliyyətə keçiddə özünü göstərir. Təhsil sistemini tərk edən 18-35 yaşlı kişilərlə müqayisədə (6,3%) qadınlar arasında qeyri-fəallıq səviyyəsi (40,4%) 7 dəfəyə yaxın yüksəkdir.[37] Ümumilikdə Azərbaycanda qadın və kişilər arasında məşğulluq səviyyələri bir-birinə yaxın olsa da, qadınlar ödənişsiz ev işini kişilərlə müqayisədə nəzərəçarpan dərəcədə daha çox görür.[38]

Aşağıdakı bölmədə bu məsələlər gənclər prizmasından təhlil olunur. Belə ki, burada Azərbaycan gənclərinin təhsil mühitini necə qiymətləndirdiyinə, məşğulluq tendensiyalarına və təhsil, məşğulluq və təhsildə iştirak vəziyyətinə və nəhayət könüllülük imkanlarına nəzər salınır.

## ƏSAS NƏTİCƏLƏR

- Azərbaycanda gənclərin dörddə birə yaxını (26%) orta və ya daha yuxarı təhsil səviyyələrində təhsil almaqdadır. Bakı sakinləri arasında təhsil almaqda olan gənclərin payı (32%) digər şəhər (25%) və kəndlərdə (24%) yaşayan gənclərlə müqayisədə daha yüksəkdir.
- Azərbaycan gənclərinin yarıdan çoxu (56%) almaqda olduğu və ya aldıqları təhsilin keyfiyyətindən narazıdır. Ali təhsil almaqda olan və ya almış respondentlərin müvafiq təhsil müəssisəsinin verdiyi təhsilin keyfiyyətindən narazı qalmaq ehtimalı ən yüksəkdir.

- Gənclərin çoxu təhsil müəssisəsinin onları əmək bazarına hazırlamadığını düşünür. Təhsil almaqda olan gənclərin 72%-ə yaxını təhsil müəssisələrinin onları əmək bazarına hazırlayıb-hazırlamadığına ya qətiyyən inanmır (27%), ya da daha çox inanmır (45%). Cəmi 10%-i buna daha çox və ya tam inanır.
- Fokus qrupu müzakirələrindəki gənclər ölkənin təhsil sisteminə tənqidi yanaşıb. Respondentlər qeyd ediblər ki, məktəblərdə köhnəlmiş kurrikulumlar təqdim olunur, müəllimlər müasir təhsil yanaşmalarından xəbərdar deyillər və təhsilin keyfiyyəti əmək bazarının tələblərinə cavab vermir.
- Azərbaycanda gənclərin yarısı işlədiyini bildirir. Buraya tam iş qrafiki (27%) və natamam iş qrafiki (4%) ilə işləyənlər, müvəqqəti işlərdə işləyənlər (5%) və özünüməşğul gənclər (14%) daxildir.
- Paytaxtdan kənarda yaşayan gənclər, gənc qadınlar (36%), daha gənc yaş qrupları və təhsil səviyyəsi aşağı olanlarla müqayisədə, Bakıda yaşayan gənclər (59%), gənc kişilər (62%), 25-29 yaşlı gənclər (71%) və ali təhsilli gənclər (76%) arasında məşğulluq səviyyəsi daha yüksəkdir.
- Təhsil, məşğulluq və ya təlimdə iştirak etməyən 14-29 yaşlı gənclərin xüsusi çəkisi 25%-ə yaxındır. Gənc kişilərlə (12%) müqayisədə, təhsil, məşğulluq və ya təlimdə iştirak etməyən gənc qadınların payı üç dəfə yüksəkdir (39%). Analoji olaraq, Bakıdan kənarda yaşayan gənclərin təhsil, məşğulluq və ya təlimdə iştirak etməmə ehtimalı daha yüksəkdir.
- Azərbaycanlı gənclər hesab edir ki, istədikləri işi əldə etmək üçün təhsil səviyyəsi (81%), tanışlar və qohumlar (65%), ailə zənginliyi (64%) və keçmiş təcrübə (62%) ən vacib amillərdir. Bu, Azərbaycanda işə düzəlməkdə meritokratik amillərlə yanaşı, qeyri-meritokratik amillərin mühüm rol oynadığını göstərir.
- Hər on gəncdən yalnız biri (9%) son 12 ayda könüllülük fəaliyyəti ilə məşğul olub. Məhdud sayda azərbaycanlı gənc könüllülük fəaliyyəti ilə məşğul olsa da, son bir ildə paytaxtdan kənarda olan gənclər, milli azlıqlara mənsub gənclər, işləyən respondentlər və 24 yaşdan yuxarı gənclər kimi müəyyən qruplar daha çox könüllülük fəaliyyəti ilə məşğul olublar.

## ÜMUMİ TƏHSİL MÜHİTİ

Azərbaycanda gənclərin dörddə birə yaxını orta və ya daha yuxarı təhsil səviyyələrində təhsil almaqdadır (26%, Şəkil 7). Bakıda yaşayan gənclər arasında təhsil almaqda olanların payı (32%) digər şəhər (25%) və kəndlərdə (24%) yaşayan gənclərlə müqayisədə daha yüksəkdir. Azərbaycanda 17 və daha aşağı yaşda olan gənclərin 9%-ə yaxını məktəbə getmir, 91%-i isə təhsil almaqdadır. Yuxarı yaş qrupları arasında təhsil almaqda olanların payı daha azdır: 18-24 yaşlı gənclərin cəmi 15%-i təhsil almaqdadır, 24 və daha yuxarı yaşlı gənclərin isə cəmi 1%-i təhsil almaqdadır.

Məşğulluq vəziyyəti ilə təhsil müəssisələrində daha yüksək iştirak səviyyəsi arasında əlaqə mövcuddur (böyük ehtimalla, respondentlərin yaşının da təsiri ilə). Əmək bazarında iştirak etməyənlərin yarıdan çoxu təhsil müəssisələrində təhsil alır. Digər tərəfdən, işləyənlərin cəmi 1%-i həm də təhsil alır. Subay respondentlərin 39%-i, evli respondentlərin isə demək olar ki 0%-i təhsil almaqdadır.

Şəkil 7: **Hazırda hər hansı təhsil müəssisəsində təhsil alan gənclərin xüsusi çəkisi, əsas əhali qrupları üzrə bölgüdə (%)**



Şəkil 8: **Almaqda olduğunuz / aldığınız təhsilin keyfiyyətindən razısınızmı? (%, əsas əhali qrupları üzrə, tam seçmə)**




Azərbaycan gənclərinin yarıdan çoxu təhsil müəssisələrində almaqda olduğu və ya aldığı təhsilin keyfiyyətindən narazıdır. Bu mövzu ilə bağlı daha çox məlumat əldə etmək üçün hazırda təhsil alan respondentlərə, yəni seçmənin təxminən dörddə birinə onların hazırda təhsil aldıqları müəssisələrdə təhsilin keyfiyyəti ilə bağlı sual verilib. Hazırda təhsil almayan digər respondentlərə isə aldıqları təhsilin keyfiyyəti ilə bağlı sual verilib.

Ümumilikdə, hər iki qrupda daha çox yayılmış münasibət narazılıq idi: təhsil almaqda olan gənclərin böyük əksəriyyəti (81%), təhsil almaqda olmayanların isə demək olar ki yarısı (47%) aldıqları təhsildən narazı olub. Sonuncu qrupda hər dörd nəfərdən birinin (25%) əmin olmaması da qeyd edilməlidir.

Ali təhsil almaqda olan və ya almış respondentlərin müvafiq təhsil müəssisəsinin verdiyi təhsilin keyfiyyətindən narazı qalmaq ehtimalı ən yüksəkdir. Təhsil almaqda olmayan respondentlərin indiyədək aldıqları təhsildən razı olduqlarını bildirmək ehtimalı bir qədər daha yüksək idi (Şəkil 8).

Azərbaycanlı gənclərin əksəriyyəti təhsilin keyfiyyətindən narazıdır və çoxu təhsil müəssisələrinin onları əmək bazarına hazırladığını düşünmür. Təhsil almaqda olan gənclərdən təhsil müəssisələrinin onları əmək bazarına nə dərəcədə yaxşı hazırladığını soruşduqda, onların 72%-i buna qətiyyən inanmır (27%), ya da daha çox inanmır (45%). Cəmi 10%-i buna daha çox və ya tam inanır.

Analoji olaraq, təhsil almaqda olmayan respondentlərin çoxu (42%) bildirir ki, aldıqları təhsil onları əmək bazarına ya çox pis (12%), ya da kifayət qədər pis (31%) hazırlayıb. Qeyd etmək lazımdır ki, respondentlərin bu alt-qrupunun demək olar ki, üçdə biri (32%) əmin deyildi. Daha vacib məqam ondan ibarətdir ki, respondentlərin təhsilin onları əmək bazarına necə hazırlamasına verdiyi qiymət oxşar idi.

Bakı şəhərində keçirilən fokus qrupu müzakirələri zamanı gənclər Azərbaycandakı təhsillə əlaqəli məsələləri müzakirə etdilər. Təhsilin aşağı səviyyədə olması ölkənin üzləşdiyi ən vacib məsələlərdən biri

kimi qeyd olunub. Təhsil həmçinin gənclərin ölkəni tərk etməsinin qarşısını almaq üçün dövlətin təcili tədbirlər görməli olduğu ən vacib sahə kimi qeyd olundu. Təhsil sisteminin onları əmək bazarına yaxşı hazırlayıb-hazırlamaması ilə bağlı suala hər üç fokus qrupundakı gənclər mənfi cavab verib. Iştirakçılara görə, müəllimlər əksər hallarda çox yaşlıdır və tədris metodları düzgün deyil və daha çox köhnəlmişdir. Gənclər, əsasən, nəzəri biliklər qazansa da, işəgötürənlər praktiki təcrübə tələb edir: **“Ümumilikdə, dərslərdə praktika yoxdur. Məsələn, onlar bir şeyi deyir, amma biz o şeyi görmürük. Buna görə də, burada nədən danışdığımızı bilmirik. Amma praktika olsa...“** (Qadın, 21 yaş)

Gənclər hesab edir ki, təhsil zamanı və ya məzun olduqdan sonra gənclər təcrübə qazanmaq üçün işləməyə göndərilməlidir. Bundan əlavə, yeni işə başlayan gənclərdən yüksək təcrübə səviyyəsi tələb olunmamalıdır: **“Yüksək təcrübə səviyyəsi tələb olunmamalıdır. Hara gedirsən 2-3 illik təcrübə istəyirlər”** (Qadın, 21 yaş). Gənclər digər ölkələrdən nümunələr göstərərək, istehsalat təcrübələrinin əhəmiyyətini vurğulayıb: **“Digər ölkələrdə tələbələr ikinci kursdan etibarən təcrübəyə göndərilirlər. Biz yalnız dördüncü kursda zərurətdən təcrübəyə göndəririlik. Amerikada universitetlər magistratura pilləsinə yalnız 2 il iş təcrübəsi olanları qəbul edirlər”** (Kişi, 27 yaş). Ümumilikdə, gənclər hesab edir ki, praktiki təcrübə Azərbaycandakı kimi nəzəri biliklər əldə etməkdən daha vacibdir.

## MƏŞĞULLUQ VƏZİYYƏTİ VƏ KARYERA İNKİŞAFI

Azərbaycanda gənclərin yarısı işlədiyini bildirib. Buraya tam iş qrafiki (27%) və natamam iş qrafiki (4%) ilə işləyən gənclər, müvəqqəti işlərdə işləyənlər (5%) və özünüməşğul gənclər (14%) daxildir. Deməк olar ki eyni miqdarda gənc (49%) işsizdir. Bu göstəriciyə fəal şəkildə iş axtaran (7%), iş axtarmayan (26%) gənclər və ”Digər” cavab variantını seçənlər (15%) daxildir.

Şəkil 9: **Məşğul gənclərin xüsusi çəkisi, əsas demoqrafik qruplar üzrə (%, tam seçmə)**



Azərbaycan gənclərinin hansı qruplarının işləmək ehtimalı daha yüksək və ya aşağıdır? Paytaxtdan kənarda yaşayan gənclər, gənc qadınlar (36%) və daha gənc yaş qrupları ilə müqayisədə Bakıda yaşayan gənclər (59%), gənc kişilər (62%) və 25-29 yaşlı gənclər (71%) arasında məşğulluq səviyyəsi (Şəkil 9) daha yüksəkdir. Tam orta təhsilli (61%), ibtidai və ya natamam orta təhsilli (4%) gənclərlə müqayisədə ali təhsilli gənclər (76%) arasında məşğulluq səviyyəsi daha yüksəkdir. Subay respondentlərin (44%) işləmək ehtimalı evli respondentlərlə (60%) müqayisədə daha aşağıdır.

Məşğul respondentlərin əksəriyyəti (71%) hesab edir ki, onların hazırkı işinin tələbləri əldə etdikləri formal təhsil səviyyəsi ilə uzlaşır. Respondentlərin daha az qismi (10%) hesab edir ki, hazırkı işləri onların əldə etdikləri formal təhsil səviyyəsi ilə müqayisədə daha aşağı təhsil və ya bacarıqlar tələb edir. Respondentlərin 13%-i düşünür ki, onların işləri əldə etdikləri formal təhsillə müqayisədə daha yüksək səviyyəli bacarıqlar tələb edir.

Təhsil, məşğulluq və ya təlimdə iştirak etməyən gənclər Azərbaycan gənclərinin dörddə bir hissəsini təşkil edir (Şəkil 10). Təəssüf ki, təhsil, məşğulluq və ya təlimdə iştirak baxımından gənc qadın və kişilər arasında nəzərəçarpan gender fərqi mövcuddur. Gənc kişilərlə (12%) müqayisədə, təhsil, məşğulluq və ya təlimdə iştirak etməyən gənc qadınların payı üç dəfə yüksəkdir (39%).

Bakıdan kənarda yaşayan gənclərin təhsil, məşğulluq və ya təlimdə iştirak etməmə ehtimalı daha yüksəkdir. 17 və daha aşağı yaşda olan gənclərlə müqayisədə, təhsil, məşğulluq və ya təlimdə iştirak etməyən 17 yaşdan yuxarı gənclərin sayı daha çoxdur. Bu, böyük ehtimalla, əvvəlki qrupun orta təhsil almaqda olması ilə bağlıdır. Bundan əlavə, evli respondentlərin təhsil, məşğulluq və ya təlimdə iştirak etməmə ehtimalı subay respondentlərlə müqayisədə daha yüksəkdir. Bu iki qrup arasındakı fərqin də ən ağlabatan səbəbi yaşdır.

Şəkil 10: **Təhsil, məşğulluq və ya təlimdə iştirak etməyən gənclərin xüsusi çəkisi, əsas əhali qrupları üzrə bölgüdə (%)**



Şəkil 11: **Həqiqətən işləmək istədiyiniz işə düzəlmək üçün aşağıdakılar nə qədər vacibdir? (%, tam seçmə)**




Daha sonra biz Azərbaycan gənclərinin insanın həqiqətən istədiyi işi əldə etməsinin hansı amillərdən asılı olduğu ilə bağlı düşüncələrini araşdırdıq. Respondentlərə həm meritokratik dəyərləri (məsələn, təhsil, keçmiş iş təcrübəsi və ya xaricdə təhsil və ya təcrübə), həm də qeyri-meritokratik dəyərləri (məsələn, ailə sərvəti, əlaqələr, siyasi partiyaya üzvlük və şəxsi əlaqələr) təsvir edən mülahizələr təqdim edildi.

Ümumilikdə, Azərbaycanlı gənclər istədikləri işi əldə etmək üçün təhsil səviyyəsi (81%), dost və qohumlar (65%), ailə sərvəti (64%) və keçmiş təcrübənin (62%) ən vacib amillər olduğunu düşünürlər. Qeyri-meritokratik dəyərlərə gəldikdə, respondentlərin 31%-i hesab edir ki, vəzifəli şəxslərlə əlaqələr vacibdir, 42%-i isə bununla razılaşmır. Bundan əlavə, 13%-i hesab edir ki, siyasi partiyaya üzvlük çox vacib və ya kifayət qədər vacibdir. 57%-i isə bu amilin mühüm olmadığını hesab edir. Qeyd edilməlidir ki, təqribən 30%-i qərarsızdır.

## KÖNÜLLÜLÜK TƏCRÜBƏSİ

Azərbaycanda hər on gəncdən yalnız biri (9%) son 12 ayda könüllülük fəaliyyəti ilə məşğul olub, yəni haqqı ödənilməyən əməklə könüllü şəkildə məşğul olub. Könüllüklə məşğul olmuş gənclərin yarısı bunu vətəndaş təşəbbüsləri (50%), qalanları isə gənclər təşkilatları (26%), məktəb və ya universitetlər (21%) və s. çərçivəsində edib.

Məhdud sayda azərbaycanlı gənc könüllülük fəaliyyəti ilə məşğul olsa da, son bir ildə paytaxtdan kənarda yaşayan gənclər, milli azlıqlara mənsub gənclər, işləyən respondentlər və 24 yaşdan yuxarı gənclər kimi müəyyən qruplar daha çox könüllülük fəaliyyəti ilə məşğul olublar (Şəkil 12).

Şəkil 12: **Siz son 12 ay ərzində könüllü olaraq hər hansı bir işi ödənişsiz yerinə yetirmisiniz? (%, əsas demoqrafik qruplar üzrə)**



# MÜZAKİRƏ

Son illərdə tələbələrin sayı artsa da, ali təhsildə iştirak səviyyəsi aşağı qalır.[39] Azərbaycanda gənclərin dörddə birə yaxını (26%) orta və ya daha yuxarı təhsil səviyyələrində təhsil almaqdadır. Bakı sakinləri arasında təhsil almaqda olan gənclərin payı (32%) digər şəhər (25%) və kəndlərdə (24%) yaşayan gənclərlə müqayisədə daha yüksəkdir.

Azərbaycanın təhsil sistemi son otuz il ərzində çoxsaylı maneələrlə üzləşib. Onun çatışmazlıqları, xüsusilə təhsil müəssisələrinin verdiyi biliklərlə əmək bazarının tələbləri arasında uzlaşmanın olmaması həm hökumət,[40] həm də beynəlxalq inkişaf təşkilatları tərəfindən[41] etiraf edilib. Bu tədqiqatın həm keyfiyyət, həm də kəmiyyət yönümlü komponentləri təhsil sistemindən narazılığın geniş yayıldığını göstərir.

Azərbaycan gənclərinin yarıdan çoxu təhsil müəssisələrində almaqda olduğu və ya aldığı təhsilin keyfiyyətindən narazıdır. Ali təhsil almaqda olan və ya almış respondentlərin müvafiq təhsil müəssisəsinin verdiyi təhsilin keyfiyyətindən narazı qalmaq ehtimalı ən yüksəkdir.

Azərbaycanlı gənclərin əksəriyyəti təhsilin keyfiyyətindən narazıdır və çoxu təhsil müəssisələrinin onları əmək bazarına hazırladığını düşünmür. Təhsil almaqda olan gənclərdən təhsil müəssisələrinin onları əmək bazarına nə dərəcədə yaxşı hazırladığını soruşduqda, onların 72%-i buna qətiyyən inanmır (27%), ya da daha çox inanmır (45%). Cəmi 10%-i buna daha çox və ya tam inanır. Bu nəticələr həmçinin təhsilalanların təhsil müəssisələrində əldə etdiyi bacarıqlarla əmək bazarının tələb etdiyi bacarıqlar arasında mövcud olan uyğunsuzluğa dəlalət edir.[42]

Analoji olaraq, fokus qrupu müzakirələrindəki gənclər ölkənin təhsil sisteminə tənqidi yanaşıb. Respondentlər qeyd ediblər ki, məktəblərdə köhnəlmiş kurrikulumlar təqdim olunur, müəllimlər müasir təhsil yanaşmalarından xəbərdar deyillər və təhsilin keyfiyyəti əmək bazarının tələblərinə cavab vermir. Respondentlər qeyd edib ki, ali təhsil praktiki təcrübə ilə müşayiət olunmalıdır. Bu, bakalavr təhsilindən sonra istehsalat təcrübəsinin vacibliyini göstərir.

Qonşu ölkələrdən fərqli olaraq, Azərbaycanda rəsmi məşğulluq səviyyəsi nisbətən aşağıdır.[43] Diqqətəlayiqdir ki, sorğu nəticələri də bu müşahidəni təsdiqləyir. Azərbaycanda gənclərin yarısı işlədiyini bildirir. Buraya tam iş qrafiki (27%) və natamam iş qrafiki (4%) ilə muzdlu şəkildə işləyənlər, müvəqqəti işlərdə işləyənlər (5%) və özünüməşğul gənclər (14%) daxildir. Qeyd etmək lazımdır ki, bu kontekstdə işsizlik səviyyələrindən daha çox iqtisadi fəallığın olmaması daha dəqiq ölçü kimi çıxış edir.[44]

Bununla belə, gender, coğrafi yerləşmə və təhsil faktorları baxımından nəzərəçarpan bərabərsizlik mövcuddur. Paytaxtdan kənarda yaşayan gənclər, gənc qadınlar (36%) və daha gənc yaş qrupları ilə müqayisədə Bakıda yaşayan gənclər (59%), gənc kişilər (62%), 25-29 yaşlı gənclər (71%) və ali təhsilli gənclər (76%) arasında məşğulluq səviyyəsi daha yüksəkdir.

Təhsil, məşğulluq və ya təlimdə iştirak etməyənlərin payının yüksək olması Azərbaycanın üzləşdiyi problem kimi qeyd edilib[45] və hökumət onların payını 2017-ci ildəki 23%-dən 2030-cu ilədək 15%-ə endirməyi hədəfləyir.[46] Təəssüf ki, hazırkı tədqiqat Azərbaycanın 14-29 yaşlı gəncləri arasında təhsil, məşğulluq və ya təlimdə iştirak etməyənlərin xüsusi çəkisinin dəyişmədiyini, təqribən 25% olduğunu göstərir. Qeyd etmək vacibdir ki, təhsil, məşğulluq və ya təlimdə iştirak etməmə baxımından gənc qadın və kişilər arasında nəzərəçarpan gender fərqi mövcuddur. Belə ki, təhsil, məşğulluq və ya təlimdə iştirak etməyən gənc qadınların xüsusi çəkisi (39%) gənc kişilərlə (12%) müqayisədə, üç dəfə yüksəkdir. Analoji olaraq, Bakıdan kənarda yaşayan gənclərin təhsil, məşğulluq və ya təlimdə iştirak etməmə ehtimalı daha yüksəkdir.

Təhsil və məşğulluq sektoru da daxil olmaqla Azərbaycanda qeyri-rəsmilik mühüm rol oynadığından,[47] Azərbaycan gənclərinin nəzərəçarpan bir hissəsi hesab edir ki, dost və qohumlar, ailə sərvəti kimi qeyri-meritokratik amillər işə düzəlməkdə vacib rol oynayır.

Azərbaycanda hər on gəncdən yalnız biri (9%) son 12 ayda könüllülük fəaliyyəti ilə məşğul olub, yəni haqqı ödənilməyən əməklə könüllü şəkildə məşğul olub. Məhdud sayda azərbaycanlı gənc könüllülük fəaliyyəti ilə məşğul olsa da, son bir ildə paytaxtdan kənarda olan gənclər, milli azlıqlara mənsub gənclər, işləyən respondentlər və 24 yaşdan yuxarı gənclər kimi müəyyən qruplar daha çox könüllülük fəaliyyəti ilə məşğul olublar.

# III HİSSƏ: DEMOKRATİYA VƏ İDARƏÇİLİK

# GİRİŞ

Aşağıdakı bölmədə Azərbaycan gənclərinin siyasət, demokratiya və iştirakçılığa münasibətlərinin səciyyələndirilməsi kimi çətin vəzifə yerinə yetirilir. Ölkənin mürəkkəb kontekstinə baxmayaraq, sorğu Azərbaycan gənclərinin siyasətlə bağlı düşüncələrinin kifayət qədər mürəkkəb mənzərəsini ortaya qoyur. Bununla belə, ölkədə ictimai rəyin xarakteri lazımi ehtiyatlılıq səviyyəsi ilə səciyyələndirilməlidir.

# GƏLİNƏN NƏTİCƏLƏR

- Azərbaycan gənclərinin yarıdan çoxu (54%) demokratiyanın Azərbaycanı idarə etmək üçün ən yaxşı üsul olduğunu hesab edir. 28%-i isə bu ideyaya qarşıdır. Demokratiyaya ən az meylli olan qrup Bakıdakı gənclərdir. Onların əsas qismi ya tamamilə, ya da müəyyən dərəcədə bu ideyaya qarşıdır (42%).
- Milli azlıqların böyük əksəriyyəti (77%) demokratiyanı ya tam (20%), ya da qismən (58%) dəstəkləyir.
- Azərbaycandakı demokratiya təcrübəsinə ya müsbət, ya da tam müsbət yanaşılır (53%). Azərbaycandakı demokratiya təcrübəsinə mənfi münasibətlər paytaxtdakı gənclər arasında daha geniş yayılıb (42%). Bundan əlavə, hər beş respondentdən biri qərarsızdır.
- Siyasətlə maraqlandığını deyən gənclərin sayı azdır. Respondentlərin böyük qismi (43%) siyasətlə qətiyyən maraqlanmır, təqribən dörddə biri (26%) siyasətlə çox maraqlanmadığını deyir, beşdə biri (20%) isə siyasətlə müəyyən qədər və ya çox maraqlandığını deyir.
- Gənc kişilərin və 25-29 yaşlı gənclərin siyasətə ən azı müəyyən dərəcədə marağının olması ehtimalı daha yüksəkdir. Bundan əlavə, paytaxtda hər beş respondentdən biri bu suala cavab verməkdə çətinlik çəkir.
- Siyasətə ən azı müəyyən dərəcədə marağı olanların cəmi 23%-i tez-tez tanışları ilə müvafiq müzakirələr aparır, 64%-i bunu nadir hallarda edir, 6%-i isə heç vaxt dostları ilə siyasətdən danışmır. Valideynləri ilə siyasətdən danışanların sayı isə daha azdır: cəmi 18%-i bunu tez-tez edir, 59%-i nadir hallarda edir, 11%-i isə heç vaxt valideynləri ilə siyasətdən danışmır.
- Siyasi xəbərlərlə maraqlanan Azərbaycan gənclərinin sayı azdır. Gənclərin yalnız dörddə biri həftədə ən azı 1 dəfə siyasi xəbərlərlə tanış olur. Gənclərin üçdə birə yaxını qərarsızdır: onlar ya bilmədiklərini iddia edir, ya da cavab verməkdən imtina edirlər. Respondentlərin üçdə birdən çoxu (35%) demək olar ki heç vaxt siyasi xəbər oxumadığını deyir, 7%-i isə bunu nadir hallarda, ayda cəmi bir dəfə etdiyini deyir.
- Gənclərin çoxu (40%) mənafelərinin milli siyasətdə yaxşı təmsil olunduğunu hesab edir. Bir çoxu isə əmin deyil və ya öz mənafelərinin zəif təmsil olunduğunu və ya ümumiyyətlə təmsil olunmadığını (hər biri 30%) hesab edir.
- Siyasi funksiyaları üzərinə götürməyə hazır olan gənclərin sayı azdır. Respondentlərin cəmi 18%-i ya məmnuniyyətlə, ya da bəlkə siyasi funksiyaları üzərinə götürməyə hazır olduğunu bildirib. Gənc kişilərin və ali təhsilli respondentlərin siyasi funksiyalar yerinə yetirməyə istəkli olması ehtimalı bir qədər daha yüksəkdir.
- Ümumilikdə Azərbaycan gənclərinin dörddə üçə yaxını (74%) hər hansı sosial və ya siyasi fəaliyyətlərdə iştirak etməyib. Bakıdan kənarda yaşayanlar, daha gənc respondentlər və təhsil səviyyəsi daha aşağı olanların siyasi baxımdan fəal olması ehtimalı daha aşağıdır.
- Azərbaycan gəncləri üçün ən önəmli problem qiymətlərin qalxmasıdır (58%). Qeyd etmək vacibdir ki, Azərbaycan gənclərinin 11%-i ərazi bütövlüyü məsələsini ən vacib problem hesab edir və bu, daha çox ikinci ən vacib problem kimi (45%) qeyd olunub.
- Sol və ya sağ təmayüllü siyasi ideologiyalara bağlı olduğunu iddia edən gənclərin sayı azdır. Respondentlərin çoxu (36%) özlərini mərkəzi mövqedə yerləşdirir, 32%-i isə ideoloji özünüqiymətləndirmə barədə əmin deyil. Əksər respondentlər sol və ya sağ təmayüllü siyasətlər arasında aydın fərqləndirmə apara bilmədiyindən, yuxarıdakı ideoloji özünüqiymətləndirmə ilə bağlı nəticələrə ehtiyatla yanaşılmalıdır.

# DEMOKRATİYA İLƏ BAĞLI DÜŞÜNCƏLƏR

Azərbaycanlı gənclər demokratiyanın Azərbaycanı idarə etmək üçün ən yaxşı sistem olması barədə nə düşünür? Ümumilikdə, respondentlərin əksəriyyəti (54%) bu ideyanı dəstəkləyir, 28%-i isə qarşı çıxır (Şəkil 13). Qeyd etmək vacibdir ki, hər beş nəfərdən biri qərarsızdır, yəni demokratiyanı nə dəstəkləyir, nə də ona qarşıdır (5%), "Bilmirəm" deyən və ya cavab verməkdən imtina edənlərin xüsusi çəkisi isə 13% təşkil edir.

Demokratiyaya ən az meylli olan qrup Bakıdakı gənclərdir. Onların çoxu ya tamamilə, ya da müəyyən dərəcədə bu ideyaya qarşıdır (42%), cəmi 29%-i demokratiyanın Azərbaycanın idarə edilməsi üçün ən yaxşı sistem olması fikrini dəstəkləyir. Eyni sayda gənc qərarsızdır (nə dəstəkləyir, nə qarşıdır - "bilmirəm" deyir və ya cavab verməkdən imtina edir). Əksinə, paytaxtdan kənardakı gənclərin əksəriyyəti Azərbaycanı idarə etmək üçün ən yaxşı sistem kimi demokratiya tərəfdarıdır. Şəhərlərdə bu göstərici 62%, kəndlərdə isə 61%-dir.

Milli azlıqların böyük əksəriyyəti (77%) demokratiyanı ya tam (20%), ya da qismən (58%) dəstəkləyir. Qeyd etmək lazımdır ki, işsiz respondentlərin demokratiyanı dəstəkləmək ehtimalı məşğul respondentlərlə müqayisədə daha yüksəkdir.

Ölkədəki real demokratiya təcrübəsinin qiymətləndirilməsinə gəldikdə, əksər Azərbaycan gəncləri bunu ya müsbət, ya da tam müsbət qiymətləndirir (53%, Şəkil 14). Qeyd etmək vacibdir ki, Bakı sakinlərinin çoxu Azərbaycanın demokratiya təcrübəsinə mənfi yanaşır (42% xalis mənfi qiymətləndirmə), 29%-i bu barədə müsbət düşünür, hər beş nəfərdən biri isə qərarsızdır.

Etnik azlıqlar Azərbaycanda demokratiya təcrübəsini əksərən müsbət qiymətləndirir. Onların təxminən dörddə üçü (73%) buna müsbət, yaxud tam müsbət yanaşır. Eynilə, işsiz respondentlər Azərbaycanda demokratiya təcrübəsinə müsbət yanaşsa da (59%), eynisini düşünən işləyən daha gənc azərbaycanlıların sayı daha azdır (48%).

Milli azlıqların Azərbaycandakı demokratiya təcrübəsini müsbət qiymətləndirmək ehtimalı ən yüksəkdir: onların dörddə üçə yaxını (73%) buna ya müsbət, ya da çox müsbət yanaşır. Analoji olaraq, işsiz respondentlər Azərbaycanın demokratiya təcrübəsinə müsbət yanaşır (59%), eyni cür düşünən işləyən Azərbaycanlı gənclərin payı bundan azdır (48%).

Gənclərin demokratiyanın mahiyyətini necə başa düşdüyünə dair keyfiyyət əsaslı dəlillərə gəldikdə, bu anlayış əsasən söz azadlığı, insan hüquqlarının müdafiəsi, insan azadlıqlarının təmin edilməsi və insanlar arasında (sosial) bərabərliklə əlaqələndirilir. Bundan əlavə, gənclər üçün demokratiya kişi və qadınlar arasında hüquq bərabərliyi, müstəqil həyat tərzi və dini etiqad azadlığı deməkdir. Fokus qrupu iştirakçılarının bir hissəsi hesab edir ki, Azərbaycanda bu ideyalar yoxdur, çünki burada söz azadlığı, sosial bərabərlik, insan hüquqlarının müdafiəsi və fərdi azadlıqlar yoxdur. Bundan əlavə, iştirakçılar Azərbaycanda seçkilərin şəffaf keçirilmədiyini və burada korrupsiya və bərabərsizliyin olduğunu qeyd edib.

Gənclər demokratik ölkələr arasında Almaniya, Norveç, İsveçrə, Fransa və digər Avropa ölkələrini qeyd edib. Bir neçəsi ABŞ, Kanada və Rusiyanı da qeyd edib. Lakin ən çox qeyd olunan Almaniya olub: **"...Almaniyada insan hüquqları lazımi səviyyədə qorunur. Bu o deməkdir ki, məhkəmə proseslərində bu cür şəffaflıq müşahidə olunur. Eyni zamanda dediyimiz kimi, tibb inkişaf edir, yəni insanların və vətəndaşların sağlamlığı önəmlidir"** (Qadın, 17 yaş). Digər respondentlərin fikrincə, Almaniyada Azərbaycandan fərqli olaraq bərabərlik və azadlıq var: **"Çölə çıxanda deyə bilmərik ki, bəli, mən azadam, çünki insanların gözlərinə baxırıq, amma Almaniyada belə bir vəziyyət yoxdur. Orada qoyulan qanunlara əməl edirsənsə, artıq azadsan, onların azadlığını əlindən almırlar, oğurlamırlar"** (Kişi, 16 yaş). Bundan əlavə, fokus qrupu iştirakçıları Almaniya ilə Azərbaycanı müqayisə edərkən Almaniyada məhkəmə proseslərində şəffaflığın müşahidə olunduğunu, medianın da azad olduğunu qeyd ediblər. İnsanların həyat tərzi fərqlidir və Azərbaycanda insanların mentaliteti kişilərin qadınlardan üstün olduğunu desə də, Almaniyada hamı bərabərdir. Üstəlik, **"[Almaniyada] başqa cürdür, rahatdır, heç bir çətinlik yoxdur. İşsizlik aşağı səviyyədədir. Mədəni, gözəl, sadə... Ölkə belə olandan sonra insanlar da belə olacaq"** (Kişi, 24 yaş).

Şəkil 13: **Demokratiyanın Azərbaycan üçün ən yaxşı idarəetmə sistemi olduğu haqda nə düşünürsünüz? (%, tam seçmə)**




Şəkil 14: **Hazırda Azərbaycandakı real demokratiya təcrübəsini necə qiymətləndirirsiz? (%, tam seçmə)**



# SİYASƏTƏ MARAQ VƏ SİYASƏTDƏ İŞTİRAK

Siyasətlə heç maraqlanmayan və siyasətə az da olsa maraq göstərdiklərini bildirən Azərbaycan gənclərinin payı bərabərdir. Ümumilikdə Azərbaycan gənclərinin 43%-i siyasətlə heç maraqlanmadığını bildirib. 46%-i siyasətə bir qədər çox maraq göstərdiyini deyib, o cümlədən 26%-i siyasətlə çox maraqlanmadığını, 16%-i bir qədər maraqlandığını və 5%-i siyasətlə çox maraqlandığını bildirib. Təxminən 11%-i əmin deyil və ya bu suala cavab verməkdən imtina edib.

Əsas demoqrafik qruplar üzrə kəskin fərqlər olmasa da, yenə də Bakı sakinləri, gənc kişilər və 25-29 yaşlı gənclərin siyasətlə ən azı müəyyən dərəcədə maraqlandığını bildirmə ehtimalı daha yüksəkdir (Şəkil 15). Gənc qadınlar, 14-17 yaşlı gənclər və Bakıdan kənarda yaşayanların siyasətlə maraqlandığını bildirmə ehtimalı daha aşağıdır.

Siyasətlə ən azı müəyyən qədər maraqlandığını bildirənlərə (46%) dostları və valideynləri ilə siyasəti nə dərəcədə tez-tez müzakirə etməsinə dair növbəti suallar verildi. Ümumilikdə, bu respondentlərin cəmi dörddə birə yaxını (siyasətlə maraqlananların 23%-i) siyasəti dostları ilə müzakirə edir, 64%-i siyasəti dostları ilə nadir hallarda müzakirə edir, 6%-i isə heç vaxt dostları ilə siyasətdən danışmır. Siyasətlə ən azı müəyyən dərəcədə maraqlandığını bildirən gənclərin beşdə birdən azı (18%) bu mövzunu valideynləri ilə müzakirə edir. Respondentlərin 59%-i valideynləri ilə nadir hallarda siyasətdən danışır, 11%-i isə heç vaxt danışmır.

Siyasi məlumatlara çıxış imkanına gəldikdə, gənclərin üçdə birdən çoxu (35%) demək olar ki siyasi xəbərlərlə tanış olmadığını bildirib. 7%-i bunu ən azı ayda bir dəfə edir, beşdə biri siyasi məlumatlarla ən azı həftədə bir dəfə tanış olur, yalnız 5%-i tez-tez siyasi xəbərlərlə tanış olduğunu və bu cür məlumatlara gündəlik müraciət etdiyini deyir. Qeyd etmək vacibdir ki, respondentlərin üçdə biri (32%) qərarsız idi, yəni ya qəti cavab verə bilmədilər, ya da verməkdən çəkindilər.

Şəkil 15: **Siyasətə ən azı müəyyən dərəcədə marağı olduğunu bildirən respondentlərin payı (siyasətlə "çox maraqlanmır" , "bir az maraqlanır" və ya "çox maraqlanır", %, əsas əhali qrupları üzrə)**



Hansı qrupların siyasi hadisələr barədə məlumatlarla tanış olma ehtimalı daha yüksək və ya aşağıdır (Şəkil 16)? Paytaxtın gənc sakinlərinin siyasi xəbərləri əldə etməyə meylliliyi (cəmi 22%-i siyasi xəbərləri ən azı həftədə bir dəfə əldə edir) digər şəhərlərdəki gənclər (25%) və ya kənd ərazilərindəki gənclərlə (28%) müqayisədə daha azdır. Paytaxtdakı respondentlərin yarısı sualın cavabını bilmir və ya cavab verməkdən imtina edir. Gənc qadınlarla müqayisədə gənc kişilərin, eləcə də ən yuxarı yaş qrupunun nümayəndələrinin siyasi xəbərlərlə tanış olmaq ehtimalı daha yüksəkdir. Ali təhsilli gənclərin demək olar ki yarısı (45%) ən azı həftədə bir dəfə siyasi xəbərlər oxuyur. Məşğul gənclərin üçdə biri, işsiz gənclərin isə 18%-i siyasi xəbərlərlə tanış olur.

Gənclərin çoxu (40%) öz mənafelərinin milli siyasətdə yaxşı təmsil olunduğunu hesab edir. Bir çoxu isə əmin deyil və ya öz mənafelərinin zəif təmsil olunduğunu (hər biri 30%) hesab edir. Sosial-demoqrafik qruplar arasında Bakıdan başqa şəhərlərdə yaşayan gənclər, 18-24 yaşlı gənclər və tam orta təhsilli gənclərin öz maraqlarının milli hökumət tərəfindən zəif təmsil olunduğunu və ya heç təmsil olunmadığını bildirmə ehtimalı daha yuxarıdır. Digər tərəfdən, ali təhsilli gənclərin öz maraqlarının kifayət qədər yaxşı və ya çox yaxşı təmsil olunduğunu bildirmə ehtimalı daha yüksəkdir (65%).

Azərbaycanda çoxsaylı gənclərin siyasətlə müəyyən dərəcədə maraqlandığı görünsə də, üzərinə siyasi funksiya götürmək istəyənlərin sayı azdır. Respondentlərin cəmi 18%-i ya məmnuniyyətlə, ya da bəlkə siyasi funksiyaları üzərinə götürməyə hazır olduğunu bildirib. Azərbaycan gənclərinin üçdə ikisi ümumiyyətlə (42%) və ya bəlkə (26%) siyasi vəzifə qəbul etməzdi (Şəkil 17). Gənc kişilərin və ali təhsilli respondentlərin siyasi funksiyalar yerinə yetirməyə istəkli olması ehtimalı bir qədər daha yüksəkdir.

Şəkil 16: **Siyasi hadisələr haqqında məlumatlarla nə qədər tez-tez tanış olursunuz? (%, tam seçmə)**



Şəkil 17: **Siz siyasi funksiyaları öz üzərinizə götürməyə hazırsınız? (%, əsas əhali qrupları üzrə, tam seçmə)**




Gənclərin siyasətdə iştirakına gəldikdə, bu cür fəaliyyətlərdə iştirak edən gənclərin sayı azdır. Ümumilikdə, öz yaşadıqları icmalarda problemlərin həllində iştirak edən respondentlərin payı 14%-dir (Şəkil 18). Respondentlərin təqribən 9%-i vətəndaş cəmiyyəti fəaliyyətlərində iştirak edib və ya könüllülük fəaliyyəti ilə məşğul olub, yaxud sosial və ya siyasi təşkilata ianə edib. 7%-i petisiya və ya siyasi müraciət imzalayıb, 6% və ya daha azı digər fəaliyyətlərlə məşğul olub. Bura məsələn, siyasi və ekoloji səbəblərə görə məhsulları almağı dayandırmaq, fikirləri onlayn mühitdə ifadə etmək, siyasi partiya və ya qrup üçün işləmək, yaxud aksiyada iştirak etmək daxildir.

Hansı qrupların siyasi fəaliyyətlərdə iştirak etmək ehtimalı daha yüksək və ya aşağıdır? Bunun üçün respondentin iştirak etdiyi siyasi fəaliyyətləri sayan icmal indeksi yaradıldı. Respondent Şəkil 18-də sadalanan bütün suallara "Xeyr," "Etməmişəm, nəzərdən keçirərəm," "bilmirəm" və ya "cavab verməkdən imtina edirəm" cavabını veribsə, bu cür hallara siyasi fəaliyyətdə heç bir iştirak olmadığını ehtiva edən "0" dəyəri təyin olunub. Analoji olaraq, kimsə yalnız bir bəndə "Bəli" cavabını veribsə, o, 1 bal alır və bu qayda ilə davam edir.

Ümumilikdə, Azərbaycan gənclərinin dörddə birə yaxını (74%) hər hansı siyasi fəaliyyətlərdə iştirak etməyib, 9%-i indeksdə bir bal toplayıb, 7%-i isə iki bal toplayıb. Azərbaycan gəncləri orta hesabla 0,59 fəaliyyətdə iştirak edib, median bal isə 0-dır.

Konkret qruplara gəldikdə, paytaxtdakı gənclər, 25-29 yaşlı gənclər, eləcə də ali təhsilli gənclər siyasi iştirak indeksində nisbətən yüksək bal toplayıb. Bu, məşğul və evli gənclərə də aiddir. Bakıdan kənarda yaşayanlar, daha gənc respondentlər və təhsil səviyyəsi daha aşağı olanlara gəldikdə, onların siyasi baxımdan fəal olması ehtimalı daha aşağıdır.

Şəkil 18: **Siyasi fəallığı nümayiş etdirməyin müxtəlif yolları var. Son altı ay ərzində aşağıda göstərilənlərdən hər hansı birini etmisinizmi və ya etməyi ciddi şəkildə nəzərdən keçirərsinizmi? (%)**




Qeyd: ulduzla işarələnmiş bəndlər 16 yaşdan yuxarı respondentlərdən soruşulub.

Şəkil 19: **İştirak indeksinin orta qiymətləri, əsas demoqrafik qruplar üzrə**



# AZƏRBAYCANIN ƏN BÖYÜK PROBLEMLƏRİ

Azərbaycan gəncləri üçün ən önəmli şikayət nöqtəsi iqtisadiyyatdır. Onların əksəriyyəti (58%) ən vacib problem kimi qiymətlərin qalxmasını, 11%- isə işsizliyi qeyd edib. Azərbaycan gənclərinin 11%-i ərazi bütövlüyü məsələsini ən vacib problem hesab edir. Qeyd etmək vacibdir ki, ərazi bütövlüyü məsələsi ikinci ən vacib problem kimi seçilib. Az sayda respondent təhsil, qonşu ölkələrlə münaqişələr, ətraf mühit, daxili siyasi gərginlik kimi məsələləri Azərbaycanın üzləşdiyi əsas problemlər kimi qeyd edib. Hər 10 Azərbaycan gəncindən biri ölkənin heç bir problemi olmadığını hesab edir.

Əsas əhali qrupları arasında, Azərbaycan gənclərinin ölkə üçün ən qabarıq problemlərlə bağlı mövqeləri uzlaşsa da, milli azlıqlar Azərbaycanın üzləşdiyi ən vacib məsələ kimi qiymətlərin qalxmasını qeyd edib (Şəkil 21). Qeyd etmək lazımdır ki, ibtidai təhsildən yuxarı səviyyəli təhsilə malik gənclər arasında qiymətlərin qalxması problem olaraq daha az qeyd olunur.

Fokus qrupu müzakirəsi iştirakçılarından Azərbaycanın üzləşdiyi ən böyük problemləri soruşduqda, Bakıdakı iştirakçılar əsasən koronavirusu və Qarabağ müharibəsini qeyd edib. Koronavirus daha çox qlobal problem kimi başa düşülsə də, Qarabağ müharibəsi və onun nəticələri ölkənin üzləşdiyi ən vacib problemlərdən biridir. Bundan əlavə, gənclər sosial bərabərsizlik və təbəqələşməni, habelə nepotizmi (qohumbazlıq) də Azərbaycanın üzləşdiyi ümumi problemlər kimi qeyd ediblər. Bu bərabərsizlik kontekstində, iştirakçılar qeyd etdilər ki, varlı insanlar imtiyazlara malikdir, kasıblar isə sıxışdırılır. Respondentlərdən biri ölkənin üzləşdiyi problemlər sırasında hakimiyyətin irsən ötürülməsini də qeyd etdi. Eyni zamanda, fokus qrupu iştirakçıları ölkənin idarə olunması qaydasını da problem kimi qeyd edib.

Ölkənin üzləşdiyi əlavə problemlər iqtisadiyyat və işsizliklə bağlıdır: **"Mən yaşlıların çox aşağı pensiya almasını və buna görə də işləməyə məcbur olmasını iqtisadi problem hesab edirəm"** (Kişi, 26 yaş). Respondentlər təhsil, səhiyyə, ətraf mühitin çirklənməsi, infrastruktur kimi məsələləri də qeyd ediblər.

Şəkil 20: **İndi ölkəmiz üçün ən vacib problem nədir? Hazırda ölkəmiz üçün ikinci ən vacib problem nədir? (%, tam seçmə)**



Şəkil 21: **İndi ölkəmiz üçün ən vacib problem nədir? (%, tam seçmə, əsas əhali qrupları üzrə)**




# GƏNCLƏR VƏ SİYASİ İDEOLOGİYALAR

Azərbaycanlı gənclər siyasi ideologiya baxımından özlərini necə qiymətləndirirlər? Qeyd etmək lazımdır ki, regiondakı və ümumən postsovet məkanındakı digər ölkələrdə olduğu kimi, sağ-sol ideoloji bölgüsü əhalinin siyasi meyllərini aydın şəkildə əks etdirmir. Bu, Azərbaycana da şamil olunur, lakin aşağıda göstərildiyi kimi, bir çox gənclər sol təmayüllü və sağ təmayüllü siyasətləri fərqləndirmirlər.

Ümumilikdə, az sayda respondent özlərini sol təmayüllü və ya sağ təmayüllü siyasi ideologiya ilə əlaqələndirir. Gənclərin çoxu (36%) özlərini 10 ballıq şkalanın ortasında görür. 32%-i ideoloji özünüqiymətləndirmə barədə əmin deyildi. Hər beş nəfərdən biri sağa, 12% isə sola meyllidir. [48]

Əhali qrupları arasında önəmli fərqlər cüzi olsa da, ümumən Bakıda yaşayan gənclər (46%), ən gənc respondentlər (47%) və ibtidai və daha aşağı səviyyəli təhsili olanların (45%) özlərini sol-sağ ideoloji şkalasında yerləşdirə bilmədiyini demək ehtimalı daha yüksəkdir. Ali təhsilli respondentlər və 25-29 yaşlıların özlərini sağ təmayüllü hesab etmə ehtimalı bir az daha yüksəkdir, özlərini sol təmayüllü hesab edənlər arasında nəzərəçarpan fərqlər yoxdur.

Şəkil 22: **Ümumilikdə, öz siyasi baxışlarınızı bu şkalada soldan sağa necə yerləşdirərdiniz? (%, tam seçmə)**



Azərbaycan gənclərinin ideoloji mövqeləri nə dərəcədə düz başa düşdüyünü öyrənmək üçün respondentlərə bir qrup fikirlər oxundu və onlardan bu fikirlərin sol, yoxsa sağ təmayüllü olduğunu hesab etdiklərini müəyyən etmək xahiş edildi. Ümumilikdə, məlumatlar göstərir ki, əksər respondentlər sol və ya sağ təmayüllü siyasətlər arasında aydın fərqləndirmə apara bilmir (Şəkil 23). Məsələn, respondentlərin çoxu (36%) istehlaka məhdudiyyətlərin qoyulması kimi aydın sol təmayüllü ideyaları sağ təmayüllü kimi qiymətləndirdilər.

Hansı konkret qrupların ideoloji mövqeləri sol və ya sağ təmayüllü kimi qiymətləndirməsi ehtimalı daha yüksək və ya daha aşağıdır? Bunu anlamaq üçün respondentin Şəkil 23-də verilən fikirləri neçə dəfə düzgün qiymətləndirdiyini sayan mürəkkəb indeks yaradıldı. Ümumilikdə Azərbaycan gənclərinin 17%-i bu indekslə bağlı fikirlərin heç birini düzgün qiymətləndirə bilməyib, 0,5%-i isə bütün fikirləri düzgün qiymətləndirib. Orta hesabla götürdükdə, respondentlər 7 fikirdən 2-ni düzgün müəyyən edib.

Qeyd etmək lazımdır ki, sosial-demoqrafik xüsusiyyətlər, eləcə də respondentlərin siyasətə marağı onların sol və ya sağ təmayüllü siyasətləri nə dərəcədə yaxşı ayırd etdiyini proqnozlaşdırmağa imkan verir. Ali təhsilli, şəhər ərazilərində yaşayan, siyasətə marağı olan respondentlər orta hesabla iki fikri düzgün müəyyən edib. Orta və ya daha aşağı təhsili olan, kənd yerlərində yaşayan və siyasətə marağının olmadığını bildirən respondentlər isə orta hesabla 1,8 fikri düzgün qiymətləndirib.

Fokus qrupu iştirakçılarının siyasi ideologiyalarda sol-sağ bölgüsü baxımından fikirləri fərqlənib. Bir çox iştirakçı bildirib ki, sağ təmayüllü ideologiya onların baxışlarına yaxındır, çünki onlar hökumətin iqtisadi sektora müdaxiləsinə və şəxslərin yüksək vergilər ödəməsinə qarşıdır. **"Mən vergilər baxımından sağa meylliyəm. Məncə vergilər daha az olsaydı, insanlar öz biznesini qurmağa, inkişaf etdirməyə daha meylli olardı"** (Qadın, 27 yaş).

Şəkil 23: **İnsanlar öz siyasi inanclarından danışdıqda, tez-tez sol və sağ haqqında danışırlar. Sizcə, aşağıdakı siyahıdan sola və ya sağa ən yaxın mövqe nədir? (%, tam seçmə)**



Respondentlər iqtisadiyyatın özünütənzimləməsinə və dövlət müdaxiləsinin azalmasına dəstək ifadə ediblər. Bəzi gənclər sağ təmayüllü ideyaları onlar üçün məqbul olan liberalizmlə əlaqələndirir, sol təmayüllü ideyalar isə ölkənin geridə qoyduğu mühafizəkarlıq, diktatura və sosializmlə daha çox əlaqələndirilir: "Sol deyəndə mühafizəkarlar, sağ deyəndə isə liberallar ağlıma gəlir. Mən liberalizmin tərəfdarıyam, çünki mühafizəkarlar daha çox keçmişin tərəfdarıdırlar" (Qadın, 17 yaş).

Solçu ideyaları dəstəklədiyini iddia edənlər yüksək vergilərin ölkənin inkişafı üçün istifadə olunduğunu və "təqaüd və pensiyalara yönəldildiyini" iddia edirlər (Kişi, 25 yaş). Bəziləri də nə sol, nə sağ təmayüllü ideologiyaların yaxşı olmadığını və "hər ikisinin qarışığı olsa daha yaxşı" olacağını (Kişi, 27 yaş) deyirlər. Bəzi iştirakçıların fikrincə, bu halda hər iki rejimin ən yaxşı tərəfləri birləşə bilərdi. Digərləri isə bu ideologiyalar haqqında heç bir təsəvvürlərinin olmadığını bildirərək, öz fikirlərini bildirməkdən çəkindilər.

Gənclərin fərdiyyətçilik və kollektivçiliklə bağlı da müxtəlif fikirləri var idi. Fərdiyyətçiliyin tərəfdarları fərdiyyətçiliyin azadlıq və hər kəsin fərdi seçiminə hörmət demək olduğunu bildirirlər: "Mən həm də fərdiyyətçiliyin tərəfdarıyam, çünki hər bir fərdin öz maraqları, öz baxış tərzi var və hər kəs bu fikrə hörmət etməlidir. İstər din, istər irq fərqli olsun, məncə, buna məhdudiyyət qoyulmamalıdır və buna görə də kimsə qınanmamalıdır" (Qadın, 17 yaş).

Kollektivçiliyin tərəfdarları isə ortaq dəyərləri (məsələn, din) dəstəkləmək fikrini vurğulayırlar: "Fərdiyyətçilik dinimizin pozulmasına gətirib çıxara bilər. Qrup olsaq, güclü olsaq, bir olsaq dinimiz də, ölkəmiz də gözəlləşər. Həm mədəni, həm də mənəvi cəhətdən inkişaf etmiş ölkə ola bilərik" (Qadın, 27 yaş).

Sağ təmayüllü fərdiyyətçiliyin tərəfdarları fərdi azadlığı, eləcə də hərbi xərclərin azaldılmasını və vergilərin aşağı salınmasını dəstəkləyir: "Vergilər yüksək olmamalıdır, çünki əhalinin fərdi azadlığını qoruyursansa, təkcə onun yaşadığı yer, həyat tərzi haqqında deyil, həm də cibindən çıxan xərcləri düşünməlisən. Yüksək vergilərlə fərdi azadlığı qorumaq çətindir" (Kişi, 16). Digər tərəfdən, sağ təmayüllü kollektivçiliyin tərəfdarları hərbi xərclərin artırılmasını, vətənpərvərlik və mədəniyyətin qorunmasını dəstəkləyir, eyni zamanda iqtisadiyyatın özünü tənzimləməli olduğunu düşünürlər. Sonuncusu, yalnız bir neçə iştirakçı daha yüksək xərcləri dəstəklədi və bu mövqeni ekzistensial təhlükələrlə əsaslandırdı: "Öz mədəniyyətimizi qorumalıyıq. Ordu üçün vəsaitlərin ayrılması zəruridir. Nə qədər tələb olunmasından asılı olmayaraq, hər kəs vergiləri ödəməlidir" (Qadın, 29 yaş).

## MÜZAKİRƏ

Keçmiş sorğular Azərbaycan cəmiyyətinin demokratiya ilə bağlı daha çox qərarsız qaldığını göstərsə də, gənclərin bu baxımdan daha həvəsli olduğu görünür. Azərbaycan gənclərinin yarıdan çoxu (54%) demokratiyanın Azərbaycanı idarə etmək üçün ən yaxşı üsul olması fikri ilə razılaşır, 28%-i isə razılaşmır. Demokratiyaya ən az meylli olan qrup Bakıdakı gənclərdir. Onların əsas qismi ya tamamilə, ya da müəyyən dərəcədə bu ideyaya qarşıdır (42%). Milli azlıqların böyük əksəriyyəti (77%) demokratiyanı ya tam (20%), ya da qismən (58%) dəstəkləyir.

Ölkədə real demokratiya təcrübəsinə ya müsbət ya da tam müsbət yanaşılır (53%). Azərbaycandakı demokratiya təcrübəsinə mənfi münasibətlər Bakı sakinləri arasında daha geniş yayılıb (42%). Bundan əlavə, hər beş respondentdən biri qərarsızdır.

Diqqətəlayiqdir ki, fokus qrupu müzakirələri gəlinən bu nəticələri təsdiqləyir. Müzakirələr əsasən paytaxt sakinləri ilə aparıldığından, bir çox iştirakçılar Azərbaycanda demokratiya olmadığını hesab edərək, söz azadlığının, sosial bərabərliyin, insan hüquqlarının müdafiəsinin və fərdi azadlıqların olmadığını iddia edib.

Siyasi iştirak imkanlarının məhdudluğu şəraitində, siyasətlə maraqlandığını deyən gənclərin sayı azdır. Respondentlərin çoxu (43%) siyasətlə qətiyyən maraqlanmır, təqribən dörddə biri (26%) siyasətlə çox maraqlanmadığını deyir, beşdə biri (20%) isə siyasətlə müəyyən qədər və ya çox maraqlandığını deyir. Gənc kişilərin və 25-29 yaşlı gənclərin siyasətə ən azı müəyyən dərəcədə marağının olması ehtimalı daha yüksəkdir.

Siyasət Azərbaycan gəncləri arasında çox müzakirə olunan mövzu deyil. Siyasətə ən azı müəyyən dərəcədə marağı olanların cəmi 23%-i tez-tez tanışları ilə müvafiq müzakirələr aparır, 64%-i bunu nadir hallarda edir, 6%-i isə heç vaxt dostları ilə siyasətdən danışmır. Valideynləri ilə siyasətdən danışanların sayı isə daha azdır: cəmi 18%-i bunu tez-tez edir, 59%-i nadir hallarda edir, 11%-i isə heç vaxt valideynləri ilə siyasətdən danışmır.

Analoji olaraq, siyasi xəbərlərlə maraqlanan Azərbaycan gənclərinin sayı azdır. Respondentlərin yalnız dörddə biri həftədə ən azı 1 dəfə və ya daha tez-tez siyasi məlumatlarla tanış olur. Gənclərin yarıya yaxını qərarsızdır. Respondentlərin üçdə biri demək olar ki heç vaxt siyasi xəbər oxumadığını deyir, 7%-i isə bunu nadir hallarda, ayda cəmi bir dəfə etdiyini deyir. Siyasi xəbərlərlə tanış olduğunu bildirmə ehtimalı ən aşağı olan qrup Bakı sakinləridir. Gənc kişilərin, ali təhsilli gənclərin və məşğul gənclərin, ən yuxarı yaş qrupuna daxil olan respondentlərin siyasi xəbərlərlə tanış olma ehtimalı ən yüksəkdir.

Gənclərin çoxu (40%) öz mənafelərinin milli siyasətdə yaxşı təmsil olunduğunu hesab edir. Bir çoxu isə hələ də əmin deyil və ya öz mənafelərinin zəif təmsil olunduğunu (hər biri 30%) hesab edir. Bakıdan başqa şəhərlərdə yaşayan gənclər, 18-24 yaşlı gənclər və tam orta təhsilli gənclərin öz maraqlarının milli hökumət tərəfindən zəif təmsil olunduğunu və ya heç təmsil olunmadığını bildirmə ehtimalı daha yuxarıdır.

Azərbaycanda çoxsaylı gənclərin siyasətlə müəyyən dərəcədə maraqlandığı görünsə də, üzərinə siyasi funksiya götürmək istəyənlərin sayı azdır. Respondentlərin cəmi 18%-i ya məmnuniyyətlə, ya da bəlkə siyasi funksiyaları üzərinə götürməyə hazır olduğunu bildirib. Gənc kişilərin və ali təhsilli respondentlərin siyasi funksiyalar yerinə yetirməyə istəkli olması ehtimalı bir qədər daha yüksəkdir.

Gənclərin siyasətdə iştirakına gəldikdə, bu cür fəaliyyətlərdə iştirak edən gənclərin sayı azdır. Ümumilikdə Azərbaycan gənclərinin dörddə üçə yaxını (74%) hər hansı siyasi fəaliyyətlərdə iştirak etməyib. Bakıdan kənarda yaşayanlar, daha gənc respondentlər və təhsil səviyyəsi daha aşağı olanların siyasi baxımdan fəal olması ehtimalı daha aşağıdır.

Azərbaycan gəncləri üçün ən önəmli problem qiymətlərin qalxmasıdır (58%). Qeyd etmək vacibdir ki, Azərbaycan gənclərinin 11%-i ərazi bütövlüyü məsələsini əsas problem hesab edir və o, daha çox ikinci ən vacib problem kimi qeyd olunub.

Sol və ya sağ təmayüllü siyasi ideologiyaya bağlı olduğunu iddia edən gənclərin sayı azdır. Respondentlərin çoxu (36%) özlərini mərkəzi mövqedə yerləşdirir, 32%-i isə ideoloji özünüqiymətləndirmə barədə əmin deyil. Hər beş nəfərdən biri sağa, 12% isə sola meyllidir. Ümumilikdə, əksər respondentlər sol və ya sağ təmayüllü siyasətlər arasında aydın fərqləndirmə apara bilmir.

7

# IV HİSSƏ: GƏNCLƏR VƏ XARİCİ SİYASƏTƏ MÜNASİBƏTLƏR

# GİRİŞ

Xarici siyasət məsələləri ənənəvi olaraq Azərbaycan cəmiyyətinin formalaşmasında mühüm rol oynayır. Daha böyük xarici siyasət oyunçularının və imperiyaların kəsişmə nöqtəsində yerləşmiş müasir Azərbaycan öz qonşuları olan Türkiyə, Rusiya və İranla birgə mövcudluğun təsirinə məruz qalmışdır. [49] Ortaq etnik, dil və mədəniyyət xüsusiyyətləri və müəyyən dərəcədə dünyəvi yönümlü siyasətlərlə əlaqədar, Türkiyə Azərbaycan üçün rol modeli və ən yaxın müttəfiqə çevrilib.[50] 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olan Türkiyə Azərbaycanla xüsusi münasibətlər qurub və iki ölkə arasındakı əməkdaşlıq çox zaman "Bir millət, iki dövlət" kimi təsvir olunur.[51] Bununla belə, Cənubi Qafqazdakı digər qonşuları kimi, Azərbaycan hələ də Rusiya ilə sıx iqtisadi, siyasi və mədəni əlaqələri olan postsovet ölkəsidir. Rusiya demək olar ki son iki əsr ərzində Azərbaycan üçün imperiya metropolisi olub. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, Rusiyanın Ermənistana verdiyi siyasi dəstək səbəbindən Rusiya ilə Azərbaycan arasında gərgin münasibətlər yarandı, lakin sonda qarşılıqlı maraqlar tanındı və praqmatik münasibətlər quruldu.[52] Rusiyanın qərəzsizliyinə və Qarabağ münaqişəsində "vicdanlı vasitəçi" olmadığına dair şübhələrə baxmayaraq,[53] Azərbaycan hələ də şimal qonşusu ilə güclü iqtisadi və mədəni əlaqələri saxlayır.[54]

Kəsişmə nöqtəsində yerləşməklə bərabər, Azərbaycan həm də qloballaşan dünyanın bir hissəsidir və böyük neft və qaz payına malik olması ilə əlaqədar mühüm rol oynayır. Müstəqilliyini bərpa etdikdən sonra ölkə Qərb və Avropa institutları ilə fəal əməkdaşlığa başlayıb və iqtisadi və enerji infrastrukturu sistemlərini inteqrasiya etməyə çalışır.[55] Bu baxımdan, bu, sonralar Azərbaycanla "Qərb" arasında münasibətlərdə ən mühüm və həlledici amilə çevrildi. Bununla əlaqədar, Avropa və ABŞ ilə münasibətlərə enerji sektorunda əməkdaşlıqda "qarşılıqlı fayda" prizmasından baxılırdı və hələ də əsas etibarilə praqmatik istiqamətlər izlənilir.[56]

Nəticə etibarı ilə, Azərbaycan dövlətinin rəsmi xarici siyasəti balanslaşdırılmış, çoxşaxəlidir və müstəqil hərəkət edir.[57] Buna baxmayaraq, Türkiyə ilə münasibətlər praqmatik hesablamalarla məhdudlaşmır və xüsusi rol oynayır. Rəsmi diskurs gənc nəsillərdə geniş yayılmış baxış və hisslərdən fərqli ola bilər. Xarici siyasətə münasibətlərin cəmiyyətlərin daxili dinamikasında böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, bu tədqiqat həm də Azərbaycan gənclərinin könlündə və şüurunda xarici siyasətlə bağlı nələrin cərəyan etdiyini araşdırıb: onların qonşu dövlətlərə, Avropaya, beynəlxalq qurumlara və onların Azərbaycana təsirinə münasibətləri.

# GƏLİNƏN NƏTİCƏLƏR

- Azərbaycanda gənclərin yalnız kiçik bir hissəsi (26%) Azərbaycanın Avropa ölkəsi olması ilə razılaşır. Bundan əlavə, gənclərin əhəmiyyətli bir qismi (27%) bu suala heç bir konkret cavab verə bilməyib. Azərbaycanın Avropa ölkəsi olmasının dəstəklənməsi baxımından müxtəlif sosial-demoqrafik qruplar arasında fərq yoxdur. Lakin cavabı bilməyənlər və ya cavablandırmaqdan imtina edənlər ən çox paytaxtda yaşayan, ali təhsilli gənclər və ev təsərrüfatının maddi vəziyyətinin daha yaxşı olduğunu bildirən gənclərdir.
- Gənclərin Avropaya baxışları mürəkkəbdir. Gənclərin çoxu Avropanın ən zəngin və çiçəklənən (35%), demokratiya və qanunun aliliyinin mövcud olduğu (45%) və mədəni və elmi nailiyyətləri (40%) olan bir region olduğuna inanır.
- Buna baxmayaraq, mənfi hisslər də geniş yayılıb: respondentlərin üçdə biri Avropanı öz qaydaları olan yad bir yer (36%), dörddə biri isə aqressiv və soyuq insanların olduğu (22%), mənəvi tənəzzül edən və ənənəvi dəyərlərin itirildiyi (24%) bir yer hesab edir.
- Gənclərin böyük əksəriyyəti (89%) Türkiyənin Azərbaycanın ən yaxın müttəfiqi olduğunu aydın şəkildə qeyd edir. Bu mövqe o qədər hökmrandır ki, ikinci (Rusiya - 5%) və üçüncü (Pakistan - 2%) ən çox qeyd olunan ölkələr 5% həddini keçmir. Bütün Aİ ölkələri birlikdə 1%-ə belə çatmır.
- Türkiyə Azərbaycan iqtisadiyyatının inkişafına (86%), insan hüquqlarının qorunmasına (80%) və milli təhlükəsizliyə (90%) töhfə verə bilən ən mühüm xarici tərəfdaş kimi qəbul edilir.

- Ölkələrin əhəmiyyəti mövzudan asılı olaraq dəyişir: Rusiya (44%), Aİ (35%), Gürcüstan (28%) və ABŞ-ın (24%) ölkənin iqtisadi artımına müsbət təsir göstərdiyi, insan hüquqlarının qorunmasında və ya milli təhlükəsizliyin təmin edilməsində kiçik rol oynadığı hesab edilir.
- Türkiyənin iqtisadiyyatın inkişafına, insan hüquqlarına və milli təhlükəsizliyə dəstək verən tərəf kimi müsbət imici bütün sosial-demoqrafik qruplarda yüksək səviyyədədir. Aİ-nin Azərbaycan iqtisadiyyatına müsbət təsirini Bakıda yaşayan gənclər və ali təhsilli gənclər nisbətən daha çox təsdiq edirlər. Eyni zamanda, digər növ yaşayış məntəqələrindən olan həmyaşıdları ilə müqayisədə, paytaxt gəncləri arasında Rusiya ilə əməkdaşlığın Azərbaycanın iqtisadi inkişafı, insan hüquqlarının müdafiəsi və milli təhlükəsizliyin təmin edilməsi üçün faydalı ola biləcəyi fikrinə dəstək daha çox qeydə alınıb.
- Gənclərin yarıdan çoxu hesab edir ki, Ermənistanla əməkdaşlıq ölkənin milli dəyərlərinə (52%), təhlükəsizliyinə (53%) və dövlətçiliyinə (51%) təhlükə yarada bilər. Respondentlərin çoxu həmçinin iddia edir ki, Ermənistanla əməkdaşlıq Azərbaycanın iqtisadi sisteminə təhlükə yarada bilər (44%). Respondentlərin beşdə biri isə qorxur ki, ABŞ-la əməkdaşlıq da bunu edə bilər.
- Gənclər arasında beynəlxalq təşkilatlarla bağlı fikirlər bölünür. Əksəriyyət Aİ (49%), beynəlxalq maliyyə institutları (48%), NATO (46%) və ya digər beynəlxalq təşkilatların (44%) kifayət qədər müsbət və ya açıq-aşkar müsbət rol oynadığını düşünsə də, qalanları ya heç bir qiymət vermir (bilmir və ya cavab verməkdən imtina edir) və ya həmin təşkilatların ölkəyə təsirinin mənfi olduğunu düşünür.
- Gənclərə "Qərb" və "Rusiya" seçimi verildikdə, respondentlərin çoxu (48%) "Qərb"ə meyl edir. Bununla belə, "heç bir formada qütbləşmə arzuedilən deyil" (16%) fikri də geniş yayılıb. Qütbləşmənin bu cür rədd edilməsi paytaxtda və ali təhsilli gənclər arasında daha geniş yayılıb. Eyni zamanda, digər şəhər və kənd yerlərində yaşayan, eləcə də ali təhsili olmayan gənclər arasında cavablandırmaqdan imtina və "bilmirəm" variantları daha tez-tez qeydə alınır.

## AVROPA NƏYİ TƏMSİL EDİR?

**Gənclərin böyük qismi Azərbaycanı Avropa ölkəsi hesab etmir.** Azərbaycanın Avropa ölkəsi olması fikri ilə razılaşıb-razılaşmadığı soruşulduqda, gənclərin yarıya yaxını (47%) razılaşmadığını, təqribən dörddə biri (26%) razılaşdığını bildirib (Şəkil 24). Azərbaycanda gənclərin nəzərəçarpan bir hissəsi bu sualın cavabını bilmir (22%) və ya cavablandırmaqdan imtina edir (5%). Azərbaycanın Avropa ölkəsi olması ilə razılaşmayanların sayı paytaxtla (29%) müqayisədə digər şəhər (49%) və ya kənd yerlərində (54%) daha çoxdur. Lakin Bakıda sorğuda iştirak etmiş gənclərin yarıdan çoxu (51%) bu suala konkret cavab verməkdən imtina edib. Ali təhsilli gənclər, özünün milliyyətcə Azərbaycanlı olduğunu bildirən gənclər, məşğul gənclər və ev təsərrüfatının maliyyə vəziyyətinin daha yaxşı olduğunu bildirən gənclər[58] arasında bu fikirlə razılaşmama halları daha az qeydə alınıb. Lakin "Bilmirəm" cavabı və ya cavablandırmaqdan imtina da məhz bu qruplar arasında ən yüksəkdir.

Bakıda keçirilən fokus qrupu müzakirəsi gənclərin niyə özlərini Avropanın bir hissəsi kimi görmələri və ya görməmələri barədə daha çox təsəvvür yaradır. Gənclərin bəziləri deyir ki, Azərbaycanda mentalitet insanlara "Avropaya doğru getməyə" və onun tam tərkib hissəsi olmağa imkan verməsə də, onlar Avropaya müəyyən dərəcədə yaxınlıq hiss edirlər. İştirakçılar, müasir olduqları üçün özlərini Avropanın bir hissəsi hiss etdiklərini, azadlıq və demokratiya ideyasını dəstəklədiklərini bildiriblər. Digər tərəfdən, digər iştirakçılar özlərini Avropanın bir hissəsi kimi hiss etmədiklərini iddia edirlər, çünki Avropada və Azərbaycanda insanlar və mədəniyyət fərqlidir. Hər üç fokus qrupunda gənclər Azərbaycanın Avropa ilə eyni yüksək standartlara malik olmadığını və Avropanın bir hissəsi olmağa hazır olmaq üçün hələ də inkişaf etməli olduğunu qeyd etdilər. Respondentlərdən biri: **"[Özümü Avropanın bir parçası hiss etmirəm] çünki biz tam azad deyilik, sözümüzü necə deyəcəyimizi bilmirik, bəzi yerlərdə problemlərimiz var, mentalitet mane olur"** (Qadın, 29 yaş).

Digər iştirakçı isə iddia edib ki, Avropa İttifaqına qoşulmaq Azərbaycandakı insanların istəyindən asılı deyil: “Orada olan ölkələrin istəyindən asılıdır. Hamı Avropa İttifaqına qoşulmaq istəyir. Amma fikirləşəndə bizim ölkədə belə standartlar yoxdur” (Kişi, 16). Buna görə də bəzi iştirakçılar düşünür ki, Azərbaycan Avropa İttifaqına daxil olmamalıdır və ya ola bilməz. Eyni zamanda, hər üç fokus qrupunda gənclər Aİ-nin bir hissəsi olmaq arzusunu ifadə edərək iddia etdilər ki, Azərbaycan bir neçə sahədə (səhiyyə, təhsil və s.) inkişaf istəyirsə, Avropa İttifaqına qoşulmalıdır. “Biz [Aİ-yə daxil olmaq üçün] üç səbəbi vurğuladıq. Birlik, söz azadlığı və demokratiya naminə” (Kişi, 20 yaş). Bundan əlavə, iqtisadi faydalar olacaq: “İqtisadi baxımdan, ölkəmizə daha çox turist gələcək. Ölkə tanınacaq” (Qadın, 20 yaş). Bəzi iştirakçılar deyirlər ki, Aİ-yə qoşulmağın yalnız müsbət tərəfləri olacaq, çünki ölkə müdafiə ediləcək.

Şəkil 24: **Azərbaycanın Avropa ölkəsi olması fikri ilə nə dərəcədə razısınız? Yaşayış məntəqəsinin növü, təhsil, milli mənsubiyyət, məşğulluq və ev təsərrüfatının maliyyə vəziyyəti üzrə (%, tam seçmə)**



Buna baxmayaraq, fokus qrupu iştirakçılarının bir hissəsi Aİ-yə qoşulmağın bəzi problemlər yaradacağını hesab edir. "Avropalaşma" ilə "bəzi pis şeylərin" gələcəyini iddia edirlər, məsələn, azad həyat tərzi, geyim tərzi, narkomaniya. Bundan əlavə, Azərbaycan üçün qəbuledilməz olan bəzi dəyərlər, məsələn, valideynlərə hörmət etməmək, ayrı yaşamaq, ailə qurmaqdan imtina etmək və buna bənzər dəyərlər geniş yayılacaq. Nəhayət, digər mənfi cəhət o ola bilər ki, Rusiya və İran ölkənin siyasi düşməninə çevriləcək.

Sorğunun nəticələri də göstərir ki, Azərbaycan gənclərinin Avropa haqqında fikirləri müxtəlif və qarışıqdır. Çoxları üçün Avropa sərvət və rifah (35%), demokratiya və qanunun aliliyi (45%), mədəni və elmi nailiyyətlər (40%) ilə əlaqələndirilir. Bununla belə, gənclərin əhəmiyyətli bir qismi Avropaya daha ehtiyatla və bəzən mənfi fikirlərlə yanaşır. Gənc respondentlərin üçdə birindən çoxu (36%) üçün Avropa öz qaydaları olan yad dünyadır, 28%-i üçün isə bu, sadəcə coğrafi təyinatdır. Bundan başqa, gənclərin 24%-i üçün Avropa mənəvi tənəzzül edən və ənənəvi dəyərlərin itirildiyi yerdir, 22%-i isə onun aqressiv və soyuq insanların yaşadığı yer olduğuna inanır (Şəkil 25).

Fokus qrupu iştirakçıları Avropanı hansı keyfiyyətlərlə əlaqələndirdikləri barədə də danışıblar. Bunlar əsasən demokratiya, liberalizm, insan hüquqlarının müdafiəsi, inkişaf, iqtisadi və siyasi əməkdaşlıq, yüksək səviyyədə təhsil, rifah, təhlükəsizlik və birliklə bağlı olan müsbət anlayışlardır. "Avropa deyəndə ağlıma demokratiya, liberalizm, insan hüquqlarının müdafiəsi gəlir" (Qadın, 16 yaş). Bu iştirakçılar Avropanın dünyanın ən inkişaf etmiş qitəsi olduğunu iddia edirlər.

Şəkil 25: **Aşağıdakı fikirlərdən hansı sizin Avropa haqqında şəxsi fikirlərinizə daha çox uyğundur? (%, tam seçmə)**



# DÖVLƏTİN DOSTLARI VƏ DÜŞMƏNLƏRİ

Azərbaycanda gənclərin milli təhlükəsizlik məsələləri və xarici ölkələrə münasibəti ilə bağlı kifayət qədər konkret və birmənalı fikirləri var. **Azərbaycanın ən yaxın dostu olan konkret bir ölkənin adını çəkməyi xahiş etdikdə, böyük əksəriyyət (89%) Türkiyənin adını çəkdi** (Şəkil 26). İkinci ən çox qeyd edilən ölkə Rusiya (cəmi 5%), ardınca isə 2%-lə Pakistan oldu. Cəmi 2 "ənənəvi" Avropa ölkəsi qeyd olundu: Almaniya (0,3%) və İngiltərə (0,19%). Aİ üzv dövlətləri birlikdə gənclərin 1%-dən azı tərəfindən qeyd edildi. Türkiyənin üstünlüyünə baxmayaraq, gənclərin müxtəlif qrupları arasında cüzi fikir ayrılıqları oldu. Belə ki, paytaxtdakı gənclər digər şəhər (4%) və kənd (3%) əraziləri ilə müqayisədə Rusiyanı Azərbaycanın ən yaxın dostu kimi daha tez-tez qeyd edib (9%). Eyni tendensiya milli mənsubiyyət amili üzrə də müşahidə edilib: Başqa etnik qrupa mənsub olduğunu qeyd edən gənclər özünü milli mənsubiyyətinə görə azərbaycanlı kimi qeyd edən gənclərlə müqayisədə Rusiyanı Azərbaycanın ən yaxın dostu kimi daha tez-tez qeyd edib (müvafiq olaraq 9% və 4%).

Şəkil 26: **Sizin fikrinizcə, hansı ölkə Azərbaycanın ən yaxın dostudur? (%, təkseçimli, tam seçmə)**



Şəkil 27: **Azərbaycanın aşağıdakı ölkələrdən hansı ilə əməkdaşlığı... a) Azərbaycanın iqtisadi inkişafına, b) Azərbaycanda insan hüquqlarının müdafiəsinə, və c) Azərbaycanın milli təhlükəsizliyinə töhfə verəcək (%, çoxseçimli, tam seçmə)**




Xarici dövlətlərin Azərbaycanın iqtisadi artımı, insan hüquqlarının müdafiəsi və milli təhlükəsizliyinə dəstək baxımından oynadığı rola gənclərin necə yanaşdıqlarını öyrənmək üçün növbəti suallar verildi (Şəkil 27). **Azərbaycan gənclərinə görə, Azərbaycanın Türkiyə ilə əməkdaşlığı ölkənin iqtisadi artımını (86%), insan hüquqlarının müdafiəsini (80%) və milli təhlükəsizliyi (90%) təmin etmək üçün ən vacib amildir.** Milli təhlükəsizliyin təmin edilməsində Türkiyənin rolu mübahisəsizdir və üstündür, çünki başqa heç bir ölkə və ya təşkilat cavabların 20%-dən çoxunu toplaya bilmədi. İqtisadi artıma gəldikdə, Rusiyanın (44%), Aİ ölkələrinin (35%) və Gürcüstanın (28%) da rolu vacib hesab edildi. İnsan hüquqlarının müdafiəsinə gəldikdə isə Türkiyə ilə yanaşı Aİ ölkələri (32%) və Rusiya (27%) ən çox qeyd edilənlər arasında idi.

Gənclərin Azərbaycanın müxtəlif beynəlxalq subyektlərlə əməkdaşlığının faydalarına necə yanaşması təhsil səviyyələri və coğrafi yerləşmədən asılı olaraq fərqlənir (Cədvəl 1). **Paytaxtda yaşayan gənclər və ali təhsilli gənclər Azərbaycanın Aİ ölkələri ilə əməkdaşlığının daha yaxşı iqtisadi artımla nəticələnə biləcəyini daha çox qeyd edirlər.** Bundan əlavə, ali təhsilli gənclər Aİ ölkələri ilə əməkdaşlığın insan hüquqlarının müdafiəsinə müsbət təsirini daha çox görür. **Digər şəhər və ya kənd yerlərində yaşayan gənclərlə müqayisədə paytaxtda yaşayan gənclər daha yaxşı iqtisadi artım, insan hüquqlarının müdafiəsi və milli təhlükəsizliyin artırılmasında Rusiya ilə əməkdaşlığın vacibliyini daha tez-tez qeyd edir** (Cədvəl 1). Bu, Türkiyəyə də şamil olunur: **paytaxtda yaşayan gənclər** digər yerlərdə yaşayan gənclərlə müqayisədə, müzakirə edilmiş bütün meyarlar üzrə Türkiyə ilə əməkdaşlığa mümkün ən yüksək səviyyələrdə dəstək ifadə edir və **Türkiyənin Azərbaycanın inkişafı üçün mühüm faktor olduğunu deməyə daha çox meyllidir**.

Cədvəl 1: **Azərbaycanın Aİ ölkələri/Rusiya/Türkiyə ilə əməkdaşlığı… a) Azərbaycanın iqtisadi inkişafına, b) Azərbaycanda insan hüquqlarının müdafiəsinə, və c) Azərbaycanın milli təhlükəsizliyinə töhfə verəcək (%, çoxseçimli, * işarələri statistik əhəmiyyətli fərqləri göstərir).**

| Mövzu | Yaşayış məntəqəsinin növü | | | Təhsil | | |
|---|---|---|---|---|---|---|
| | Paytaxt | Şəhər | Kənd | İbtidai və natamam orta | Tam orta | Ali (o cümlədən natamam ali) |
| **Aİ ölkələri** | | | | | | |
| Azərbaycanın iqtisadi artımı | **44*** | 34 | 32 | 31 | 32 | **51*** |
| Azərbaycanda insan hüquqlarının müdafiəsi | 29 | 32 | 33 | 28 | 30 | **44*** |
| Azərbaycanın milli təhlükəsizliyi | 15 | 8 | 11 | 10 | 10 | 15 |
| **Rusiya** | | | | | | |
| Azərbaycanın iqtisadi artımı | **84*** | 34 | 32 | 39 | 41 | 59 |
| Azərbaycanda insan hüquqlarının müdafiəsi | **59*** | 19 | 18 | 24 | 26 | **37*** |
| Azərbaycanın milli təhlükəsizliyi | **29*** | 14 | 14 | 14 | 18 | 20 |
| **Türkiyə** | | | | | | |
| Azərbaycanın iqtisadi artımı | **98*** | 78 | 87 | 86 | 86 | 89 |
| Azərbaycanda insan hüquqlarının müdafiəsi | **96*** | 70 | 79 | 77 | 80 | 83 |
| Azərbaycanın milli təhlükəsizliyi | **97*** | 86 | 90 | 88 | 90 | 94 |

Xarici ölkələrin Azərbaycana potensial müsbət təsirlərindən əlavə, respondentlərdən müəyyən ölkələrlə əməkdaşlığın Azərbaycanın milli dəyərlərin, milli təhlükəsizliyinə, dövlətçiliyinə və iqtisadi sisteminə təhlükə yaradıb-yaratmayacağı soruşuldu (Şəkil 28). **Azərbaycanda gənclərin yarıdan çoxu Ermənistanı ölkənin milli dəyərlərinə (52%), təhlükəsizliyinə (53%) və dövlətçiliyinə (51%) təhdid kimi görür**. Ermənistanla əməkdaşlıq həm də Azərbaycanın iqtisadi sisteminə ən böyük təhdid kimi qəbul edilir (44%). **Azərbaycanın milli dəyərlərinə (19%), milli təhlükəsizliyinə (23%), dövlətçiliyinə (23%) və iqtisadi sisteminə (20%) potensial təhdid baxımından ən çox qeyd edilən ikinci ölkə ABŞ-dır**. Xarici dövlətlərin rolunun müsbət aspektlərinə dair suallarla müqayisədə təhdid suallarına cavablarda "Bilmirəm" və "Cavab verməkdən imtina edirəm" cavablarının payı daha çox oldu: gənclərin dörddə birə yaxını milli dəyərlərə, dövlətçiliyə və iqtisadi sistemə təhdidlə bağlı suallarda konkret ölkə göstərə bilmədi. Milli təhlükəsizliyə təhdidlə bağlı sualda bu göstərici üçdə birə qalxdı (31%) (Şəkil 28).

Şəkil 28: **Azərbaycanın aşağıdakı dövlətlərdən hansı ilə əməkdaşlığı a) Azərbaycanın milli dəyərlərini, b) Azərbaycanın milli təhlükəsizliyini, c) Azərbaycanın dövlətçiliyini, və d) Azərbaycanın iqtisadi sistemini təhdid edəcək (%, çoxseçimli, tam seçmə)**



Gənclərin müxtəlif sosial-demoqrafik qruplarında Ermənistanı Azərbaycanın milli dəyərlərinə, təhlükəsizliyinə, dövlətçiliyinə və iqtisadi sisteminə təhdid hesab edənlərin payı eynidir. Lakin bəzi istisnalar var. **Digər şəhər və kənd yerlərində yaşayan gənclərlə müqayisədə paytaxtda yaşayanlar arasında Ermənistanla əməkdaşlığı təhdid kimi görənlərin payı daha çoxdur.** (Şəkil 29). Təhdid təsəvvürləri təhsil səviyyəsi ilə uzlaşır: ali təhsilli gənclər (60%) arasında orta (50%) və ya ibtidai və natamam orta (50%) təhsilli gənclərlə müqayisədə Ermənistanla əməkdaşlığı Azərbaycanın milli dəyərlərinə təhdid kimi görənlərin payı bir qədər daha yüksəkdir.

Şəkil 29: **Azərbaycanın Ermənistanla əməkdaşlığı a) Azərbaycanın milli dəyərlərini, b) Azərbaycanın milli təhlükəsizliyini, c) Azərbaycanın dövlətçiliyini, və d) Azərbaycanın iqtisadi sistemini təhdid edəcək (%, çoxseçimli, tam seçmə)**



# BEYNƏLXALQ TƏŞKİLATLARA VƏ GEOSİYASİ SEÇİMLƏRƏ MÜNASİBƏTLƏR

Xarici siyasətlə bağlı baxışlarını daha yaxşı anlamaq üçün gənclərdən beynəlxalq siyasi, hərbi və maliyyə institutlarının rollarını qiymətləndirmək xahiş edildi. Ümumilikdə, respondentlərin çoxu hesab edir ki, Aİ (49%), beynəlxalq maliyyə institutları (48%), NATO (46%) və beynəlxalq təşkilatlar (44%), məsələn, Birləşmiş Millətlər Təşkilatı Azərbaycanda müsbət və ya daha çox müsbət rol oynayır. Bununla belə, qeyd etmək lazımdır ki, gənclərin 25-30%-i ya həmin qurumların mənfi rol oynadığına inanır, ya da bu mövzuda konkret mövqeləri yoxdur (Şəkil 30).

Gənclərin müxtəlif sosial-demoqrafik qrupları arasında bu mövzuya daha dərindən nəzər saldıqda məlum olur ki, münasibətlər bu qruplar arasında bərabər paylanmayıb. Ümumən, gənc kişilər beynəlxalq təşkilatların və institutların rolunu gənc qadınlarla müqayisədə bir qədər daha müsbət qiymətləndirir (Şəkil 31). Digər şəhər və kənd yerlərində yaşayanlarla müqayisədə, paytaxtda yaşayanlar arasında beynəlxalq təşkilatları və institutları müsbət qiymətləndirmə daha az qeydə alınır. Ali təhsilli gənclər arasında Aİ və beynəlxalq təşkilatlar (BMT) kimi beynəlxalq təsisatların roluna mənfi yanaşma ehtimalı daha yüksəkdir.

Şəkil 30: **Aşağıdakı təşkilatlar Azərbaycan üçün nə dərəcədə müsbət və ya mənfi rol oynayırlar? (%, tam seçmə)**




Şəkil 31: **Aşağıdakı təşkilatlar Azərbaycan üçün nə dərəcədə müsbət və ya mənfi rol oynayırlar? (Yalnız "Daha müsbət rol" və "Müsbət rol" cavablarının cəmi %, tam seçmə). "*" işarələri statistik əhəmiyyətli fərqləri göstərir.**



Sorğu zamanı xarici siyasət seçimləri də araşdırılıb. Məsələn, gənclərdən "Qərb" və Rusiya arasında seçim etmək xahiş edildikdə, çoxluq "Qərb" yönümlü hisslərini ifadə edib (48%, 1-5 qiymətlərinin cəmi). Lakin qeyd etmək lazımdır ki, 1 qiymətinin Qərbi, 10 qiymətinin Rusiyanı ehtiva etdiyi 10 ballıq şkalada ən çox seçilən variant 5 (20%) olub ki, bu da qərbə cüzi üstünlük verildiyini göstərir (Şəkil 32). Rusiya yönümlü gənclərə gəldikdə isə (6-10 qiymətlərinin cəmi) onlar birlikdə bütün gənclərin beşdə birindən bir qədər çoxunu təşkil edir (22%).

Təhlilin davamı göstərdi ki, paytaxtda yaşayan gənclər daha çox neytral mövqe bildirir: Bakıda gənclərin əsas qismi (37%) "qütbləşməyə üstünlük verilmir" bildirib, eyni variantları digər şəhərlərdə respondentlərin cəmi 7%-i, kənd yerlərində isə 12%-i seçib. Müxtəlif yaşayış məntəqələri arasında, Rusiya yönümlülük səviyyələri ümumilikdə təqribən eyni olsa da, şkalada maksimum bal (10 - Rusiya) Bakıdakı gənclərin 13%-i tərəfindən seçilib. Müvafiq göstərici digər şəhər və kənd yerlərində isə müvafiq olaraq 5% və 4% olub (Şəkil 32). Təhsil səviyyəsində gəldikdə isə ibtidai və natamam orta təhsilli (15%) və ya tam orta təhsilli gənclərlə (14%) müqayisədə, ali təhsilli gənclər arasında neytral mövqelər daha çox seçilib (24%). Bundan əlavə, təhsil səviyyələri baxımından, Qərbə münasibətlər ümumilikdə əhəmiyyətli dərəcədə fərqlənmir. Lakin ali təhsilli gənclər ibtidai və natamam orta (4%) və tam orta (2%) təhsilli gənclərlə müqayisədə  Qərb yönümlü münasibətlərini bir qədər daha konkret ifadə edirlər (10% şkalada ən yüksək bal: 1 - Qərb) (Şəkil 32).

Şəkil 32: **Azərbaycanın istər Qərb dövlətləri ilə, istərsə də Rusiya ilə nə dərəcədə yaxın olmasını istərdiniz? (1 qiyməti Qərbə, 10 qiyməti isə Rusiyaya çox yaxın olmağı ehtiva edir) (%, tam seçmə)**



## MÜZAKİRƏ

Dövlət tərəfindən həyata keçirilən praqmatik və balanslaşdırılmış xarici siyasətə uyğun olaraq, Azərbaycan gəncləri də daha çox neytral və qeyri-ekstremal xarici siyasət mövqelərini seçərək, qütbləşmədən və müxtəlif qərb və ya Rusiya düşərgələri arasında tərəf seçməkdən yayınmağa üstünlük verir.[59] Buna baxmayaraq, qərb ölkələrinə bir qədər meyllilik müşahidə edilib. Bunun bir neçə potensial səbəbi ola bilər və birinci aşkar səbəb Ermənistan-Azərbaycan münasibətlərindəki tarixi roluna görə Rusiyaya qarşı müəyyən inamsızlıq və inciklik ola bilər. Digər səbəb isə gənclər arasında aparılan sorğunun nəticələrindən gəlinən qənaətə əsasən, Qərbin, xüsusən də Avropanın ümumən iqtisadi rifah və firavanlıq yeri kimi təsəvvür edilməsi ola bilər. Bundan başqa, digər tədqiqatlar da təsdiq edir ki, Azərbaycan ictimaiyyətinin Avropa İttifaqına neytral və nisbətən müsbət münasibət bəsləməsinə baxmayaraq, təxminən dörddə üçü Aİ-ni insan hüquqları (75%), iqtisadi rifah (74%) və qanunun aliliyi (74%) ilə əlaqələndirir.[60] Müsbət imic həm də Azərbaycan ictimaiyyətini Rusiyadan daha çox qərb ölkələrinə üstünlük verməyə sövq edən amil ola bilər. 2022-ci ildə Azərbaycanda Aİ haqqında təsəvvürlərlə bağlı aparılan son tədqiqat göstərdi ki, Azərbaycan əhalisinin 48%-i Aİ haqqında müsbət təsəvvürə malikdir və onların 76%-i Aİ ilə yaxşı münasibətlər olduğunu qəbul edir.[61] Bu, Qərb, Avropa və ya Aİ-nin Azərbaycan gənclərinə yaxın və çox tanış olan bir şey olduğunu ehtiva etmir. Bundan əlavə, sorğunun nəticələrini şərh edərkən, tədqiqatın aparıldığı konteksti nəzərə almaq vacibdir: Rusiyanın Ukrayna işğalının davam etməsi güclü ABŞ və Britaniya və inamlı və zorakı Rusiya ilə müqayisədə “zəif Avropa” təsəvvürlərini gücləndirdi. Buna baxmayaraq, Azərbaycanda çoxları Rusiyanın Ukraynaya təcavüzünü mənfi qiymətləndirdi və Ukraynaya həmrəylik və dəstək nümayiş etdirdi, çünki Ukrayna ərazilərinin işğalı 1990-cı illərin əvvəllərində Azərbaycanda baş verənlərə bənzədilirdi.[62]

Azərbaycan gəncləri üçün Avropa uzaq, yad, müəyyən məqamlarda onların dəyərlərinə zidd görünsə də, maddi rifahı, qanunun aliliyi, mədəni və elmi inkişafı baxımından yenə də cazibədar və cəlbedici görünür. Uzun illər Azərbaycanın Aİ və ya daha geniş miqyasda Avropa ilə əlaqələri təsadüfi və ya yalnız karbohidrogen ehtiyatları üzrə strateji əməkdaşlığa yönəlmişdi.[63] 2009-cu ildən Azərbaycanın rəsmi olaraq Şərq Tərəfdaşlığı (EP) təşəbbüsünə dəvət olunmasına baxmayaraq, əməkdaşlığın və ya inteqrasiyanın dərinləşdirilməsi istiqamətində çox az iş görülüb.[64] Bundan əlavə, Ukraynadakı müharibədən əvvəl, həm Avropa, həm də Qərb Azərbaycana az maraq göstərib.[65] 2020-ci ildə Aİ-nin Şərq qonşuluğu barometri çərçivəsində aparılan tədqiqat göstərdi ki, Azərbaycan ictimaiyyətinin Aİ ilə bağlı ümumi rəyi əsasən müsbət (44%) olsa da, nəzərəçarpan hissəsi neytral mövqelər də (35%) bildirir. Gənclərlə bağlı hazırkı tədqiqatda olduğu kimi, burada da ictimaiyyətin xeyli hissəsi ya əmin deyildi (32%), ya da Aİ-nin ənənəvi dəyərlərin qorunub saxlanmasına xidmət etmədiyinə inanırdı (21%).[66] Eyni sorğuda Aİ-nin respondentlərdə necə bir təəssürat yaratdığına dair açıq suallar verildikdə, təxminən 31%-i deyəcəkləri bir şey olmadığını və 6%-i suala cavab verməyin çox çətin olduğunu bildirdi. Ona görə də Avropa ilə bağlı qeyri-müəyyən və bəzən qeyri-dəqiq mövqelərin olması təəccüblü deyil.

Azərbaycana dost ölkələri araşdırarkən Avropa kölgədə qaldı. Burada Türkiyə həm qonşu, həm də uzaq olan bütün digər ölkələri xeyli geridə qoydu. Sıx siyasi və iqtisadi əlaqələrlə yanaşı, onlar ortaq mədəniyyət və adət-ənənələrə malikdir və çox vaxt özlərini “Bir millət, iki dövlət” kimi təsvir edirlər.[67] Bu, simvolik jestlərdən xeyli kənara çıxır və onun dərin kökləri Türkiyənin inkişaf üçün ən mühüm rol modellərindən biri olduğu dövrdəki ilkin milli dövlət quruculuğu və müasirləşmə prosesinə gedib çıxır.[68] Bundan əlavə, Türkiyə təlatümlü 1990-cı illərdə Qarabağ müharibəsində, o cümlədən yenidən təkrarlanan və Azərbaycanın qələbəsi və işğal olunmuş ərazilərin əhəmiyyətli hissəsinin geri alınması ilə nəticələnən hərbi münaqişədə Azərbaycanı dəstəkləyirdi.[69] Ona görə də Azərbaycan cəmiyyətinin bütün sosial-demoqrafik qrupları arasında Türkiyə yönümlü hisslərin üstünlük təşkil etməsi təsadüfi deyil.

Əksər qonşular və regionların əsas dövlətləri ilə müəyyən dərəcədə yaxşı işgüzar münasibətlərin saxlanmasına və qarşılıqlı faydaya yönələn praqmatik xarici siyasət, yəqin ki, gənclərin müxtəlif ölkələrlə bağlı mövqelərinə sirayət edib. Müxtəlif ölkələrin və regionların Azərbaycanın inkişafına necə töhfə verə biləcəyini araşdırarkən, təəccüblü deyil ki, Aİ, ABŞ, Rusiya və Gürcüstan ölkənin iqtisadi inkişafına töhfə vermək baxımından əhəmiyyətli dərəcədə daha yüksək müsbət qiymətləndirilsə də, gənclər milli təhlükəsizliyin möhkəmləndirilməsi baxımından Azərbaycanın onlara arxalana biləcəyini

düşünmür. Yuxarıda sadalanan səbəblərdən, yalnız Türkiyə bu baxımdan tam dəstəyə malikdir. Daha da önəmlisi odur ki, Ukraynadakı müharibə Azərbaycanın xarici siyasət vəzifəsini daha da çətinləşdirir, çünki ölkə "Qarabağ məsələsində Moskva ilə tarazlığı təmin etməli və enerji təhlükəsizliyinin təmin edilməsində Qərblə sıx əməkdaşlıq etməlidir"[70]. Gözlənilir ki, Bakı "güc mərkəzlərini qıcıqlandırmamaq" siyasətini, eləcə də "kiçik addımlarla və tədbirlərlə öz ərazi bütövlüyünü bərpa etmək və ölkə kimi öz müstəqilliyini qoruyub saxlamaq" üçün təcrübədən keçirilmiş balanslaşdırma yanaşmasını davam etdirəcək.[71]

Azərbaycanın xarici siyasətində və ictimai diskursunda Türkiyə timsalında konkret qəhrəmanla yanaşı, həm də açıq düşmən və əsas rəqib kimi Ermənistan hakimdir. Ermənistan və Azərbaycan arasında çoxşaxəli münaqişənin kökləri Çar Rusiyası dövrünə gedib çıxır və bu mövzunun araşdırılmasına xeyli elmi ədəbiyyat nümunələri həsr olunub.[72] İki ölkə arasında son 30 ildə yaranmış gərgin və düşmənçilik münasibətləri təbii ki, gənclərin Ermənistanı ölkənin iqtisadi inkişafı, milli təhlükəsizliyi və ya milli dəyərləri üçün ən mühüm təhdid kimi qiymətləndirməsinə öz təsirini göstərib. Növbəti bölmələr göstərəcək ki, gənclər arasında Ermənistana qarşı mənfi münasibətin üstünlük təşkil etməsi təkcə Ermənistan dövləti ilə deyil, müəyyən dərəcədə Ermənistan vətəndaşları ilə də bağlı olub. Çoxsaylı vasitəçilik cəhdlərinə və sülh danışıqlarına baxmayaraq, mövcud vəziyyət dalana dirənib. Son siyasi proseslər qarşılıqlı tanınma istiqamətində müəyyən müsbət addımların atıldığını göstərir, lakin bu proses hələ də ilkin mərhələdədir və kövrəkdir. Buna görə də, gənclər arasında gələcək tədqiqatlar qarşılıqlı inamın, etimadın və münasibətlərin yenidən qurulmasının mümkün yollarını öyrənməyə yönəldilə bilər. Bunun mürəkkəb proses olacağı şübhəsizdir. Elmi ədəbiyyatda bu məqsədə nail olmaq üçün bəzi potensial yollar təklif edilir. Məsələn, 2015-ci ildə Azərbaycanda aparılan laboratoriya təcrübəsi göstərdi ki, "mesaj və vasitənin məqsədəuyğun birləşməsi" mövcud düşmənçilik münasibətlərini müəyyən dərəcədə dəyişdirə bilər.[73] Mövzunun mürəkkəbliyi və həssaslığı səbəbindən sadə hazır "resept" təqdim etmək mümkün deyil. Bu tədqiqat digər məsələlərlə yanaşı, bu problemin müxtəlif aspektlərini araşdırmağa çalışıb və növbəti fəsillərdə Ermənistan-Azərbaycan münasibətləri yaxın keçmiş, milli kimlik və dəyər yönümlülük prizmasından araşdırılacaq.

8

# V HİSSƏ: YAXIN KEÇMİŞƏ VƏ QARABAĞ MÜHARİBƏSİNƏ TƏKRAR NƏZƏR

# GİRİŞ

Tarixi hadisələrlə bağlı təqdim edilən məlumatların tədqiqi, araşdırılması və formalaşdırılması Azərbaycan cəmiyyəti üçün mühüm əhəmiyyət kəsb edir. Müasir Azərbaycan alimləri bəzən istər qərb, istərsə də regionun elm ictimaiyyətində Azərbaycan tarixi və irsinin tədqiqi ilə bağlı müəyyən boşluqların və yanlış təsəvvürlərin olduğunu bildirirlər.[74] Qeyd etmək lazımdır ki, bu, bütün kiçik dövlətlər, o cümlədən Azərbaycanın Cənubi Qafqazdakı qonşuları üçün xarakterik olan geniş yayılmış bir tendensiyadır. Tədqiq edilməsi vacib olan tarixi subyektlərin həcminin böyüklüyünü nəzərə alaraq, bu tədqiqatda yalnız yaxın keçmişə köklənməyə qərar verilib. Bu qərarın əsas səbəbi gənclərin son 30 ildə baş verən hadisələr barədə daha məlumatlı, təcrübəli olması və bağlılığıdır. Beləliklə, fokus qrupu müzakirələri və kəmiyyət əsaslı sorğu zamanı gənclərin Sovet İttifaqı və onun dağılmasına, təlatümlü 1990-cı illərə və İkinci Qarabağ müharibəsinə münasibəti öyrənilmişdir.

Müasir Azərbaycanın tarixi Sovet İttifaqı ilə sıx bağlıdır. 1918-1920-ci illərdəki qısamüddətli müstəqillik dövrünə baxmayaraq, dövlət quruculuğu prosesinin böyük qismi, o cümlədən “Azərbaycanın milli tarixinin qurulması üçün ilk rəsmi cəhd” sovet hakimiyyəti dövründə həyata keçirilib.[75] Buna baxmayaraq, 1980-ci illərin sonlarına yaxın çoxsaylı amillər, o cümlədən ermənilərlə etnik və ərazi zəminində gərginliklər, habelə Moskvanın bu gərginliklərə münasibətinə narazılıq səbəbindən antisovet əhval-ruhiyyəsi və SSRİ-dən çıxmaq istəyi daha da gücləndi.[76] Buna baxmayaraq, sovet keçmişi 1990-cı illərdə yeni milli dövlət quruculuğuna öncüllük edən Azərbaycan elitasına öz təsirini göstərdi.[77] Beləliklə, gənclərin keçmiş sovet dövrünə münasibətlərini araşdırmaq və onları hakim siyasi və mədəni diskurslarla müqayisə etmək Sovet İttifaqı irsinin müasir Azərbaycanda necə saxlandığına, onun indiki diskursa və ya ictimai rəyə hər hansı təsirinin olub-olmamasına aydınlıq gətirə bilər.

Müstəqilliyin ilk onilliyində Azərbaycan Ermənistanla hərbi münaqişə, millətçi qüvvələrin qısamüddətli dirçəlişi ilə yanaşı, iqtisadi çətinliklərlə və “millətçilərin siyasətindən ümumi narazılıqla” üzləşdi və “daha balanslı xarici istiqamətə doğru irəlilədi”.[78] Suverenliyin əldə edilməsinin ilkin həyəcanı tezliklə öz yerini iqtisadi, siyasi və beynəlxalq mühitin ümumi transformasiyası ilə bağlı çağırış və çətinliklərə verdi.[79] Bununla belə, Azərbaycan ictimaiyyəti arasında 1990-cı illərə münasibətlər elm ictimaiyyəti tərəfindən kifayət qədər araşdırılmayıb. Nəticə etibarilə, gənclərin bu mövzuya münasibətinin araşdırılması empirik əhəmiyyətlə yanaşı, həm də akademik əhəmiyyətə malikdir.

Yaxın keçmişə təkrar baxışın araşdırılan sonuncu aspekti gənclərin ikinci Qarabağ müharibəsinə, onun nəticələrinə münasibətləri və gələcək gözləntiləri olub. Daha geniş Qarabağ münaqişəsinin mənşəyi, gedişatı və ictimai-siyasi aspektləri ilə bağlı zəngin elmi ədəbiyyat olduğundan, bu tədqiqat yalnız son “44 günlük müharibə” ilə bağlı gənclərin mövqelərini araşdırmağa yönəlir. Beləliklə, gənclər üzrə bu tədqiqat tədqiqatçılara gənclərin düşüncələrini, gələcəklə bağlı narahatlıqlarını və regional və ölkələrarası münasibətləri inkişaf etdirməyin üstünlük verilən yollarını daha yaxşı başa düşmək üçün unikal imkan yaratdı. Bu baxımdan, bu bölmə yaxın keçmişdən gələcəyədək uzanan geniş spektrli düşüncələri başa düşmək üçün imkan yaradır.

# GƏLİNƏN NƏTİCƏLƏR

- Azərbaycanda gənclərin böyük hissəsi SSRİ-nin dağılmasının təsirini ya qiymətləndirə bilməyib (30%-i cavabı bilmədiyini deyib), ya da cavab verməkdən imtina edib (8%). Gənclərin qalan hissəsinə gəldikdə, neytral (24%) və ya müsbət (26%) cavablar verənlərin payı demək olar eyni idi, cəmi 12%-i isə Sovet İttifaqının dağılmasının mənfi hadisə olduğuna inanır.
- 14-17 yaşlı gənclərin və ibtidai təhsilli gənclərin yarıdan çoxunun Sovet İttifaqının dağılmasına dair heç bir mövqeyi yoxdur. Ali təhsilli gənclər (38%) və 25-29 yaş qrupuna daxil olanlar (34%) digər gənclərlə müqayisədə bu hadisəni müsbət qiymətləndirib.
- SSRİ-nin qiymətləndirilməsinə bənzər şəkildə, gənc respondentlərin yarıya yaxını (48%) 1990-cı illərin Azərbaycan üçün nəticələri barədə qərarsız qalıb. Gənclərin digər yarısı isə müstəqilliyin ilk onilliyinin daha çox yaxşı (24%), yoxsa pis (27%) şeylər gətirdiyi ilə bağlı sualda fərqli mövqelərə bölünüb. Digər şəhər (30%) və kənd (25%) əraziləri ilə müqayisədə, paytaxtdakı gənclər 90-cı illərin müsbət nəticələr gətirdiyini daha az qeyd edib. Bununla yanaşı, daha

gənc yaş qrupları (14-17 yaş) daha yuxarı yaş qrupları ilə müqayisədə öz mövqelərini bildirə bilməyib.

- SSRİ-nin süqutunun müsbət qiymətləndirilməsi ilə 90-cı illərin müsbət qiymətləndirilməsi arasında uzlaşma müşahidə olunur. Sovet İttifaqının süqutunun yaxşı hadisə olduğunu hesab edənlərin 58%-i 90-cı illərin Azərbaycana pis şeylərdən daha çox yaxşı şeylər gətirdiyini hesab edir.
- Hazırkı dövrü 1990-cı illərlə müqayisə etdikdə, bir çox şeylərin çətinləşdiyi hesab edilir. Vəziyyətin ən çox pisləşdiyi sahələr dini həyata dair qərarlar vermək (59%), azad yaşamaq (60%), istədiyini demək (55%), özünü təhlükəsiz hiss etmək (51%) və ya siyasi həyatda iştirak etmək (41%) qabiliyyəti ilə əlaqəlidir.
- 1990-cı illərlə müqayisədə pul qazanmaq (25%) və peşəkar tibbi yardım (17%) kontekstində müəyyən yaxşılaşmalar qeyd edilib.
- 2020-ci ildə baş vermiş II Qarabağ Müharibəsi müasir Azərbaycan tarixinin ən önəmli hadisələrindən biridir. Respondentlərin çoxu (43%) müharibənin nəticəsindən məmnunluğunu bildirir, dörddə birdən bir qədər çoxu (28%) isə neytral mövqelər bildirir.[80] Digər şəhər (44%) və kənd (48%) ərazilərində yaşayan gənclər paytaxtda yaşayanlarla müqayisədə (30%) müharibənin nəticəsindən bir qədər daha çox razıdır.
- Gənclərin 28%-i onların ailəsindən ən azı bir şəxsin müharibədə əsgər, hərbi qulluqçu və ya könüllü kimi iştirak etdiyini bildirib. Paytaxtda yaşayanlarla (22%) müqayisədə, digər şəhər (28%) və kənd (31%) yerlərində yaşayanlar arasında bu rəqəmlər bir az yüksəkdir.
- Respondentlərin əksəriyyəti (45%) Azərbaycan və Ermənistan arasında nəqliyyat əlaqələrinin açılmasına qarşıdır. Digər şəhər (59%) və kənd (48%) ərazilərində yaşayan gənclər bu ideyaya daha çox qarşı çıxdıqları halda, paytaxtda bu ideyanın əleyhinə olanlar daha azdır (20%).
- Gənclərin nəzərəçarpan qismi növbəti 5 il ərzində Qarabağda müharibənin yenidən başlaması perspektivi ilə bağlı suala "bilmirəm" cavabını (29%) verib və ya mövqe bildirməkdən imtina edib (7%). Bununla yanaşı, gənclərin 38%-i müharibənin yenidən başlama riskinin olmadığını hesab edir, 26%-i isə müəyyən dərəcədə mümkün olduğunu bildirir.
- Qarabağ müharibəsi kontekstini və Azərbaycanın qonşularla münasibəti nəzərə alaraq, respondentlərin əksəriyyəti (60%) hesab edir ki, vətəndaşlar Azərbaycanın dövlətçiliyinin gücləndirilməsi naminə müxtəlif fədakarlıqlar etməyə hazır olmalıdır. Onlar hesab edir ki, Azərbaycanın irəliləməsi üçün yeganə yol Rusiya (55%) ilə deyil, Türkiyə (89%) ilə inteqrasiyadır.
- Əksəriyyət (56%) "xalqların dinc yaşaması üçün keçmişdə baş verənləri unutmaq daha yaxşıdır" fikri ilə razılaşmır. Bu mövqe dövlətlərlə əməkdaşlığa dair iki fikrin müqayisəsi zamanı da özünü göstərir: gənclərin demək olar ki yarısı (47%) hesab edir ki, Ermənistandan başqa bütün ölkələrlə əməkdaşlıq etmək vacibdir. Lakin cəmi 9%-i Ermənistan da daxil olmaqla bütün ölkələrlə əməkdaşlığa razıdır.

## SOVET İTTİFAQINA MÜNASİBƏTLƏR

Azərbaycan gənclərinin Sovet İttifaqına münasibətləri qeyri-müəyyəndir. Gənclərin çoxu Sovet İttifaqının dağılmasını necə qiymətləndirəcəyini ya bilmir (30%), ya da bu suala cavab verməkdən imtina edir (8%). Bundan əlavə, konkret münasibət bildirənlərin dörddə birə yaxını (24%) hesab edir ki, SSRİ-nin dağılması nə yaxşı, nə də pis şeydir (Şəkil 33). SSRİ-nin süqutuna müsbət və ya mənfi münasibətlər coğrafi zonalar baxımından fərqlənmir. Lakin kənd yerlərində yaşayanlar arasında (33%) "Bilmirəm" cavabları Bakıda (25%) və ya digər şəhər yerlərində yaşayanlarla (28%) müqayisədə daha tez-tez qeyd edilib. Bu mövqelərin formalaşdırılmasında təhsil mühüm faktordur: yalnız orta (27%) və ya ibtidai (12%) təhsilli gənclərlə müqayisədə ali təhsilli gənclər (38%) Sovet İttifaqının süqutunun yaxşı bir hadisə olması ilə daha çox razılaşır. Qeyd etmək lazımdır ki, ibtidai təhsilli gənclər arasında "Bilmirəm" cavabı verənlərin payı nəzərəçarpan dərəcədə daha yüksəkdir (46%). Bu sualın yaş qrupları üzrə təhlili təhsil səviyyəsi üzrə müqayisənin nəticələri ilə uzlaşır: respondentlərin daha gənc yaş qrupları arasında qeyri-əminlik daha çox qeydə alınsa da, daha yuxarı yaş qrupları arasında Sovet İttifaqının dağılmasının müsbət hadisə kimi qiymətləndirilməsi ən yüksək səviyyədə qeydə alınıb (Şəkil 33).

Şəkil 33: **SSRİ 30 il əvvəl dağıldı. SSRİ haqqında nə qədər bilməyinizdən asılı olmayaraq, sizcə, SSRİ-nin dağılması yaxşı, yoxsa pis hadisə idi? (%, tam seçmə)**




Sovet İttifaqının süqutuna dair mövqelər müəyyən qədər müasir Rusiyaya münasibətlərlə əlaqəlidir və bəzən onlara Qərb-Rusiya dixotomiyası prizmasından baxılır. Buna görə də, Sovet İttifaqının süqutuna münasibətlər, əlavə olaraq, Azərbaycanın arzuedilən geosiyasi münasibətlərinə dair fikirlərin müqayisəsi yolu ilə araşdırıldı. Bununla belə, məlumatların təhlili göstərdi ki, SSRİ-nin dağılmasını müsbət və ya mənfi qiymətləndirənlər arasında Azərbaycanın Qərb və ya Rusiya ilə tərəfdaşlığına dəstək baxımından statistik əhəmiyyətli fərqlər yox idi (Şəkil 34).

Sovet İttifaqına və onun dağılmasına münasibətlərin müxtəlifliyi Bakıda fokus qrupu müzakirələri zamanı da özünü büruzə verdi. SSRİ-nin dağılmasının müsbət hadisə olduğunu deyən gənclər izah edir ki, Azərbaycan sovet dövründən fərqli olaraq indi azaddır, müstəqildir, öz dili, konstitusiyası, bayrağı, ordusu var. Üstəlik, bəziləri ölkənin sərvətinin indi ölkənin özünə məxsus olduğunu və öz resurslarından istədiyi kimi istifadə edə bildiyini bildirdilər.

Digər tərəfdən, Sovet İttifaqının dağılmasını mənfi hadisə kimi qiymətləndirənlər iddia edir ki, işsizlik səviyyəsi demək olar ki sıfıra bərabər idi, hər kəs ərzaq ala bilirdi, insanlar arasında daha çox bərabərlik var idi: "İndi hamı eyni sinifdə yaşamır. Sovet İttifaqında hamı bərabər idi. Ali təhsilli insanları dövlət özü işlə təmin edirdi. Sovet vaxtında dövlət işlə təmin edirdi. Zavodlar var idi. Bərabərlik var idi" (Kişi, 24 yaş). Bununla belə, onu da qeyd etmək lazımdır ki, 25-29 yaşlı gənclərdən ibarət fokus qrupunda heç kim Sovet İttifaqının dağılmasını mənfi hadisə kimi dəyərləndirməyib.

Şəkil 34: **Azərbaycanın istər Qərb dövlətləri ilə, istərsə də Rusiya ilə nə dərəcədə yaxın olmasını istərdiniz? (1-5 cavabları "Qərb", 6-10 cavabları "Rusiya" kimi kodlaşdırılıb). "Sizcə, 90-cı illər ölkəyə daha çox yaxşı, yoxsa pis şeylər gətirib?" üzrə (%, tam seçmə)**




## MÜSTƏQİLLİYİN İLK ON İLİNƏ BAXIŞ: AZƏRBAYCAN GƏNCLƏRİ ARASINDA 90-CI İLLƏRLƏ BAĞLI XATİRƏLƏR

Azərbaycanda gənclərin 1990-cı illərə dair fikirləri birmənalı deyil. Gənclərin demək olar ki yarısı (48%) 1990-cı illəri necə qiymətləndirilə biləcəyinə dair mövqeyə malik deyil: daha çox "Bilmirəm" və ya "Cavab verməkdən imtina edirəm" cavablarını verir. Eyni zamanda, respondentlərin dörddə birə yaxını (24%) Sovet İttifaqının dağılmasından sonrakı onilliyin ölkəyə müsbət şeylər gətirdiyini, 27%-i isə mənfi şeylər gətirdiyini hesab edir (Şəkil 35). Bu mövqelər gender üzrə əhəmiyyətli dərəcədə fərqlənməsə də, yaşayış məntəqəsinin növü, yaş qrupları və ya ev təsərrüfatlarının maddi vəziyyəti üzrə qruplarda müəyyən fikir ayrılıqları mövcuddur. Ən tənqidi mövqeni paytaxtda yaşayan gənclər nümayiş etdirib (cəmi 15%-i 90-cı illərin ölkəyə yaxşı şeylər gətirdiyini bildirir). 90-cı illərin Azərbaycana təsirinə dair qeyri-əminliyin (61%-i "Bilmirəm" cavabı verib və ya cavab verməkdən imtina edib) ən yüksək səviyyəsi də bu qrupda qeydə alınıb. Yaş qrupuna gəldikdə, 18-24 (46%) və 25-29 (36%) yaş qrupları ilə müqayisədə ən yüksək qərarsızlıq səviyyəsi 14-17 yaş qrupları (ümumilikdə 74%) arasında qeydə alınıb. Ev təsərrüfatının maddi vəziyyətinin daha aşağı olduğunu bildirənlərlə müqayisədə ev təsərrüfatının maddi vəziyyətlərinin daha yüksək olduğunu bildirənlər arasında "Bilmirəm" (24%) və ya "Cavab verməkdən imtina edirəm" (38%) cavabları daha tez-tez qeydə alınıb (Şəkil 35).

90-cı illərin təsirinə dair mövqelərin Sovet İttifaqının dağılmasına dair baxışlarla əlaqəli olduğu görünür (Şəkil 36). SSRİ-nin dağılmasının yaxşı bir hadisə olduğunu düşünənlərin 58%-i həm də 1990-cı illərin Azərbaycan üçün yaxşı şeylər gətirdiyini hesab edib, 32%-i isə daha çox pis şeylər gətirdiyini hesab edib. Sovet İttifaqının dağılmasını mənfi qiymətləndirənlər arasında isə fikirlər əksinədir: onların cəmi 26%-i 90-cı illərin Azərbaycana yaxşı şeylər gətirdiyinə, 54%-i isə həmin onilliyin ölkəyə yaxşı şeylərdən daha çox pis şeylər gətirdiyinə inanır (Şəkil 36).

Şəkil 35: **Sizcə, 90-cı illər ölkəyə daha çox yaxşı, yoxsa pis şeylər gətirib? (%, tam seçmə)**




Şəkil 36: **90-cı illərin SSRİ-nin dağılmasının yaxşı, yoxsa pis hadisə olması baxımından qiymətləndirilməsi (%, tam seçmə)**



90-cı illərin nəticələri ilə bağlı mövqelər bölünsə də, həmin dövrlə cari dövrün müqayisələri göstərir ki, respondentlər Azərbaycanda həyatın daha da çətinləşdiyini düşünüb (Şəkil 37). Məsələn, Azərbaycan gəncləri bildirir ki, bu gün dini həyata dair qərarlar vermək (59%), azad yaşamaq (60%), istədiyini demək (55%), özünü təhlükəsiz hiss etmək (51%) və ya siyasi həyatda iştirak etmək (41%) xeyli daha çətin və ya bir qədər daha çətindir. Respondentlərin çoxu vəziyyətin pisləşdiyini bildirsə də, onların nəzərəçarpan bir hissəsi pul qazanmaq (25%) və peşəkar tibbi yardım almaq (17%) baxımından vəziyyətin yaxşılaşdığını bildirib.

Şəkil 37: **Bu gün haqqında və 1990-cı illər haqqında bildiklərinizi və ya təsəvvür etdiklərinizi düşünsəniz, ... daha asan və ya daha çətin olub (%, tam seçmə)**



Bu gün və 1990-cı illər arasındakı dəyişikliyə münasibətlər müqayisə edildikdə, coğrafi yerləşmə və təhsil səviyyəsi üzrə müəyyən fərqlər müşahidə edilib (Cədvəl 2). Paytaxtdakı gənclər digər şəhər və kənd yerlərinin gənc sakinləri ilə müqayisədə siyasi həyatda iştirak, pul qazanmaq və peşəkar tibbi yardım almağı qiymətləndirərkən daha tənqidi yanaşıb. Digər tərəfdən, kənd yerlərindəki gənclər isə (64%) paytaxtda (51%) və digər şəhərlərdə yaşayan (55%) gənclərlə müqayisədə dini həyata dair qərarların verilməsi baxımından vəziyyətin pisləşdiyini daha tez-tez qeyd edib. Bu baxımdan çətinliklərin artması ibtidai və natamam orta (51%) təhsilli gənclərlə müqayisədə ali (61%) və tam orta (61%) təhsilli gənclər tərəfindən daha tez-tez qeyd edilib. Lakin burada qeyd etmək vacibdir ki, təhsil və respondentlərin yaşı baxımından mövqelər əhəmiyyətli dərəcədə uzlaşıb və məntiqi baxımdan təəccüblü deyil ki, daha gənc yaş qruplarına aid olanlar arasında "Bilmirəm" və ya "Cavab verməkdən imtina edirəm" cavabları daha yüksək səviyyədə qeydə alınıb.

Cədvəl 2: **Bu gün haqqında və 1990-cı illər haqqında bildiklərinizi və ya təsəvvür etdiklərinizi düşünsəniz … daha asan və ya daha çətin olub? Yaşayış məntəqəsinin növü və təhsil səviyyəsi üzrə (%, yalnız "bir az çətin" və "çox çətin" cavablarının cəmi; * işarələri statistik əhəmiyyətli fərqləri göstərir)**

| 1990-cı illərlə müqayisədə aşağıdakıları etmək daha çətinləşib... | Yaşayış məntəqəsinin növü | | | Təhsil | | |
|---|---|---|---|---|---|---|
| | Paytaxt | Şəhər | Kənd | İbtidai və natamam orta | Tam orta | Ali (o cümlədən natamam ali) |
| ...istədiyini demək | 51 | 57 | 56 | 51 | 56 | 57 |
| ...siyasi həyatda iştirak etmək | **49*** | 39 | 39 | 38 | 39 | 53 |
| ...öz dini həyatına dair qərarlar vermək | 51 | 55 | **64*** | 51 | **61*** | **61*** |
| ...pul qazanmaq | **48*** | 26 | 32 | 29 | 31 | 49 |
| ...peşəkar tibbi yardım almaq | **47*** | 40 | 37 | 35 | 40 | 51 |
| ...təhlükəsiz hiss etmək | 43 | 50 | 55 | 52 | 49 | 56 |
| ...azad yaşamaq | 50 | 63 | 61 | 58 | 60 | 60 |

## II QARABAĞ MÜHARİBƏSİ

2020-ci ildə baş vermiş II Qarabağ Müharibəsi yəqin ki, müasir Azərbaycan tarixinin ən önəmli hadisəsidir. İndiyədək bu münaqişə müxtəlif aspektlərdən və müxtəlif elm sahələri üzrə tədqiq edildiyindən, bu tədqiqatın məqsədi 44 günlük müharibə ilə bağlı hadisələrə, onun gənclərin yaxın ətrafı və ailəsinə təsirinə gənclərin münasibətləri, eləcə də münaqişədə iştirak edən bütün tərəflərin perspektivlərinə münasibətləri haqqında məlumat əldə etmək idi.

Azərbaycanda gənclərin çoxu Qarabağ münaqişəsinin nəticəsindən razıdır: respondentlərin 43%-i müxtəlif dərəcədə məmnunluq ifadə edib. Ümumilikdə, müxtəlif dərəcə və tezliklərlə olsa da, gənclərin araşdırılan bütün qruplarında məmnunluq üstünlük təşkil edir (Şəkil 38). Kənd yerlərində (47%) və digər şəhər yerlərində (44%) gənclərin 44 günlük müharibənin nəticələrindən ümumi məmnunluğu daha yüksəkdir, paytaxt gəncləri arasında isə bu münasibət bir az daha ehtiyatlı xarakterlidir (30%). Başqa etnik qrupa mənsub olduğunu göstərən gənclərin əksəriyyəti (58%) etnik azərbaycanlılarla (42%) müqayisədə müharibənin nəticələrindən müəyyən dərəcədə daha çox razıdır. Maraqlıdır ki, digər yaşıdları ilə müqayisədə, işsiz gənclər (49%) və evli gənclər (48%) arasında bu mövzu üzrə məmnunluq daha çox bildirilir (Şəkil 38).

Şəkil 38: **Qarabağ münaqişəsinin nəticəsindən nə dərəcədə razısınız? (%, tam seçmə)**



44 günlük müharibə müasir Azərbaycan üçün dönüş nöqtəsi olmaqla yanaşı, həm də ölkənin bütün ərazisində insanların həyatına müxtəlif formalarda toxundu (Şəkil 39). Azərbaycanda gənclərin 28%-i onların ailəsindən ən azı bir şəxsin müharibədə əsgər, hərbi qulluqçu və ya könüllü kimi iştirak etdiyini bildirib. Bu iddialar paytaxtda yaşayan gənclərlə  (22%) müqayisədə kənd (31%) və ya digər şəhərlərdə (28%) yaşayan gənclər arasında nəzərəçarpacaq dərəcədə daha yüksək qeydə alınıb. Azərbaycanda gənclərin 13%-i onların ailəsindən ən azı bir nəfərin müharibədə yaralandığını və sonra reabilitasiya keçdiyini bildirib. Ev təsərrüfatının maddi vəziyyətini ən aşağı səviyyəyə aid edən gənclər daha yüksək səviyyədə aid edən gənclərlə müqayisədə bunu daha çox qeyd edib (21%) (Şəkil 39).

Şəkil 39: **44 günlük müharibə nəticəsində ailə üzvlərinizdən kimsə...? (%, tam seçmə, * işarələri statistik əhəmiyyətli fərqləri göstərir)**



Keçmiş barədə düşüncələrlə yanaşı, sorğu zamanı gənclərə həm də münaqişə ilə bağlı potensial gələcək proseslər və münaqişənin gələcəyi barədə suallar verildi. Müharibədən sonrakı danışıqların və müzakirələrin ən mühüm aspektlərindən biri Azərbaycan və Ermənistan arasında nəqliyyat əlaqələrinin açılması idi. Respondentlərin çoxu (17% - qismən, 28% - tam) bu təklifin əleyhinədir, beşdə birə yaxını (19%) neytral mövqeyə malikdir və cəmi 14% lehinədir. İki ölkə arasında nəqliyyat əlaqələrinin açılmasına mənfi münasibətlər kənd (48%) və digər şəhər (59%) ərazilərində üstünlük təşkil edir. Paytaxtda isə neytral mövqelər daha çox yayılıb (45%). İbtidai və ya tam orta təhsili olanlar arasında bir qədər geniş yayılmış istəksizlik müşahidə olunur, ali təhsilli gənclər isə bu mövzuda daha neytral mövqe bildirməyə meyllidirlər. Ev təsərrüfatının maddi vəziyyətinin aşağı olduğunu qiymətləndirən gənclər bu fikrə ən az dəstək göstərənlərdir və ev təsərrüfatının maliyyə vəziyyəti səviyyəsi yüksəldikcə, bu fikrə dəstək dərəcəsi də artır (Şəkil 40).

Şəkil 40: **Azərbaycanla Ermənistan arasında nəqliyyat əlaqələrinin açılmasının lehinəsiniz, yoxsa əleyhinəsiniz? (%, tam seçmə)**



Növbəti 5 ildə Qarabağda müharibənin yenidən başlaması riski barədə sual verildikdə, respondentlərin çoxu suallara nə cavab verəcəyini bilmir (29%), ya da hər hansı cavab verməkdən imtina edir (7%). Bunlardan cavab verənlər arasında əksəriyyət (38%) müharibənin yenidən başlama riskinin olmadığını düşünməyə meyllidir, 26% isə müəyyən ehtimal görür. Paytaxtda yaşayanların Qarabağda müharibənin növbəti 5 ildə yenidən baş verəcəyini düşünmə ehtimalı daha az, digər şəhər və kənd yerlərində yaşayan arasında isə daha yüksəkdir (Şəkil 41). Kişilər (30%) qadınlarla müqayisədə (21%) müharibənin yenidən başlama riskini daha çox görür. Bundan əlavə, ali təhsilli gənclər və ev təsərrüfatının maddi vəziyyətini daha yüksək qiymətləndirənlər də növbəti 5 il ərzində Qarabağda yeni müharibənin olmayacağını düşünməyə meyllidir, lakin ibtidai və ya orta təhsilli gənclər və ev təsərrüfatının maddi vəziyyətini ən aşağı qiymətləndirənlər daha bədbindir (Şəkil 41).

Şəkil 41: **Yaxın 5 ildə Qarabağda müharibənin yenidən başlaması riskini görürsünüzmü? (%, tam seçmə)**



Qarabağ məsələsi fokus qrupu iştirakçıları tərəfindən də qaldırıldı. Bəziləri Azərbaycanın torpaqlarını itirməsinin və Qarabağın işğalının hökumətin/ölkənin keçmişdə (1990-cı illərdən bəri) buraxdığı ən böyük səhv olduğunu düşünsə də, əksər iştirakçılar Qarabağın qaytarılmasına və bu qələbəyə sevinirlər. İştirakçılar ölkənin qarşısında duran ən mühüm məsələlərdən danışarkən bildiriblər ki, Qarabağ son 30 ildə problem olub və ölkə hazırda bunun nəticələrinin aradan qaldırılması ilə məşğuldur: **"Mətbuat şüuraltı olaraq bunu bizə aşılayır, həm də bizim vətənpərvərlik hissimiz Qarabağın bizim ən mühüm problemimiz olduğunu deyir"** (Kişi, 27 yaş). Gənclər hökumətin hazırda Qarabağda quruculuq və abadlıq işləri ilə məşğul olduğunu, bunun bir qədər vaxt aparacağını qeyd etdilər: **"Qarabağın abadlaşdırılması ən azı 30-40 il çəkəcək, çünki ermənilər onu dağıdıblar"** (Qadın, 26 yaş). Bu kontekstdə, gənc iştirakçıların fikrincə, Azərbaycan hökuməti "veteranlara və şəhid ailələrinə yardım" edir. İştirakçılar hesab edirlər ki, bu insanların və onların ailələrinin qayğısına qalmaq dövlətin borcudur, **"...çünki onlar bizim üçün həlak olublar, ailələrini itiriblər"** (Qadın, 16 yaş). Bundan əlavə, gənclərin müəyyən bir hissəsi də iddia edir ki, hökumət Qarabağı dünyada təbliğ etmək, **"Qarabağın Ermənistana aid olmadığını elan etmək" üçün tədbirlər görməlidir** (Qadın, 20 yaş).

Sorğu zamanı Qarabağda 44 günlük müharibənin nəticələrini müzakirə edərkən, gənclərə Azərbaycanın gələcəyi, barışıq və qonşularla əməkdaşlıqla bağlı daha ümumi suallar da verilib. Ümumilikdə, Azərbaycanda gənclər dövlətin maraq və ehtiyaclarının hər şeydən üstün olduğuna inanırlar: respondentlərin 60%-i razılaşır ki, hər bir vətəndaş Azərbaycanın dövlətçiliyini gücləndirmək üçün müxtəlif fədakarlıqlara hazır olmalıdır. Mütləq əksəriyyət (89%) gələcək inkişaf və tərəqqi naminə, Azərbaycanın Türkiyə ilə daha dərin inteqrasiyaya malik olmalı olduğu fikri ilə razıdır. Bu fikrin Rusiyaya şamil olunması ilə razılaşanlar azdır, lakin yenə də əksəriyyət (55%) ölkənin tərəqqisi üçün Rusiya ilə daha dərin inteqrasiyanın zəruri olduğunu düşünür (Şəkil 42).

Əksəriyyət böyük qonşu dövlətlərlə əməkdaşlığın lehinədir, lakin bütün dövlətlərə eyni münasibət göstərilmir. Azərbaycanda gənclər (56%) xalqların mehribanlıq şəraitində inkişaf etməsi üçün keçmişi unudaraq ortaq gələcəyə köklənməsinin daha yaxşı olması fikrini rədd edir; yalnız 23% bu fikri müəyyən dərəcədə qəbul edir. Bu hal konkret qonşu dövlətlərlə əməkdaşlığa dair gənclərin mövqelərinə müəyyən təsirlər göstərir: gənclərin 47%-i Ermənistandan başqa istənilən dövlətlə bərabər səviyyədə əməkdaşlığın zəruri olduğunu hesab etsə də, bu siyahıya Ermənistan daxil edildikdə, bununla razılaşanların payı 9%-ə enir (Şəkil 42).

Şəkil 42: **Aşağıdakı ifadələrlə nə dərəcədə razısınız və ya razı deyilsiniz? (%, tam seçmə)**



## MÜZAKİRƏ

Gənclərin Sovet İttifaqına münasibəti əsasən neytraldır və birmənalı deyil. Gənclərin üçdə birindən çoxunun SSRİ-nin dağılmasının qiymətləndirilməsi ilə bağlı hər hansı mövqe bildirməməsi bu mövzunun gənclər arasında aktual olmadığını və ya fəal müzakirə edilmədiyini göstərir. Sovet irsi, o cümlədən onun ictimai sferada, memarlıq və ya yer adlarında təzahürü müasir Azərbaycanın rəmzləri və abidələri ilə fəal şəkildə əvəz edilmişdir.[81] Sovet İttifaqından uzaqlaşma və yadlaşma həm də illər və ya müxtəlif dövrlər ərzində dövlət sferasında irəliləyiş üçün perspektivli, müasir və ya vacib hesab edilən paradiqmaların dəyişməsi ilə də qismən izah oluna bilər. Daha dəqiq desək, 1990-cı illərdə Rusiya və rus dilinə meylli davranış tərzindən Qərb və Türkiyə yönümlü paradiqmalara yönəlmə baş verdi.[82] Moskvanın 1990-cı ilin yanvarında baş verən faciəvi hadisələrdə iştirakı və onun Qarabağ münaqişəsindəki fərz edilən rolu ilə bağlı mənfi düşüncələr də keçmiş Sovet İttifaqının müsbət və ya cəlbedici imicinin formalaşmasına töhfə verməyib.[83] Sovet İttifaqına gənclərin nisbətən "soyuq neytral" yanaşmasının başqa mümkün izahı Azərbaycanda sovet hakimiyyətinin mahiyyəti ilə bağlıdır. Müasirləşmə, sosiallaşma və ya qismən ruslaşdırma səylərinə baxmayaraq, bu səylər şəhər sakinlərinin nisbətən kiçik bir çevrəsinə və "intelligensiyaya" təsir etdi,[84] cəmiyyətin daha geniş hissələrinə təsiri isə nisbətən səthi idi.[85] Bununla belə, Azərbaycanda Sovet İttifaqına münasibətdən bəhs edərkən istinad edilə biləcək məhdud sayda empirik və elmi tədqiqatlar mövcuddur. Bu cür mənbələrin azlığı sorğunun nəticələrini daha geniş kontekstə salmağı və nəticələr çıxarmağı çətinləşdirir. Ona görə də, bu mövzunu dərindən araşdırmaq üçün daha çox empirik tədqiqatlar aparılmalıdır.

Elmi nəşrlərin olmaması bənzər şəkildə, gənclərin 1990-cı illərə münasibətinin şərhinə də təsir etdi. Sovet İttifaqı ilə bağlı suallarda olduğu kimi, daha bir problem sorğuda iştirak etmiş respondentlərin nəzərəçarpan hissəsinin 1990-cı illərdə yaşamaması və ya bu illərlə tanış olmaması ilə bağlı idi, ona görə də verilən cavabların izahı daha da mürəkkəbləşir. Məsələn, iddia etmək olar ki, gənclərin heç vaxt yaşamadıqları və ya şahidi olmadıqları şeylərə münasibəti mövcud ictimai diskursdan ilhamlana bilər. Buna görə də, müstəqilliyin ilk onilliyini necə qiymətləndirəcəkləri ilə bağlı suala gənclərin demək olar ki, yarısının cavabı ya bilməməsi, ya da cavab verməkdən imtina etməsi dolayısı ilə bu mövzuda geniş ictimai müzakirələrin olmamasından xəbər verir. Bundan əlavə, fikirlər təxminən bərabər şəkildə bölünmüşdü ki, bu da 1990-cı illərlə bağlı birmənalı münasibətin olmadığını göstərir. Bu onillik təlatümlü hadisələr, hərbi münaqişələr, vətəndaş iğtişaşları və iqtisadi çətinliklərlə müşayiət olunmuşdu.[86] Lakin 2000-ci və 2010-cu illərdə neftin qiymətinin artması ilə əlaqədar ölkənin iqtisadi və maliyyə imkanları gücləndi.[87] Buna görə də, nəzəri olaraq, sonrakı onilliklərin 1990-cı illərə kölgə saldığını bəyan etmək olar. Bununla belə, iqtisadi inkişaf sosial həyatın digər aspektlərinin inkişaf etdiyini ehtiva etmirdi. Gənclərin əksəriyyəti 1990-cı illərlə müqayisədə dini həyatla bağlı qərar qəbul etməyin, azad yaşamağın, söz azadlığına malik olmağın, özünü təhlükəsiz hiss etməyin və ya siyasi həyatda iştirakın çətinləşdiyini bildirmiş, maliyyə vəziyyəti və ya peşəkar tibbi yardım almaq kimi aspektlərdə isə cüzi irəliləyişlər qeyd edilmişdir. Bu, neft məhsullarının satışından əldə edilən gəlirlərin hökumətə əhalinin iqtisadi ehtiyaclarını ödəməyə, lakin eyni zamanda demokratik azadlıqları və söz azadlığını məhdudlaşdırmağa imkan verdiyini qeyd edən mövcud elmi ədəbiyyatla uzlaşır.[88] Buna baxmayaraq, gənclərin 1990-cı illərə münasibəti hələ də az araşdırılır və bu mövzuda əlavə tədqiqatlar tələb olunur.

II Qarabağ Müharibəsi yəqin ki, müasir Azərbaycan tarixinin ən önəmli hadisələrindən biridir. Sovet İttifaqından və ya 1990-cı illərdən fərqli olaraq, bu hadisə Azərbaycan gənclərinə də toxunub və birbaşa təsir edib.[89] Müharibədə qazanılan qələbə və işğal olunmuş ərazilərin əhəmiyyətli hissəsinin geri qaytarılması Azərbaycanda ictimai əhval-ruhiyyəni yüksəldib.[90] Bu, gənclərin əksəriyyətinin müharibənin nəticəsindən razı olması ilə bağlı sorğunun gəldiyi nəticəyə uyğundur. Eyni zamanda, ermənilər və ya Ermənistan dövləti ilə hər hansı bir münasibətin qurulmasını və ya yenilənməsini dəstəkləyənlər azdır. Müharibədəki qələbəyə baxmayaraq, Ermənistan hələ də Azərbaycan üçün əsas təhlükə kimi qəbul edilir. Yəqin elə buna görədir ki, gənclərin əksəriyyəti üçün Ermənistan dövləti və ya ermənilərlə əməkdaşlıq müzakirə mövzusu deyil. Bunun qismən səbəbi ondan ibarətdir ki, rəsmi olaraq müharibə səhifəsi heç vaxt bağlanmayıb və kövrək sülh gələcək haqqında düşünməyi çətinləşdirir.[91]

9

# VI HİSSƏ: KİMLİK, DƏYƏRLƏR VƏ DİN

# GİRİŞ

Gənclərin dəyərləri və kimlikləri, eləcə də din, sosial normalar və institutlar kimi mühüm mövzularla bağlı mövqeləri onların şəxsiyyətlərinə böyük təsir göstərir və onları formalaşdırır. Gənclərin ölkə əhalisinin üçdə birini təşkil etməsi nəzərə alındıqda, sosial həyatın bu mühüm aspektləri ilə bağlı gənclərin mövqelərinin araşdırılmasının əhəmiyyəti daha da qabarır.[92] Gənclərin uğurlu şəkildə sosiallaşmasının və əsas təhsil və ya iqtisadi institutlara inteqrasiyasının Qafqaz və Mərkəzi Asiya ölkələrində ictimai sabitliyin açarı olduğu iddia edilmişdir və Azərbaycan da bu baxımdan istisna deyil.[93] Buna baxmayaraq, bu mövzudakı son araşdırmalar vəziyyətin ürəkaçan olmadığını göstərir.[94] Belə ki, Vəliyev və Babayev iddia edirlər ki, dövlət gənclər siyasəti tam effektiv deyil və siyasətçilərin "gənclərin qarşılaşdığı ehtiyacları və problemləri anlamaq üçün nümayiş etdirdikləri qətiyyət çox azdır və ya heç yoxdur".[95] Buna görə də, bu tədqiqat bütün maraqlı tərəflərə gənclərin xüsusiyyətlərini anlamaq üçün daha bir imkan yaradır və bu bölmədə gənclərin kimliyi və dəyər yönümlülüyü əhatə olunacaq.

Bununla belə, bu bölmədə araşdırılan ilk mövzu gənclərin kimliklərinə və mənsubiyyət hissinə yönəlib. Azərbaycan dövləti dövlət və milli kimlik quruculuğu prosesini başa çatdırmaq üçün çoxlu resurslar, o cümlədən cəmiyyətin gənc təbəqələrinə yönələn resurslar sərf edib.[96] Bundan əlavə, vətəndaş-milli kimliklərin təbliğinin Azərbaycanda dövlət quruculuğu prosesinin çox mühüm və arzuolunan nəticəsi olduğu da irəli sürülüb.[97] Beləliklə, sorğu zamanı gənclərin özlərini necə qavradıqları, eləcə də cəmiyyətin müxtəlif qrupları arasında sosial qarşılıqlı əlaqələrin və münasibətlərin necə təşkil edilməsini istədikləri ilə bağlı suallar verildi.

Tədqiq edilən daha bir sahə institusional inamdır. Çünki əvvəlki tədqiqatlar göstərmişdir ki, zəngin maliyyə imkanlarına baxmayaraq, Azərbaycanın institusional inkişafının keyfiyyəti nisbətən zəifdir.[98] Bununla yanaşı, institusional inam dövlət qurumlarının uğurlu fəaliyyətinin mühüm elementidir və bu baxımdan tədqiqatın nəticələri dövlət aparatının effektivliyini və səmərəliliyini izah etmək üçün istifadə edilə bilər.

Hesabatın bu bölməsində əhatə olunan sonuncu, lakin əhəmiyyəti heç də az olmayan mövzu gənclərin ailə mühiti və şəraitidir. Ailə Azərbaycan cəmiyyətində və mədəniyyətində xüsusi rol oynayır və ənənəvi olaraq insanların həyatına əhəmiyyətli dərəcədə təsir göstərir.[99] Ona görə də müasir Azərbaycanda yaşayan gənclər arasında bu mövzunu, onların ailələrinə nə dərəcədə bağlı və ya qopmuş olduqlarını, müxtəlif nəsillər arasında necə bir dinamikanın mövcud olduğunu araşdırmaq maraqlı idi. Bununla yanaşı, gənclərin valideynlik niyyətləri ilə bağlı mövqeləri də araşdırılıb. Ümumilikdə, bu, müasir Azərbaycanda yaşayan gənclərin demək olar ki, tam mənzərəsini anlamağa imkan verir.

# GƏLİNƏN NƏTİCƏLƏR

- Gənclər özlərini ən çox Azərbaycan vətəndaşları (90%) kimi eyniləşdirirlər. Daha sonra yerli-regional (68%) və Qafqaz (66%) səviyyəsində özünüeyniləşdirmə gəlir. Digər tərəfdən, daha kosmopolitan şəxsiyyətlər, məsələn dünya vətəndaşı (36%) və ya Avropalı (9%) olmaq gənclərin nəzərəçarpan dərəcədə kiçik hissəsi tərəfindən qeyd edilir.
- Maraqlıdır ki, gənclərin yalnız dörddə biri (25%) özlərinin etnik qruplara mənsub olduğunu hesab edir, respondentlərin üçdə biri (33%) isə bu fikri rədd edir.
- Yerli-regional (müəyyən rayona, kəndə və ya bölgəyə mənsub olmaq) və ya Qafqazlı kimlikləri paytaxtdan kənarda yaşayan gənclər arasında daha çox qeyd edilir. Milli mənsubiyyətə gəldikdə, başqa etnik qrupa mənsub olduğunu göstərən gənclər (66%) özlərini etnik azərbaycanlılar kimi göstərən gənclərlə (22%) müqayisədə, konkret bir etnik qrupa mənsub olduğunu daha tez-tez qeyd edib.
- Əksəriyyət (72%) dini qurumların Azərbaycan cəmiyyətində xüsusi rol oynaması fikri ilə razılaşmasa da, eyni sayda gənc (67%) də söz azadlığının bütün dinləri tənqid etməyin mümkünlüyünü ehtiva etməsi fikrinə qarşıdır.
- Din və söz azadlığına münasibətlər yaşayış məntəqəsinin növünə görə fərqlənir. Bakıda yaşayanlar (54%) digər şəhər (30%) və kənd yerlərində (24%) yaşayanlarla müqayisədə söz azadlığının dinin tənqidini də ehtiva etməsi fikrini daha çox dəstəkləyir. Eyni zamanda, paytaxtda yaşayan gənclər (50%) digər

şəhər yerlərində (19%) və kənd yerlərində (24%) yaşayan gənclərlə müqayisədə dini qurumların xüsusi rol oynadığını daha tez-tez qeyd edir. Ali təhsilli gənclər də aşağı təhsilli gənclərlə müqayisədə dini qurumların əhəmiyyətini daha tez-tez- vurğulayır.

- Gənclər hakim mədəniyyətin universallığını dəstəkləməyə meyllidir. 58%-i hesab edir ki, immiqrantlar Azərbaycanın mədəni ənənələrinə uyğunlaşmalıdır. 50%-i isə hesab edir ki, hər kəs eyni adət və ənənələrə əməl edərsə, ölkə üçün daha yaxşı olar. Bundan əlavə, gənclərin 64%-i müxtəlif din və mədəniyyətlərin qarışmasının Azərbaycan üçün faydalı olacağı fikri ilə razılaşmır.
- Digər şəhər (36%) və kənd (23%) ərazilərində yaşayan gənclərlə müqayisədə, paytaxtda yaşayan gənclər (55%) arasında dini və mədəni müxtəlifliyə dəstək daha geniş yayılıb. Digər şəhərlərdə yaşayan gənclər arasında immiqrantların Azərbaycanın mədəni ənənələrinə uyğunlaşmalı olması fikrinə dəstək də nisbətən azdır.
- Mədəniyyət və cəmiyyətlə bağlı ənənəvi mövqelərə baxmayaraq, respondentlərin əksəriyyəti (63%) hesab edir ki, azlıqlara mənsub olan uşaqlara Azərbaycan dilində adi dərslərlə yanaşı, öz ana dillərini öyrənmək imkanı verilməlidir. Bundan əlavə, əksəriyyət (54%) hesab edir ki, Azərbaycan cəmiyyəti digər ölkələrlə müəyyən ortaq mədəni xüsusiyyətlərə malikdir.
- Fərdlərin daha çox məsuliyyət götürməli olması və hökumətə arxalanmalı olmaması fikri respondentlərin az qismi tərəfindən qəbul edilir (40%). Digər şəhər (36%) və kənd (37%) yerlərində yaşayan gənclərlə müqayisədə paytaxtdakı gənclər (52%) bu cür fərdiyyətçi dəyərləri daha çox dəstəkləyir. Orta (39%) və ya ibtidai (35%) təhsilli gənclərlə müqayisədə ali təhsilli gənclər arasında (50%) şəxsi məsuliyyət daha çox dəstəklənir.
- Şəxsi uğur və ya fiziki görünüşlə bağlı ailə dəyərləri və atributları Azərbaycan gəncləri tərəfindən hamılıqla qəbul edilir, vətəndaş təşəbbüslərində iştirak isə daha az dəstəklənir. Məsələn, evlilik (82%), uşaq sahibi olmaq (77%), partnyoruna sadiq olmaq (86%), məsuliyyət götürmək (86%), müstəqil olmaq (86%), yaxşı görünmək (82%) və sağlam qidalanmaq (87%) gənclərin böyük əksəriyyəti üçün önəmlidir. Gənclərin əksəriyyəti idmanla məşğul olmağın (58%) və varlanmağın (62%) da vacib olduğunu bildirib.
- Siyasətdə fəal olmaq (29%) və ya vətəndaş tədbirləri və ya təşəbbüslərində iştirak etmək (32%) Azərbaycanda gənclərin cəmi üçdə biri üçün ortaq dəyərdir. Siyasətdə və vətəndaş təşəbbüslərində iştirak paytaxtda nisbətən daha yüksəkdir: 44%-i üçün siyasətdə fəal olmaq, 49%-i üçün isə vətəndaş təşəbbüslərində iştirak önəmlidir. Bununla yanaşı, digər şəhər yerlərində yaşayan gənclərin 27%-i, kənd yerlərində yaşayan gənclərin isə 24%-i siyasətdə fəal olmağın vacib olduğuna inanır; şəhər yerlərində yaşayan gənclərin cəmi 34%-i, kənd yerlərində yaşayan gənclərin isə 24%-i vətəndaş təşəbbüslərində iştirakın da vacib olduğunu düşünür.
- Azərbaycanda gənclər üçün şəxsi ləyaqət (35%), sosial prestij (19%) və maddi sərvət (14%) ən vacib dəyərlərdir. Mənəvi dəyərlərdən altruizm (14%) də tez-tez qeyd edilib, tolerantlıq (3%) və həmrəylik (1%) kimi dəyərlər isə nisbətən kənarda qalıb.
- Azərbaycanda gənclərin hüquq-mühafizə orqanlarına və icraedici hakimiyyət qurumlarına inamı böyükdür: Ordu (97%), Prezident (93%), polis (83%) və milli hökumət (70%) ən etibarlı qurumlar arasındadır.
- Azərbaycanda ən az etibar edilən institutlara KİV (46% inamsızlıq), siyasi partiyalar (46% inamsızlıq) və vətəndaş cəmiyyəti təşkilatları (42% inamsızlıq) daxildir. Bu qurumlara inam paytaxtdan kənarda yaşayanlarla müqayisədə paytaxtda yaşayan gənclər arasında daha yüksəkdir. Bundan əlavə, ali təhsilli gənclər yuxarıda qeyd olunan qurumlara nisbətən daha yüksək inam ifadə edirlər.
- Ermənistandan olanlar (57%), homoseksual şəxslər[100] (37%) və narkomanlar (23%) ən çox rədd edilən sosial qruplardır və respondentlər hətta onların Azərbaycana daxil olmasına belə imkan verilməməli olduğunu bildirib. Ən çox dəstəklənən qruplara gəldikdə isə gənclər qaçqınları (14%) və məcburi köçkünləri (10%) öz ailə üzvləri kimi qəbul edərdi.
- Gənclərin əksəriyyəti ata-ana və ya baba-nənələri ilə yaşayır. Ümumilikdə, gənclər valideynləri ilə yaxşı yola getdiyini (87%) və yalnız kiçik bir hissəsi onlarla tez-tez mübahisə etdiklərini (2%) bildirir. Cəmi 5%-i dostları və ya digər qohumları ilə yaşadığını və 1%-dən azı tək yaşadığını bildirir. Öz partnyoru/həyat yoldaşı ilə yaşayanların sayı paytaxtda və digər şəhərlərdə yaşayan gənclərlə müqayisədə, kənd yerlərində daha çoxdur.

- Azərbaycanda gənclərin yarısı (52%) subaydır və üçdə birə yaxını (34%) evlidir. Şəhər yerlərində (33%) və ya paytaxtda (29%) yaşayan gənclərlə müqayisədə kənd yerlərində yaşayan gənclər arasında (37%) evlilik səviyyəsi bir az daha yüksəkdir. Gənc kişilərlə (27%) müqayisədə, gənc qadınların (42%) ailəli olduğunu bildirmə ehtimalı daha yüksəkdir. Evli olmaqla uşaq sahibi olmaq arasında yüksək dərəcədə uzlaşma mövcuddur (34%-i ən azı bir uşaq sahibi olduğunu bildirib). Uşaqsız olanlara gəldikdə isə əksəriyyəti (60%) gələcəkdə uşaq sahibi olmağı planlaşdırdığını bildirib.

## KİMLİK VƏ MƏNSUBİYYƏT

Azərbaycanda gənclərdən öz kimliklərini etnik, regional və ya beynəlxalq özünüeyniləşdirmə baxımından necə gördüklərini soruşduqda, vətəndaş-milli özünüeyniləşdirmə üstünlük təşkil edir. Gənclərin hər 10 nəfərindən 9-u (90%) özünü Azərbaycan vətəndaşı kimi görür. Eyni zamanda, gənclərin böyük əksəriyyəti həm də yerli və daha geniş miqyasda regional kimliyini də ifadə edir - 68%-i öz rayonu, kəndi və ya regionu ilə bağlılıqlarını bildirib, 66%-i isə Qafqaza aid olduğunu bildirib. Maraqlıdır ki, respondentlərin cəmi 25%-i etnik eyniləşdirməni bölüşür, 33%-i isə özlərini öz etnik qrupunun bir parçası kimi görmür. Azərbaycanda gənclər əsasən özlərini avropalı kimi görmürlər – yalnız 9% bu fikirlə razılaşır. Bununla belə, gənclərin üçdə birindən bir qədər çoxu (36%) özlərini dünya vətəndaşı kimi görür (Şəkil 43).

Şəkil 43: **Siz özünüzü nə dərəcədə... hesab edirsiniz? (%, tam seçmə)**



Respondentlərin özlərinin bildirdiyi etnik mənsubiyyət və yaşayış məntəqəsinin növü Azərbaycanda gənclərin özlərini necə qavradıqları ilə əlaqəlidir (Şəkil 44). Məsələn, etnik azərbaycanlılarla (67%) müqayisədə, başqa etnik qrupa mənsub olduğunu göstərən gənclərin (88%) özlərini daha çox öz rayonu, kəndi və ya regionundan olan bir şəxs kimi ifadə etməsi ehtimalı daha yüksəkdir. Eyni şey etnik qrupa mənsubiyyət seçiminə şamil olunur: başqa etnik qrupa mənsub olduğunu ifadə edən gənclər (66%) etnik baxımdan azərbaycanlı olan gənclərlə müqayisədə (22%) özlərini öz etnik qruplarına daha tez-tez aid edirlər. Yaşayış məntəqəsinin növü baxımından fərqlərə gəldikdə, ən böyük fərqlər yerli səviyyədə özünüeyniləşdirmə halında təzahür edir: kənd yerlərində (76%) və digər şəhər yerlərində (79%) respondentlərin dörddə üçündən çoxu özlərini öz rayonuna, kəndinə və ya regionuna aid etsə də, paytaxtda bu göstərici cəmi 38%-dir. Paytaxtdan kənarda yaşayanlar (kənd - 72%, digər şəhərlər - 70%) həm də özlərini Qafqazlı kimliyi ilə əlaqələndirməyə meyl edir. Bakıda isə gənclərin yarıdan azı (45%) bu tendensiyaya malikdir. Etnik qrupa, Avropalı olmağa və ya dünya vətəndaşı olmağa dair münasibətlərdə də paytaxt - ölkənin qalan hissəsi dixotomiyası təzahür edir: bütün hallarda kənd və digər şəhər yerlərində yaşayan gənclər paytaxtdakı gənclərlə müqayisədə nisbətən daha çox müsbət (təsdiq) cavablar verirlər (Şəkil 44).

Şəkil 44:**Siz özünüzü nə dərəcədə... hesab edirsiniz? (Yalnız "Çox" və "Tam" cavablarının cəmi, %. "*" işarələri statistik əhəmiyyətli fərqləri göstərir.)**



Azərbaycanda gənclərin şəxsi kimliyi və dəyərləri formalaşdıran bir sıra mövzulara dair münasibətləri bölünür. Sorğunun nəticələrinə görə, gənclər mühafizəkar və mühafizəkar yönümlü dəyərlərə meyllidir, lakin eyni zamanda xarici mədəniyyətlərə də müəyyən dərəcədə açıqdır (Şəkil 45). Məsələn, gənclərin 63%-i razılaşır ki, milli azlıqların uşaqları Azərbaycan dilindən əlavə öz ana dilini öyrənmək imkanına malik olmalıdır. Respondentlərin əksəriyyəti (54%) həmçinin hesab edir ki, Azərbaycan cəmiyyəti başqa ölkələrlə ortaq mədəni xüsusiyyətlərə malikdir və buna görə də onların təsirinə açıq olmalıdır. Mədəniyyət baxımından açıqlığın bu cür elementləri ilə yanaşı, digər aspektlərdə gənclər daha mühafizəkar olmağa meyllidir. Respondentlərin çoxu (58%) hesab edir ki, immiqrantlar öz mədəni ənənələrini Azərbaycanın ənənələrinə uyğunlaşdırmalıdır və ümumilikdə gənclərin yarısı (50%) hesab edir ki, hər kəsin eyni adət-ənənələrə əməl etməsi arzuediləndir. Bundan əlavə, Azərbaycanda gənclər əsasən (64%) müxtəlif din və mədəniyyətlərin qarışmasının ölkə üçün faydalı olacağı fikri ilə razılaşmamağa meyllidir. Dinə münasibətlərə gəldikdə, gənclərin bildirdikləri mövqelər fərqlidir: söz azadlığının bütün dinlərin tənqid oluna biləcəyini ehtiva etməsi fikri (67% razılaşmır) rədd edilsə də, respondentlərin üçdə biri (28%) hesab edir ki, dini qurumlar Azərbaycan cəmiyyətində xüsusi rol oynayır. Azərbaycan gəncləri ilə bağlı sonuncu, lakin heç də əhəmiyyəti az olmayan müşahidəmiz onu göstərir ki, əksəriyyət dövlətlə bağlı paternalist fikirlərə meyllidir, çünki 60%-i fərdlərin daha məsuliyyətli olması və hökumətə arxalanmamalı olması ilə bağlı fikirlərlə razılaşmır (Şəkil 45).

Şəkil 45: **Sizin fikrinizcə, aşağıdakı siyahıda göstərilən variantlardan hansı ilə razısınız və ya razı deyilsiniz? (%, tam seçmə)**



Əhalinin əsas sosial-demoqrafik qrupları arasında yuxarıda qeyd olunan fikirlərin təsdiqlənmə dərəcəsini təhlil edərkən, yaşayış məntəqəsinin növləri, gender və təhsil səviyyəsi üzrə fərqliliklər nəzərə çarpır (Şəkil 46). Qeyd etmək lazımdır ki, digər şəhər (23%) və ya kənd (36%) yerlərində yaşayanlarla müqayisədə, paytaxtda yaşayan gənclər (55%) arasında mədəni və dini müxtəlifliyə dəstək səviyyələri daha yüksəkdir. Bakıda yaşayan gənclər (53%) və digər şəhərlərdə yaşayan gənclər (55%) kənd yerlərində yaşayan gənclərlə (63%) müqayisədə immiqrantların yerli mədəni ənənələrə uyğunlaşmalı olması fikrinə bir qədər daha aşağı dəstək verildiyini bildirməyə meyllidir. Digər tərəfdən, kənd yerlərində yaşayan gənclər (70%) digər şəhərlərdə (59%) və paytaxtda (53%) yaşayan gənclərlə müqayisədə milli azlıqların uşaqlarının Azərbaycan dilindən əlavə öz ana dillərini öyrənməsini daha çox dəstəkləyir. Bu mövqe həm də təkcə ibtidai təhsili olan gənclərlə müqayisədə (54%) ali (61%) və tam orta (67%) təhsilli gənclər tərəfindən daha çox dəstəklənir.

Paytaxtda yaşayan gənclər (54%) digər şəhərlərdə (30%) və kəndlərdə yaşayan (24%) gənclərlə müqayisədə, söz azadlığının universallığını - dinin tənqidini ehtiva etsə belə - daha çox dəstəkləyir. Bununla belə, dini qurumların cəmiyyətdəki roluna gəldikdə, Bakıdakı gənclərin 50%-i onların xüsusi rolunun olduğuna inanır. Digər şəhərlərdə və kənd yerlərində yaşayan gənclər arasında isə bu göstərici müvafiq olaraq 19% və 24%-dir. Bu fikir tam orta (24%) və ya ibtidai təhsilli (28%) gənclərlə müqayisədə ali təhsilli gənclər (41%) tərəfindən daha çox dəstəklənir. Bundan əlavə, ali təhsilli gənclər, gənc kişilər və paytaxtda yaşayan gənclər hökumətə arxalanmaq əvəzinə, şəxsi məsuliyyət fikrini dəstəkləməyə daha çox meyllidir (Şəkil 47).

Şəkil 46: **Sizin fikrinizcə, aşağıdakı siyahıda göstərilən variantlardan hansı ilə razısınız və ya razı deyilsiniz? (Yalnız "Daha çox razıyam" və "Tam razıyam" cavablarının cəmi %, tam seçmə). * işarələri statistik əhəmiyyətli fərqləri göstərir)**



Şəkil 47: **Sizin fikrinizcə, aşağıdakı siyahıda göstərilən variantlardan hansı ilə razısınız və ya razı deyilsiniz? (Yalnız "Daha çox razıyam" və "Tam razıyam" cavablarının cəmi %, tam seçmə). * işarələri statistik əhəmiyyətli fərqləri göstərir)**




Yekun olaraq, Azərbaycan gəncləri adətən ənənəvi və mühafizəkar düşüncələrə sahibdir. Respondentlərin əksəriyyəti mədəni ənənələrin və ya dini təcrübələrin müxtəlifliyindən daha çox bir mədəniyyətin hakimliyinə və vahidliyinə üstünlük verir. Buna baxmayaraq, əksəriyyət qəbul edir ki, milli azlıqlara mənsub olan uşaqlar Azərbaycan dilini öyrənməklə yanaşı, öz ana dillərində təhsil almaq hüquqlarına malikdir. Din və ya dini qurumlara dair mövqelərə gəldikdə, gənclərin mövqeləri bölünür: bir tərəfdən, əksəriyyət hesab edir ki, söz azadlığı kontekstində din də tənqid oluna bilər. Lakin demək olar ki, eyni miqdarda respondent dini qurumların cəmiyyətdə xüsusi rol oynadığı fikri ilə razılaşır. Daha dərin təhlil onu da göstərir ki, ali təhsilli və paytaxtda və ya şəhərlərdə yaşayan gənclər mədəni müxtəlifliyə və söz azadlığına nisbətən daha açıq olurlar. Gənclərin daha bir xüsusiyyəti paternalist dəyərlərə meyllilikdir, lakin Bakıda respondentlərin əksəriyyəti daha çox şəxsi məsuliyyət götürmək fikrini dəstəkləyir.

# GƏNCLƏRİN DƏYƏRLƏRİ

Sorğu həmçinin gənclərin müxtəlif dəyər, inanc və hədəflərə dair mövqelərini araşdırıb. Ümumilikdə, aşağıdakı dörd geniş kateqoriyaya bölünmüş 12 fərqli fikir araşdırılıb: vətəndaş iştirakı, ailə dəyərləri, şəxsi uğur və fiziki görünüş (Şəkil 48). Ən az dəstəklənən dəyərlər vətəndaş iştirakı ilə bağlı olub: gənclərin çoxu siyasətdə fəal olmağın (31%) və ya vətəndaş tədbirlərində və fəaliyyətlərində iştirakın (30%) əhəmiyyətinə dair laqeyd və neytral mövqe ifadə ediblər. Bundan əlavə, dörddə birə yaxını həmçinin siyasi (26%) və vətəndaş tədbirlərində (23%) iştirakın mühüm olmadığını hesab edib. Vətəndaş iştirakından fərqli olaraq, digər dəyərlər qrupu əksər gənclər tərəfindən dəstəklənib. Ən güclü dəstək ailə dəyərlərinə verilib: gənclərin böyük əksəriyyəti hesab edir ki, partnyoruna sadiq olmaq (86%), evlənmək və ya evli olmaq (82%) və uşaq sahibi olmaq (77%) vacibdir. Ümumilikdə, şəxsi uğur da gənclər üçün dəyərlidir. Lakin məsuliyyət götürmək (86%) və ya müstəqil olmaq (86%) uğurlu karyeraya malik olmaq (75%) və ya varlanmaqla (62%) müqayisədə bir az daha yüksək qiymətləndirilib. Fiziki görünüşlə bağlı dəyərlərə gəldikdə, yaxşı görünməklə (82%) və ya sağlam qidalanmaqla (87%) müqayisədə idmanla məşğul olmaq (58%) gənclər üçün daha az vacibdir.

Şəkil 48: **Bəzi fikirləriniz və məqsədləriniz haqqında məlumat almaq istərdik. Aşağıdakı bəndlər bütövlükdə sizin üçün nə qədər vacibdir? (%, tam seçmə)**



Gənclərin müxtəlif qruplarının müfəssəl təhlili göstərdi ki, ən nəzərəçarpan fərqlər vətəndaş iştirakı ilə əlaqəli dəyərlər və varlanmaq istəkləri ilə bağlıdır. Digər şəhər (34%) və kənd (24%) ərazilərində yaşayan gənclərlə müqayisədə paytaxtda yaşayan gənclər (49%) vətəndaş iştirakını daha çox dəstəkləyir. Bundan əlavə, gənc qadınlar (36%) gənc kişilərlə (29%) müqayisədə vətəndaş təşəbbüslərində iştirakı bir az daha çox dəstəkləyir. Ev təsərrüfatının maddi vəziyyəti aspektinə gəldikdə, ev təsərrüfatının maddi vəziyyətini ən yüksək səviyyədə hesab edən gənclər xəyali maddi vəziyyət nərdivanının aşağı pilləsində olanlarla müqayisədə vətəndaş təşəbbüslərində iştirakı daha çox dəstəkləyir. Gender aspekti istisna olmaqla, siyasətdə fəal olmaq vətəndaş iştirakı ilə bağlı dəyərlər üzrə gəlinən nəticələri təkrarlayır: paytaxtda yaşayanlar və ev təsərrüfatının maddi vəziyyəti daha yaxşı olanlar siyasətdə fəal olmağın vacib olduğunu daha tez-tez qeyd edir (Şəkil 49). Varlanmaq istəklərinə gəldikdə, paytaxtda yaşayan gənclərlə müqayisədə (53%) kənd yerlərində (65%) və digər şəhər yerlərində (62%) yaşayan gənclərin bu komponentə nisbətən daha çox dəyər verdiyi görünür. Ev təsərrüfatlarının maddi vəziyyət dəyişəninin ən aşağı səviyyəsində olan gənclər (78%) ən yuxarı pillədə olanlarla (49%) müqayisədə varlanmağı daha çox dəyərləndirir. Bundan əlavə, ibtidai təhsilli gənclərlə müqayisədə ali təhsilli gənclərin bu dəyərin vacibliyini qeyd etmək ehtimalı daha aşağıdır (Şəkil 49).

Şəkil 49: **Bəzi fikirləriniz və məqsədləriniz haqqında məlumat almaq istərdik. Aşağıdakı bəndlər bütövlükdə sizin üçün nə qədər vacibdir? (Yalnız "Çox vacibdir" və "Daha çox vacibdir" cavablarının cəmi %, tam seçmə). * işarələri statistik əhəmiyyətli fərqləri göstərir)**



Gənclərdən müxtəlif dəyərləri hansı ardıcıllıqla düzəcəkləri soruşuldu. Bu dəyərlər qürur, etik məsələlər, məqsədlərin təyin edilməsi, mərhəmət, prestij və sərvət kimi qruplaşdırıla bilər. Azərbaycanda gənclər qürurla bağlı dəyərləri, məsələn, şəxsi ləyaqəti (35%), eləcə də sosial prestij (19%) və sərvəti (14%) ən yüksək qiymətləndirir (Şəkil 50). Mərhəmətlə əlaqəli mövzular arasından ən çox qeyd olunan altruizm olub (14%). Etik məsələlərlə bağlı amillər nadir hallarda ən vacib dəyərlər kimi seçilib. Dürüstlük ikinci və üçüncü ən vacib dəyər kimi ən çox qeyd olunan dəyərlərdən biri idi. Analoji tendensiya düzgünlük, ləyaqətlilik və vicdanlılıq (17% - ikinci ən vacib, 12% - üçüncü ən vacib dəyər kimi), eləcə də tolerantlıq dəyərində (9% - ikinci ən vacib, 11% - üçüncü ən vacib dəyər kimi) də müşahidə olunub. Sadiqlik, həmrəylik, innovativlik və ya yumor kimi dəyərlər demək olar ki qeyd edilməyib (Şəkil 50).

Şəkil 50: **Təklif olunan üç dəyərdən hansını daha çox qiymətləndirirsiniz? (%, tam seçmə)**



# İNAM VƏ İNAMSIZLIQ

Gənclərin müxtəlif sosial və dövlət qurumlarına münasibətləri ifrat inam və inamsızlığın mövcudluğunu göstərir (Şəkil 51). Azərbaycan ordusu ən çox etibar edilən qurumlardan biridir: respondentlərin 91%-i tam inanır, daha 6% isə kifayət qədər çox inanır. Hakimiyyətlə əlaqəli digər qurumlar, məsələn, Prezident (93%), polis (83%) və milli hökumət (70%) də Azərbaycan gənclərinin üçdə ikisindən çoxunun dəstəyinə malikdir. Qurumların qalan hissəsinə inam orta və ya məhdud səviyyədədir; gənclərin nəzərəçarpan hissəsi soruşulan qurumlara dair konkret mövqe bildirməkdə çətinlik çəkir. Ən az etibar edilən qurumlar isə siyasi partiyalar (46%) və Azərbaycan KİV-idir (46%). Gənclərin üçdə birə yaxını (30%) həmkarlar ittifaqlarına dair mövqelərini ifadə etməkdə çətinlik çəkir.

Gənclərin müxtəlif sosial-demoqrafik qruplarında institusional inam üzrə fərqlilikləri araşdırarkən müəyyən fərqliliklər aşkar edildi. Lakin ən çox etibar edilən qurumlara inam çox vaxt gender, yaş, yaşayış məntəqəsinin növü və ya təhsil səviyyəsindən asılı olmayaraq eyni səviyyədə olur (Şəkil 52). Məsələn, orduya inam Azərbaycan gənclərinin bütün sosial-demoqrafik qruplarında yüksəkdir. İkinci ən çox etibar edilən quruma gəldikdə, Prezidentə inam da bütün qruplarda çox yüksəkdir. Lakin yaşayış məntəqəsinin növü üzrə cüzi fərqlər var: digər şəhər yerlərində (89%) və ya kənd yerlərində (91%) yaşayan gənclərlə müqayisədə paytaxtda yaşayan gənclər (100%) arasında dəstək səviyyəsi daha yüksək qeydə alınır. Ümumilikdə, digər şəhər və kənd yerlərində yaşayan gənclərlə müqayisədə paytaxtda yaşayan gənclər milli hökumət, məhkəmələr və polisə daha yüksək inam ifadə edir. Cinsə gəldikdə, kişilərlə müqayisədə qadınlar milli hökumət, məhkəmə və polisə bir az daha çox inanır, lakin fərqlər böyük deyil. Təhsil səviyyəsinə gəldikdə, tam orta və ibtidai təhsilli gənclərlə müqayisədə ali təhsilli gənclər məhkəmə və polisə daha çox inanır (Şəkil 52).

Şəkil 51: **Aşağıdakı təşkilatlara nə dərəcədə etibar edirsiniz? (%, tam seçmə)**



Şəkil 52: **Aşağıdakı təşkilatlara nə dərəcədə etibar edirsiniz? (Yalnız "Kifayət qədər çox" və "tam" inam cavabları, %. Tam seçmə. * işarələri statistik əhəmiyyətli fərqləri göstərir)**




Daha az etibar edilən qurumlar arasında da fərqlər qeydə alınıb (Şəkil 53). Məsələn, vətəndaş cəmiyyəti təşkilatlarına, siyasi partiyalara, dini qurumlara, KİV-ə və həmkarlar ittifaqlarına milli səviyyədə institusional inam məhdud səviyyələrdə olsa da, onların hamısı paytaxtda yaşayan gənclərin inamını qazanıb, digər şəhər və kənd yerlərində isə bu inam səviyyələri təqribən yarıya qədər azalır (Şəkil 53). Yüksək səviyyədə etibar edilən müəyyən qurumlara bənzər şəkildə, KİV və dini qurumlara kişilərlə müqayisədə qadınlar bir az daha çox etibar edir. Bundan əlavə, orta təhsilli gənclərlə müqayisədə ali təhsilli gənclər həmkarlar ittifaqlarına (55%) və KİV-ə (46%) daha çox inanır.

Azərbaycan gəncləri arasında institusional inamla bağlı vəziyyəti daha dəqiq və hərtərəfli izah etmək üçün institusional inam indeksindən istifadə edilə bilər. Bu indeks sorğunun yuxarıda müzakirə edilən sualı əsasında hesablanıb. Bu kumulyativ indeks birbaşa şərh edilir: indeksin sıfıra bərabər olması o deməkdir ki, respondent ya bütün qeyd olunan qurumlara qarşı inamsızdır, ya da hər hansı mövqe bildirməyib, 30 isə bütün qurumlara qarşı tam inamın mövcudluğunu göstərir. Buna görə də, ümumi inamın ən yüksək səviyyəsi daha yüksək indekslə müşayiət olunur. İndeksin orta qiyməti 16,2 olmaqla, indeksin orta nöqtəsindən bir az yüksəkdir (Şəkil 54). Bundan əlavə, digər şəhər (16,1) və ya kənd (14,6) ərazilərində yaşayan gənclərlə müqayisədə paytaxtda yaşayan gənclər (20) daha yüksək institusional inam səviyyələri ifadə edib. Kişilərlə (15,9) müqayisədə qadınlar qurumlara bir az daha çox inanır (16,4). Təhsil səviyyəsinə gəldikdə, tam orta (15,7) və ya ibtidai (15,8) təhsilli gənclərlə müqayisədə ali təhsilli gənclər (18,1) Azərbaycan qurumlarına orta hesabla götürdükdə daha çox etibar edir. Sonuncusu, ev təsərrüfatının maddi vəziyyəti daha yaxşı olanlar maddi vəziyyəti daha aşağı olanlarla müqayisədə qurumlara daha çox inanmağa meyllidir (Şəkil 54).

Şəkil 53: **Aşağıdakı təşkilatlara nə dərəcədə etibar edirsiniz? (Yalnız "Kifayət qədər çox" və "tam" inam cavabları, %. Tam seçmə. * işarələri statistik əhəmiyyətli fərqləri göstərir)**




Şəkil 54: **Institusional inam indeksi əsas əhali qrupları üzrə bölgüdə**



İnstitusional inamdan əlavə, gənclərdən şəxslərarası əlaqələrə dair şəxsi mülahizələri soruşuldu (Şəkil 55). Onlardan 10 fərqli sosial qrupa mənsub fərdlərlə saxlamaq istədikləri qarşılıqlı sosial əlaqələrin xüsusiyyətlərini göstərmək xahiş edildi. Bunun üçün Boqardusun tövsiyə etdiyi ənənəvi şkaladan istifadə edildi. Bu şkala fərdi tam uzaqlaşdırmaqdan onu ailə üzvü kimi qəbul etməyə qədər dəyişir. Bu şkala əsasında sosial məsafə və ya qəbul səviyyələri qiymətləndirildi. Ermənistandan olan şəxslər (57%), homoseksuallar[101] (37%) və narkotik aludəçiləri (23%) Azərbaycan gəncləri üçün ən arzuolunmaz qruplardır. Bundan əlavə, qaçqınlar (41%) və məcburi köçkünlər (37%) Azərbaycanın ziyarətçiləri olaraq müsbət qarşılanır. Eyni zamanda, qaçqınlar (14%) və məcburi köçkünlər (10%) qəbul şkalasının əks ucundakı (ailə üzvü kimi qəbul etmək) cavabların böyük hissəsini alıb. Məlumatları təhlil edərkən müşahidə edilmiş daha bir xüsusiyyət ən çox rədd edilən qruplara dair qeyri-müəyyən mövqelərdir. Məsələn, respondentlərin 28%-i bildirib ki, onlar Ermənistandan olan bir şəxsi yaxın dost kimi qəbul edər. Lakin gənc respondentlərin yarıdan çoxu onların Azərbaycana girişinə qadağa qoyardı. "Yaxın dost kimi qəbul etmək" aspekti üzrə eyni göstərici cinsi azlıqların nümayəndələrinə münasibətdə 32%, keçmiş məhkumlara münasibətdə 31% və narkotik aludəçilərinə münasibətdə 48%-dir. Lakin bütün bu qruplar gənclərin əhəmiyyətli hissəsi tərəfindən müsbət qarşılanmayıb (Şəkil 55).

Ümumiyyətlə, Azərbaycan gəncləri arasında nisbətən yüksək institusional inam səviyyələri qeydə alınır və bütün əsas dövlət qurumları gənclərin yüksək inamına malikdir. Ümumilikdə, Bakıda yaşayan gənclər və ali təhsilli gənclər orta hesabla daha yüksək institusional inam səviyyələri ifadə edirlər, paytaxtdan kənarda yaşayanlar və ya ali təhsili olmayanlar isə daha ehtiyatlı yanaşır. Mühüm məqam ondan ibarətdir ki, digər şəhər və kənd yerlərində yaşayan gənclər, eləcə də ibtidai və ya orta təhsilli gənclər inamla bağlı suallara konkret cavablar verməkdə çətinlik çəkir və daha çox "bilmirəm" və ya "cavab verməkdən imtina edirəm" variantlarını seçirlər. Sosial məsafəyə gəldikdə, nəticələrin qarışıq və bəzən ziddiyyətli olduğu görünür. Məsələn, Ermənistandan olan insanlar, cinsi azlıqlar və ya narkomanlar gənclər tərəfindən ən çox rədd edilən qruplar olsa da, eyni zamanda gənclərin əhəmiyyətli bir qismi həmin qruplardan olan şəxslərin yaxın dost kimi qəbul oluna biləcəyini bildirir.

Şəkil 55: **Aşağıdakı şəxsləri sizə ən yaxın hansı səviyyədə qəbul etmək istərdiniz...? (%, tam seçmə)**




* Sualın daha asan başa düşülməsinə kömək etmək üçün sorğu anketində daha neytral ekvivalentləri əvəzinə "homoseksual/homoseksuallıq" sözündən istifadə edilib. Müəlliflər bu sözün ingilis dilində və Azərbaycan dilində istifadəsindəki kontekstual fərqlərdən tam xəbərdardır.

# AİLƏ MÜHİTİ, EVLİLİK VƏ BİRGƏ YAŞAYIŞ

Ailə mühiti və ailədaxili münasibətlər Azərbaycanda gənclərin həyatının formalaşmasına əhəmiyyətli dərəcədə təsir edir. Eyni evdə yaşamaları səbəbindən valideynlərin və digər ailə üzvlərinin onların gündəlik həyatlarında mövcudluğu bu təsiri daha da gücləndirir. Məsələn, gənclərin dörddə üçdən bir qədər az hissəsi ya anası (72%), ya da atası (68%) ilə yaşayır. Gənc respondentlərin yarısı (51%) öz bacı-qardaşları ilə birlikdə yaşadığını da bildirir. Gənclərin üçdə biri (34%) artıq öz partnyorları və ya həyat yoldaşları ilə yaşayır. Üstəlik, özləri də valideyn olan gənclər var - 32% öz uşaqları ilə yaşadığını bildirir. Ailə üzvləri ilə yaşamadıqda isə uzaq qohumlar və ya dostlar (5%) gənclərin gündəlik həyatında hələ də qalır. Gənclərin yalnız 0,4%-i tək yaşadığını bildirib (Şəkil 56).

Ailənin strukturu və tərkibi yaşayış məntəqəsinin növünə görə fərqlənir. Valideynlərin iştirakı yaşayış məntəqəsinin növünə görə dəyişməsə də, digər faktorlar bərabər paylanmayıb. Məsələn, kənd yerlərində yaşayanlar arasında bacı-qardaşı, həyat yoldaşı və ya partnyoru, uşaqları və nənə və babaları ilə birlikdə yaşadığını bildirən gənclərin sayı orta hesabla daha yüksəkdir. İddia etmək olar ki, bu fakt kənd yerlərində yaşayan gənclər arasında böyük ev təsərrüfatının hakimliyini və kənd yaşayış yerlərində ailə institutunun əhəmiyyətini əks etdirir (Şəkil 57).

Şəkil 56: **Aşağıda qeyd olunan şəxslərdən hansı sizinlə eyni evdə yaşayır? (%, tam seçmə)**




Şəkil 57: **Aşağıda qeyd olunan şəxslərdən hansı sizinlə eyni evdə yaşayır? Yaşayış məntəqəsinin növü üzrə (%, tam seçmə)**



Azərbaycanda gənclərin əksəriyyəti valideynləri ilə yaxşı münasibətlər saxlayır (Şəkil 58). Gənclərin yarıdan çoxu (53%) valideynləri ilə çox yaxşı yola getdiyini və daha üçdə biri (34%) müxtəlif mövzularda fikir ayrılıqları olsa da, yaxşı yola getdiklərini bildirir. Bu tendensiyalar müxtəlif sosial-demoqrafik qruplarda, əsasən, eynidir. Lakin kiçik fərqlər müşahidə edilə bilər (Şəkil 59). Məsələn, valideynləri ilə tez-tez mübahisə etdiyini bildirən gənclərin payı şəhər (7%) və kənd yerləri (5%) ilə müqayisədə paytaxtda (11%) bir qədər yüksəkdir. Yaş və təhsil səviyyəsi üzrə fərqlər daha da yüksəkdir: 18-14 yaşlı (52%) və ya 25-29 (50%) yaşlı gənclərlə müqayisədə daha gənc qruplar (14-17 yaş) valideynləri ilə çox yaxşı yola getdiklərini (60%) daha tez-tez deyirlər.

Azərbaycanda gənclərin yarıdan bir qədər çoxu (52%) subaydır, təxminən üçdə biri (34%) isə evli olduğunu bildirir. Paytaxtda (29%) və digər şəhərlərdə (33%) evli gənclərin payı nisbətən aşağıdır, lakin kənd yaşayış məntəqələrində (37%) bir qədər yüksəkdir. Gənc qadınlar daha tez-tez evli olduqlarını bildirirlər (42%), eyni göstərici kişilər arasında əhəmiyyətli dərəcədə aşağıdır (27%). Ümumiyyətlə, 25-29 yaş arasında ailə qurmağın səciyyəvi davranış olduğu görünür, belə ki, bu yaş qrupundan olan gənclərin 75%-i evli olduğunu bildirib. Gənclərin təxminən üçdə biri (34%) uşaq sahibi olduğunu da bildirib. Uşaqları olmayan gənclərdən gələcək niyyətləri barədə soruşduqda 31%-i tam əminliklə və daha 29%-i bəlkə uşaq sahibi olmağı istəyəcəyini bildirib. Qalanları isə ya bilmir (26%), ya da (14%) bu suala cavab verməkdən imtina edib. Hal-hazırda uşaq sahibi olmayan respondentlər arasında uşaq sahibi olmaq üçün nəzərdə tutulan orta yaş 26 olub. Uşaq sahibi olmayan gənclərin əsas qismi (43%) 2 uşaq sahibi olacağını proqnozlaşdırıb. Uşaq sahibi olmayan gənclərə uşağın arzuolunan cinsiyyəti ilə bağlı çoxseçimli sual verildikdə, "oğlan" (44%), "qız" (40%) və "fərqi yoxdur" (44%) cavablar təxminən bərabər paylanmışdır.

Şəkil 58: **Aşağıdakı ifadələrdən hansı sizin valideynlərinizlə münasibətinizi ən yaxşı təsvir edir? (%, tam seçmə)**



## MÜZAKİRƏ

Tədqiqatın nəticələri gənclərin portretini – yüksək vətəndaş millətçiliyi hissini, dünyəviliyə meylli şəxsi düşüncələri, lakin eyni zamanda güclü ənənəvi və mühafizəkar dəyərlərə sadiqliyi təsvir edir. Ailə, ənənəvi əxlaqi dəyərlər və ya şəxsi uğurla əlaqəli formada inanclar üstünlük təşkil etsə də, iştirakçılığı ehtiva edən dəyərlər daha az dəstəklənir. Gənclər hakimiyyətlə əlaqəli qurumlara daha yüksək səviyyədə dəstək ifadə etsə də, siyasi və vətəndaş cəmiyyəti institutlarına şübhə və inamsızlıqla yanaşırlar. Yuxarıda sadalanan xüsusiyyətlərin heç biri təsadüfi deyil və Azərbaycan cəmiyyətinin daha ümumi portreti ilə uzlaşır.

Azərbaycan gənclərinin güclü vətəndaş millətçiliyi hissi var və bu, əsasən, müəyyən regionun və ya etnik qrupun nümayəndəsi olmağı deyil, Azərbaycan vətəndaşı olmağın vacibliyini vurğulayan rəsmi dövlət ritorikası ilə uzlaşır.[102] Gənc respondentlərin demək olar ki hamısı özlərini Azərbaycan vətəndaşı kimi gördüklərini vurğulayıb, digər kimliklər isə nisbətən az təsdiq olunub. Bu, xüsusilə milli kimliyə və avropalı kimliyinə şamil olunur. 1991-ci ildən bəri əsas siyasətlər və təsdiqləyici bəyanatlar milli kimliyin bu cür qəbulunu aşıladığından, gənclərin bu baxımdan ifadə etdiyi münasibətlər hakim diskursla üst-üstə düşür.[103] Gənclərin kimlik və dəyərləri ilə bağlı digər aspektləri barədə də oxşar nəticələrə gəlinə bilər.

Əsrlər boyu Azərbaycan mədəniyyəti və dəyərlərində İslam adət-ənənələri hakim olmuşdur. Bununla belə, müasir Azərbaycan XX əsrin ilk bir neçə onilliyi ərzində həyata keçirilən və müasir mədəniyyət nailiyyətləri (o cümlədən, İslam dünyasında ilk operanın yaradılması) ilə ölkəni “İslam dünyasının ilk demokratik və dünyəvi respublikasına” çevirən ilk dünyəviləşmə və modernləşmə layihəsinin qanuni varisidir. [104] Azərbaycan cəmiyyətində dinin rolu araşdırılarkən, iddia edilmişdir ki, dünyəvi dəyərlər milli kimliklərin möhkəmlənməsində aparıcı rol oynayır, din isə daha az rol oynayır və mədəni irsin tərkib hissəsi kimi əxlaq və adət-ənənələrlə bağlıdır.[105] Sorğu nəticələri bu iddianı dəstəkləyir: gənclərin əksəriyyəti dinə hörmətlə yanaşsa da, dini qurumların cəmiyyətdə mühüm rol oynamalı olduğunu hesab etmir. Buna baxmayaraq, məsələ bu qədər konkret deyil. Dini və ənənəvi inancların ənənəvi olaraq vacibliyi öz növbəsində, adətən, ənənəvi dəyərlərlə assosiasiya olunan ideyaların hökmranlığında təzahür edir.[106] Gənclərin əksəriyyəti mühafizəkar dəyərləri dəstəklədiyini bildirərək, ənənəvi düşüncə sistemlərini və cəmiyyətin yekcinsliyini qoruyub saxlamağın vacibliyini vurğulayır. Bu strukturda ailə və qohumluq əlaqələrinin vacibliyi mühüm və həlledici rol oynayır.[107] Sorğu nəticələri həm də gənclərin ailə dəyərlərinə və ailə strukturuna bağlılığını təsdiq edir. Maraqlıdır ki, bu vəziyyət hazırkı bölmədə müzakirə olunan başqa bir mövzuya –institusional inama dolayı təsir göstərir.

Əvvəlki tədqiqatlar göstərir ki, Azərbaycanda institusional inam xüsusi tendensiyaya malikdir: bir quruma olan yüksək inam digərlərinə sirayət edir, başqa sözlə: “bir quruma inam digərlərinə də sıçrayacaq.”[108] Buna görə də, təəccüblü deyil ki, Orduya və Prezidentə inam səviyyəsinin yüksəlməsində əksini tapan hərbi uğurlar və nisbi iqtisadi tərəqqi digər dövlət qurumlarına müsbət təsir edib. Bununla belə, Vəliyev və həmkarlarının apardığı tədqiqat onu da göstərib ki, müəyyən qrup daxilində oturuşmuş güclü sosial bağlılıqlar siyasi inama da təsir göstərir və beləliklə, siyasi inamın mədəni faktorları institusional inam anlayışını izah etmək üçün “hökumətin fəaliyyət səviyyəsi və fərdi qiymətləndirmə”dən daha çox uyğundur.[109] Bundan əlavə, həmin tədqiqatın nəticələri hazırkı sorğunun gəldiyi digər nəticələrlə uzlaşır: kişilər və ali təhsili olmayanlarla müqayisədə qadınlar və ali təhsilli gənclər qurumlara daha çox inanır.[110] Gələcəkdə institusional inam və onun gənclərin münasibətləri ilə əlaqəsinə dair əlavə araşdırmalar aparılmalıdır, çünki inamın bu qurumların adekvat fəaliyyəti üçün zəruri ilkin şərtlərdən biri olduğu hesab edilir. Ümumən isə hazırkı vəziyyətdə qeyd etmək olar ki, institusional inamla bağlı vəziyyət gənclərin ümumi dəyər yönümlü münasibətləri ilə uzlaşır.

10

# VII HİSSƏ: İQLİM DƏYİŞİKLİYİ

## GİRİŞ

İqlim dəyişikliyi siyasətlərin formalaşmasına, həmçinin iqtisadi və texnoloji inkişafa əhəmiyyətli təsir göstərən yeni qlobal məsələdir. Bundan başqa, mədən yanacağı hasil edən ölkələrin vəzifələri siyasi və akademik dairələrdə də müzakirə olunub.[111] Neft hasil edən ölkələr də iqlim dəyişikliyi ilə bağlı mövcud çətinlikləri və riskləri etiraf edirlər. Bu risklər təkcə ekoloji problemlərlə deyil, tək sənaye sektorundan asılılıqdan yaranan zəifliklərlə bağlıdır. Azərbaycan da bu baxımdan istisna deyil və ölkə öz iqtisadi və enerji sektorlarını da şaxələndirməyi hədəfləyir.[112] İqtisadiyyatın şaxələndirilməsi ilə yanaşı, 1990-cı illərdə və 2000-ci illərin əvvəllərində Azərbaycanın da üzləşdiyi təbii və ekoloji problemlər səbəbilə, bərpa olunan enerji mənbələrinə və ya daha ekoloji təmiz sektorlara keçid vacibdir.[113] Beləliklə, sorğu gənclərin iqlim dəyişikliyi və ümumən qlobal istiləşmə ilə bağlı bilik, münasibət və məlumatlılığını, eləcə də iqlim dəyişikliyi və onun mənfi nəticələri ilə mübarizə üçün təklif olunan müxtəlif tədbirlərə münasibətini öyrənməyə səy göstərib.

## GƏLİNƏN NƏTİCƏLƏR

- Azərbaycanda gənclərin iqlim dəyişikliyindən narahat olduğunu göstərən konkret əlamət yoxdur: 1%-dən az hissəsi bunu Azərbaycanın hazırda üzləşdiyi ən mühüm problemlər sırasında könüllü qeyd edib.
- Konkret soruşduqda isə 45%-i iqlim dəyişikliyinin qlobal fövqəladə hal olması ilə razılaşır, 28%-i konkret cavab verməkdə çətinlik çəkir və 5%-i suala cavab verməkdən imtina edir.
- Əksəriyyət (63%) hesab edir ki, iqlim dəyişikliyinin səbəbləri ya tamamilə təbiidir (31%), ya da ilk növbədə təbii (32%) səbəblərdən qaynaqlanır. Yalnız 33%-i hesab edir ki, iqlim dəyişikliyinin kökləri bu və ya digər şəkildə insan fəaliyyəti ilə bağlıdır. Təbii səbəblər ən çox Bakıda yaşayan gənclər tərəfindən qeyd edilir (85%). Bu indeks digər şəhərlərdə 64%, kənd yerlərində isə 54%-dir.
- Səbəblərlə bağlı fərqlərə baxmayaraq, respondentlərin əksəriyyəti (61%) iqlim dəyişikliyi ilə mübarizə üçün preventiv və məhdudlaşdırıcı tədbirlərin görülməsini dəstəkləyir. Paytaxtda yaşayan gənclər, ali təhsilli gənclər və yaşayış şəraiti daha yüksək olan gənclər bu cür tədbirləri fərqli sosial-demoqrafik xüsusiyyətlərə malik gənclərlə müqayisədə daha həvəslə dəstəkləyir.
- Ümumilikdə gənclər gələcəyə nikbin baxırlar, çünki qlobal istiləşmənin yüngülləşdirilməsi səylərini eşidəndə onların 72%-i ümid, 63% isə əminlik hiss edir. Bununla belə, onların nəzərəçarpan qismi (51%) bu tədbirlərin onlar üçün fərqi olmadığını bildirir.

# İQLİM NARAHATLIĞI, YOXSA İQLİMƏ LAQEYDLİK?

Azərbaycanda gənclər açıq şəkildə iqlim dəyişikliyi ilə bağlı narahatlıq bildirmirlər. Onların 1%-dən az hissəsi iqlim dəyişikliyini ölkənin hazırda üzləşdiyi ən mühüm və ya ikinci ən mühüm problem kimi qeyd edir. Buna baxmayaraq, konkret bir sual verdikdə iqlim dəyişikliyi ilə bağlı məsələlər haqqında məlumatlılığın nəzərəçarpan dərəcədə yayıldığı məlum olur. Bu halda, gənclərin əsas qismi (45%) iqlim dəyişikliyinin qlobal fövqəladə hal olması ilə razılaşır. Bununla belə, respondentlərin 22%-i üçün bu, problem deyil və gənclərin təxminən üçdə biri ya bilmir (28%), ya da (5%) bu suala cavab verməkdən imtina edir. Maraqlıdır ki, cavablandırmaqdan imtina səviyyəsi paytaxt gəncləri arasında ən yüksəkdir (58%), digər şəhər (22%) və kənd yerlərində (29%) isə bu rəqəm təxminən iki dəfə azdır. Gender baxımından fərqlər kiçikdir: kişilər (49%) qadınlarla (41%) müqayisədə iqlim dəyişikliyinin qlobal fövqəladə hal olması ilə bağlı suala daha tez-tez müsbət cavab verirlər. Yaşa və ya təhsil səviyyəsinə gəldikdə, bu baxımdan qruplar arasında statistik əhəmiyyətli fərqlər yoxdur (Şəkil 59).

Azərbaycanda gənclər iqlim dəyişikliyinə töhfə verən əsas amilin təbii səbəblər olduğuna inanmağa meyl edirlər (Şəkil 60). Milli səviyyədə, gənclərin 63%-i hesab edir ki, iqlim dəyişikliyinin səbəbləri müəyyən dərəcədə təbiidir, insan faktorundan qaynaqlanması isə gənclərin 33%-i tərəfindən dəstəklənir. Daha ətraflı təhlillər göstərdi ki, iqlim dəyişikliyinin təbii səbəblərdən qaynaqlandığına inam paytaxtda yaşayan gənclər arasında (85%) çox böyükdür, digər şəhərlərdə (64%) və kənd yerlərində (54%) isə bu indeks xeyli aşağıdır. Gender baxımından və ya müxtəlif yaş qruplarına görə fərqlər cüzidir. Lakin təhsil səviyyəsinə gəldikdə, ali təhsilli gənclər (74%) ibtidai (62%) və ya orta təhsilli (60%) gənclərlə müqayisədə iqlim dəyişikliyinin səbəblərinin təbii proseslərlə əlaqələndirilə biləcəyini daha tez-tez bildirirlər.

Sorğunun nəticələri ilə eyni qaydada, məlumatların keyfiyyət əsaslı təhlili də gənclərin iqlim dəyişikliyi ilə bağlı fikir müxtəlifliyini göstərir. Azərbaycanın üzləşdiyi əsas problemlərin qeyd edilməsi zamanı bu mövzunun gənclər tərəfindən çox az qeyd edilməsinə və yalnız bir nəfərin ətraf mühitin çirklənməsini problem kimi göstərməsinə baxmayaraq, fokus qrupu iştirakçıları iqlim dəyişikliyi ilə bağlı konkret suala cavab bir neçə cavab təqdim etdilər. İştirakçıların müəyyən bir qismi hesab edir ki, iqlim dəyişikliyinə görə əsas məsuliyyəti insanlar daşıyır, digərləri isə bunun qarşısıalınmaz təbii proses olduğunu düşünür. İqlim dəyişikliyinə görə insanları günahlandıranlar dünyaya vurulan zərərin insan fəaliyyətindən qaynaqlandığını iddia edirlər və bildirirlər ki: **“...meşələr özünü yandırmır, onları insanlar yandırır, çölə zibil atır, avtomobillərdən çıxan zəhərli qazlar atmosferi çirkləndirir”**. Respondentlərdən biri, həmçinin, koronavirus pandemiyası və iki illik müvafiq karantinin tətbiqi zamanı atmosferdə yaxşılaşmanın baş verdiyini misal gətirdi ki, bu da onun sözlərinə görə, ətraf mühitin çirklənməsində insanların rolunu sübut edir. Digər gənclər iqlim dəyişikliyinin təbii bir hadisə olduğunu və insanların təbii fəlakətlərlə çox az əlaqəsi olduğunu qeyd etdilər. Onların fikrincə, yanğınlar və daşqınlar özləri baş verir, qlobal istiləşmə də baş verir və bu, təbiətin qanunudur - qarşısını almaq mümkün deyil.

Şəkil 59: **Sizcə, iqlim dəyişikliyi qlobal fövqəladə haldır? (%, tam seçmə)**




Şəkil 60: **Alimlər iqlim dəyişikliyi barədə xəbərdarlıq edirlər, xüsusən də qlobal istiləşmə onları narahat edir. İqlim dəyişikliyinin səbəbləri haqqında fərqli fikirlər mövcuddur. Sizin fikrinizə ən yaxın olanlar hansıdır? (%, tam seçmə)**



Azərbaycanda iqlim dəyişikliyi ilə mübarizə üçün konkret tədbirlərin tətbiqinə gəldikdə, əksəriyyət (61%) bu ideyanı dəstəkləyir və yalnız dörddə biri (25%) rədd edir. Məhdudlaşdırıcı tədbirlərin tətbiqinə çox güclü dəstək digər şəhər (25%) və ya kənd (28%) yerləri ilə müqayisədə Bakıda yaşayan gənclər arasında (44%) daha yüksəkdir, lakin müsbət cavabların məcmusu yaşayış məntəqəsinin növü üzrə fərqlənmir. Gender baxımından fərqlər əhəmiyyətli dərəcədə olmasa da, yaş qrupları baxımından cüzi fərq meydana çıxır. Belə ki, 14-17 (53%) yaşlı gənclər 18-24 (62%) və 25-29 (65%) yaş qrupları ilə müqayisədə məhdudlaşdırıcı tədbirlərə bir qədər ehtiyatlı yanaşır. Təhsil səviyyəsinə və ev təsərrüfatlarının maddi rifahına gəldikdə isə, ali təhsilli gənclər və daha varlı ev təsərrüfatlarında yaşayan gənclər təhsil səviyyəsi aşağı olan və ya maddi vəziyyəti daha aşağı olan ev təsərrüfatlarında yaşayan həmyaşıdları ilə müqayisədə iqlim dəyişikliyi ilə mübarizə tədbirlərini daha tez-tez dəstəkləyir (Şəkil 61).

Bakıdakı fokus qrupu iştirakçılarının bir hissəsi ətraf mühiti qorumaq məqsədilə iqlim dəyişikliyinə cavab olaraq davranışlarını necə dəyişdiklərini qeyd etdi: Bəziləri yerə zibil atmadıqlarını, bəziləri isə plastik qab və torbalardan istifadə etmədiklərini, su israfını azaltdıqlarını, mənzillərində işıq lampalarını əvəzlədiklərini iddia etdilər. Bununla belə, problemin kəskinliyinə baxmayaraq, heç də hər kəs hökumətin qaydalar təqdim edərək və fərdi azadlıqları məhdudlaşdıraraq (məsələn, uçuşlar üçün vergiləri artırmaqla) iqlim dəyişikliyi ilə mübarizəyə kəskin müdaxilə etməli olduğunu düşünmür:

Bizdə uçuş qiymətləri onsuz da kifayət qədər bahadır. Qiymətləri qaldırsalar, insanlar bundan istifadə edə bilməyəcək. Dövlət orta təbəqənin imkanlarını məhdudlaşdırmaq əvəzinə, fabrik və zavodlarda ekoloji obyektlərin tikintisinə nəzarət etməli, çaylarda və Xəzər dənizində çirklənmənin qarşısını almalıdır. (Qadın, 17 yaş)

Şəkil 61: **Bəzi ölkələrdə hökumət iqlim dəyişikliyinə qarşı sərt tədbirlər görür. Məsələn, köhnə avtomobillər ətraf mühiti çox çirkləndirir və bəzi ölkələrdə artıq istifadə edilmələri qadağan edilir, beləliklə insanlar daha az benzin istehlak edən yeni avtomobillər almağa məcbur olurlar. Belə və/və ya buna oxşar məhdudiyyətlər ölkənizdə tətbiq edilsə idi razılaşardınızmı? (%, tam seçmə)**



Şəkil 62: **Aşağıdakı ifadə ilə nə dərəcədə razısınız? Qlobal istiləşmə və onun yüngülləşdirilməsi haqqında eşidəndə, əsasən .... hiss edirəm (%, tam seçmə)**




Sorğunun nəticələrinə əsasən, Azərbaycanda gənclər qlobal istiləşmə və onun yüngülləşdirilməsi üzrə səylər haqqında eşidəndə əsasən ümid hissi (72%) keçirir (Şəkil 62). Nisbətən az olsa da, yenə də əksəriyyət (63%) bu mövzular haqqında eşidəndə əminlik hiss edir. Qeyd etmək vacibdir ki, gənc respondentlərin ən azı yarısı (51%) qlobal istiləşmə və onunla mübarizə səylərinə laqeyddir. Gənclərin yarısından azı qəzəb (42%), qorxu (47%) və ya çarəsizlik (48%) hiss etdiklərini qeyd edir.

## MÜZAKİRƏ

Dünyanın bir çox ölkələrinə təsir edən iqlim dəyişikliyi Azərbaycan və onun vətəndaşları üçün aktual problemdir. Bu proses həyat keyfiyyətinin müxtəlif aspektlərinə, o cümlədən içməli suyun müyəssərliyinə təsir göstərir.[114] Elmi araşdırmalar iqlim dəyişikliyi ilə bağlı riskləri nümayiş etdirsə də, Azərbaycan gəncləri üçün bu mövzu konkret narahatlıq doğurmur: onların 1%-dən azı iqlim dəyişikliyinin ölkə üçün problem olduğunu qeyd edib. Maraqlıdır ki, iqlim dəyişikliyinin qlobal fövqəladə hal olub-olmaması ilə bağlı birbaşa suala gənc respondentlərin təxminən yarısı müsbət cavab verib. Ancaq bu halda belə, gənclərin digər yarısı bu mövzunu cəlbedici və ya vacib hesab etməyib.

Bu, bir neçə səbəblə bağlı ola bilər. Nəzəri olaraq hesab etmək olar ki, güclü "yaşıl hərəkat"lar və ekoloji məsələlərlə əlaqəli kampaniyalar iqlimlə bağlı maarifləndirmə səylərini gücləndirə bilər. Azərbaycanda hazırda nə yaşıl hərəkat, nə də ümumilikdə gənclərin rəhbərlik etdiyi maraq qrupları hakim ictimai diskursda fəallıq göstərmir.[115] Bu, ekoloji problemlərin gənclər üçün nisbətən qeyri-aktual olmasının səbəblərindən biri ola bilər. Bu iddianın doğru olub-olmamasından asılı olmayaraq, iqlimlə bağlı narahatlıqların aşağı səviyyədə olmasının yeganə səbəbi bu ola bilməz. Digər mümkün səbəb gənclərin iqlimlə bağlı dəyişiklikləri necə başa düşməsi ilə əlaqələndirilə bilər. Azərbaycan gəncləri arasında sorğu göstərdi ki, gənclərin üçdə ikisindən bir qədər az hissəsi iqlim dəyişikliyinin təbii səbəblərdən baş verdiyini düşünür və bununla da insan fəaliyyətlərinin əsas rol oynaması ilə razılaşmır. Buna görə də, iqlim dəyişikliyi ilə bağlı narahatlığın aşağı səviyyədə olması bu prosesin təbii səbəb kimi qəbul edilməsinin nəticəsi ola bilər.

Gənclərin iqlim dəyişikliyinə dair fikirləri və münasibətləri ilə bağlı vəziyyəti aydın şəkildə başa düşmək üçün əlavə araşdırmalara ehtiyac var. Empirik məlumatların və tədqiqatların olmaması bu tədqiqatda qeyd olunan nəticələri izah etməyi və nəzəri cəhətdən əsaslı nəticələr çıxarmağı çətinləşdirir.

11

# VIII HİSSƏ: NARAHATLIQLAR VƏ HƏDƏFLƏR

# GİRİŞ

Sonuncu fəsildə gənclərin narahatlıq və hədəflərindən bəhs edilir. Daha dəqiq desək, miqrasiya niyyətləri və xaricdə qalma təcrübələri, eləcə də gələcəyə dair gözləntilərə diqqət yetirilir. 1990-cı illərdən başlayaraq, Azərbaycandan daha çox iş üçün miqrasiya ölkənin səciyyəvi xüsusiyyətlərindən biri olmuşdur.[116] Kəmiyyət əsaslı tədqiqatlar həmçinin göstərdi ki, Azərbaycandan köçməklə bağlı niyyətlər aşağı məşğulluq səviyyəsi ilə də bağlıdır.[117] Bundan əlavə, miqrasiya niyyətləri təkcə iqtisadi ehtiyaclara əsaslanmır, həm də sosial kapitalın toplanmasının potensial mənbəyidir. Tədqiqatlar göstərir ki, xaricdə yaşamaq, oxumaq və ya işləmək Azərbaycanda karyera uğuruna və sosial mobilliyə müsbət təsir göstərir.[118] Buna görə də, gənclərin indiki nəsilləri arasında miqrasiya niyyətləri ilə bağlı vəziyyəti araşdırmaq, onların xaricə getmək üçün motivləri və getmək istədikləri ölkələri öyrənmək maraqlı idi.

Tədqiqatın gənclərin hədəfləri ilə bağlı aspektləri gənclərin gələcəyi necə təsəvvür etmələri və həyatdan məmnunluğu ilə yekunlaşdı. Həyatdan məmnunluq cəmiyyətin tərəqqisi üçün vacib amildir, çünki o, təkcə insanların bilavasitə rifahına təsir etmir, həm də tədqiqatların göstərdiyi kimi, sosial qurumların və dövlət aparatının düzgün işləməsinə də öz töhfəsini verir.[119] Beləliklə, bu tədqiqat çərçivəsində yaşayış səviyyəsi ilə bağlı həm şəxsi, həm də milli səviyyəli perspektiv proqnozlar da araşdırılıb.

# GƏLİNƏN NƏTİCƏLƏR

- Gənclərin yalnız kiçik bir qismi (13%) ən azı bir dəfə xaricdə olub. 25-29 yaşlı və ali təhsilli gənclər daha gənc və ali təhsili olmayanlarla müqayisədə xarici ölkələrə daha çox səfər ediblər.
- Gənclərin daha da az qismi (bütün gənclərin 3%-i və xaricə səyahət təcrübəsi olanların 26%-i) 6 aydan çox xaricdə qalıb. Gənclərin yalnız 2%-i xarici ölkələrə təhsil və ya iş səbəbi ilə səfər etdiyini bildirir (xaricdə olanların 18%-i).
- Bundan əlavə, gənclərin əksəriyyəti (80%) təhsil və ya iş məqsədi ilə xarici ölkələrə getmək istəmir. Azərbaycanda qalmaq istəyi paytaxtda yaşayan gənclər, gənc qadınlar, ailəli gənclər, 18-29 yaşlı gənclər və ali təhsilli gənclər arasında daha yüksəkdir. Maraqlıdır ki, maddi vəziyyəti yaxşı olan gənclərlə müqayisədə, ailəsinin maddi vəziyyəti ən aşağıda olan gənclərin təhsil və ya işləmək üçün xaricə getmək istəmə ehtimalı daha yüksəkdir.
- Xaricdə olmuş və ya iş və ya təhsil məqsədi ilə xarici ölkələrə getmək istəyənlərin əksəriyyəti başqa ölkəyə köçmələrinin əsas səbəbi kimi daha yüksək maaşlar (51%) və daha yaxşı təhsil perspektivlərini (44%) göstərir.
- Xaricə iş və ya təhsil üçün getmək istəyənlərin əksəriyyəti orada əhəmiyyətli bir müddət qalmağı hədəfləyir: 31%-i 1 ildən 5 ilə qədər, daha 23%-i isə 5 ildən 10 ilə qədər orada qalmaq istədiyini qeyd edib. Bundan əlavə, hər on nəfərdən biri (12%) həmişəlik xaricdə qalmaq istəyir. Köçmək üçün ən çox arzu edilən təyinat ölkələr Türkiyə (39%), Almaniya (16%) və Rusiyadır (12%).
- Azərbaycanda gənclər növbəti 5 il ərzində ailənin (48%) və ölkənin (55%) həyat səviyyəsinin yaxşılaşacağına nikbin baxırlar. Bu statistikaya baxmayaraq, hər iki halda gənclərin dörddə birindən çoxu gələcəyi təsəvvür edə bilmir və konkret cavab verə bilmir. Bakıda yaşayan, ali təhsilli və ailəsinin maddi vəziyyəti yaxşı olan gənclər arasında müsbət fikirlər hökm sürür.

# MOBİLLİK: MİQRASİYA VƏ EMİQRASİYA

Azərbaycanda gənclərin yalnız cüzi bir hissəsi (13%) xarici ölkələrə səfər təcrübəsinə malik olduğunu bildirir (Şəkil 64). Coğrafi nöqteyi-nəzərdən, paytaxtda, digər şəhərlərdə və ya kənd yerlərində yaşayan gənclər arasında bu cür təcrübəyə malik olma baxımından statistik cəhətdən əhəmiyyətli fərqlər yoxdur. Qadınlar (10%) və kişilər (16%) arasında bu baxımdan fərqlər azdır. Yaş qruplarına və təhsil səviyyələrinə gəldikdə isə fərqlər daha çox nəzərə çarpır. 25-29 yaşlı gənclərin təxminən dörddə biri (23%) həyatlarında ən azı bir dəfə xaricdə olduqlarını bildiriblər. 18-24 yaşlı gənclərin isə cəmi 10%-i başqa ölkələrə səfər etdiyini bildirir və 14-17 yaşlı gənclər arasında demək olar ki, heç kim (2%) bunu etməyib. Təhsil səviyyəsi üzrə müqayisə apardıqda isə fərqlər daha da böyükdür: Ali təhsilli gənclərin 34%-i xaricdə olduğunu bildirir, orta təhsillilərin yalnız 11%-i, ibtidai təhsili olanların isə 3%-i bunu edib Şəkil 63).

Xaricdə uzun müddət qalma hallarına nəzər saldıqda, xarici ölkələrə səfər təcrübəsi olanların yalnız 26%-i orada 6 aydan çox qaldığını bildirib (bütün gənclərin 3%-i). Respondentlərin yalnız 2%-i təhsil və ya iş məqsədi ilə xarici ölkələrə səfər edib. Heç xaricdə olmayan və ya təhsil və ya işdən başqa məqsədlə xaricdə olmuş gənclərə (ümumilikdə seçmənin 98%-i) xaricə oxumaq və ya işləmək üçün getmək barədə nəzəri suallar verildikdə, böyük əksəriyyəti (80%), bunu etməyi planlaşdırmadığını əminliklə bildirib (Şəkil 65). Onların yalnız 14%-i oxumaq və ya işləmək üçün xaricə gedə biləcəyini və ya mütləq arzusu olduğunu bildirib. Bu istəklər kənd (16%) və digər şəhərlərdə (20%) əhəmiyyətli dərəcədə yüksəkdir, Bakıdan olan gənclər (2%) arasında isə geniş yayıl-

Şəkil 63: **Nə vaxtsa xaricdə olmusunuz? (%, tam seçmə)**



mayıb. Gender baxımından fərqlərə gəldikdə, qadınlarla müqayisədə (9%) kişilər (19%) müvəqqəti emiqrasiya niyyətlərini daha çox qeyd edirlər. Gender baxımından və təhsil səviyyələri üzrə təhlil bu baxımdan xaricdəki təcrübə ilə müqayisədə bir növ əks mənzərəni nümayiş etdirdi. Belə ki, gələcək niyyətlərə gəldikdə, 14-17 yaşlı gənclər (23%) 18-24 yaşlı (13%) və ya 25-29 yaşlı (10%) gənclərlə müqayisədə təhsil və ya iş üçün xaricə getmək niyyətlərini daha tez-tez qeyd edir. Bundan əlavə, ibtidai təhsilli (və ya hələ də məktəbdə təhsil alan) gənclər (22%) tam orta (12%) və ya ali (9%) təhsilli gənclərlə müqayisədə təhsil və ya iş məqsədi ilə xaricə getmək niyyətlərini daha tez-tez qeyd edir. Bundan əlavə, maddi vəziyyəti pis olan ev təsərrüfatlarında yaşayan və subay olduğunu bildirən gənclər maddi vəziyyəti yaxşı olan və evli olan gənclərlə müqayisədə xaricə getmək niyyətlərini ifadə etməyə daha meyllidirlər (Şəkil 64).

Şəkil 64: **Təhsil almaq və ya işləmək üçün xaricə getmək istərdinizmi? (%, yalnız ümumiyyətlə xaricdə olmayan və ya təhsil və işdən başqa məqsədlərlə xaricdə olmuş respondentlər)**



Xarici ölkələrə səfər təcrübəsi olan və ya iş və ya təhsil üçün xaricə getməyə hazır olan gənclər mümkün yerdəyişmə üçün müxtəlif səbəblər qeyd edirlər (Şəkil 65). Bunların arasında ən çox qeyd olunanlar yüksək maaş (51%) və daha yaxşı təhsil imkanları (44%) olub. Digər səbəblər arasında, müxtəlif mədəniyyətlərlə tanış olmaq (21%) və biznes təşəbbüslərinə başlamaq üçün daha yaxşı imkanların mövcudluğu (20%) da qeyd olunub. Potensial motivlər baxımından gənclərin müxtəlif alt-qruplarının əlavə müqayisəsi fikirlərin yaşayış məntəqəsinin növündən və təhsil səviyyəsindən asılı olaraq dəyişdiyini göstərdi. Məsələn, xaricdəki daha yaxşı təhsil imkanlarından yararlanmaq istəyinə gəldikdə, digər şəhər (43%) və kənd (48%) ərazilərinin sakinləri ilə müqayisədə paytaxt sakinləri bu motivi nadir hallarda qeyd edib (25%). Bundan əlavə, orta təhsil (25%) və ali təhsil (42%) səviyyəsinə malik olanlarla müqayisədə, ibtidai təhsil səviyyəsinə malik olanlar (74%) "daha yaxşı təhsil" motivini daha tez-tez qeyd edib. Lakin "biznesə başlamaq üçün daha yaxşı imkanlar" motivinə gəldikdə, digər şəhər (15%) və kənd (20%) ərazilərində yaşayan gənclərlə müqayisədə paytaxtda yaşayan gənclər (54%) onu qeyd etməyə daha çox meyllidir. Müxtəlif mədəniyyətlərlə tanış olmaqla bağlı motiv üzrə coğrafi fərqliliklər daha kəskindir: Bakıda yaşayan gənclər (71%) bu faktoru daha tez-tez, digər şəhər (20%) və kənd (17%) ərazilərində yaşayan gənclər isə daha az qeyd edib. Ali təhsil səviyyəsinə malik gənclər (32%) də ibtidai (20%) və ya orta (19%) təhsil səviyyəsinə malik olanlarla müqayisədə bu variantı daha tez-tez qeyd edib. Xaricdə qalma niyyətləri olan gənclərdən nəzərdə tutduqları səfərin müddəti soruşulduqda, ən çox qeyd olunan cavab 1-5 il (31%), ardınca isə 5-10 il (23%) müddətləri olub. 6 aydan az (14%) və ya 6-12 ay (8%) kimi qısa müddətlər gənclərin kiçik bir qismi tərəfindən qeyd olunub (Şəkil 66).

Şəkil 65: **Başqa bir ölkəyə köçmək istəməyinizin əsas səbəbi nədir? Zəhmət olmasa, aid olanların hamısını seçin. (%. Yalnız iş və ya təhsil üçün başqa bir ölkəyə köçmək istəyən respondentlər)**




Şəkil 66: **Xaricdə nə qədər qalmaq istəyərdiniz? (%. Yalnız iş və ya təhsil üçün xaricə getmək istəyən respondentlər, o cümlədən "yəqin ki, xeyr" cavabını verənlər)**



Xaricə getmək istəyənlər (Azərbaycanda bütün gənclərin 22%-i) arasında əsas təyinat ölkəsi Türkiyədir (39%). Ardınca Almaniya (16%) və Rusiya (12%) gəlir. Ən çox qeyd olunan bu üç ölkə ilə yanaşı, ABŞ (7%) və digər Avropa ölkələri də daha az da olsa qeyd olunub (Şəkil 67).

Sorğuda iştirak edən gənclərin cəmi beşdə birinə yaxını xaricə getmək (təhsil və ya iş üçün) arzusunu dilə gətirsə də, fokus qrupu iştirakçıları daha çox həvəs göstəriblər. Fokus qrupunun hər üçündə ölkəni tərk etməyi düşündüyünü bildirən iştirakçılar var idi. Ən çox arzuolunan ölkələr arasında Almaniya, ABŞ, Türkiyə və Rusiya qeyd edilib. Emiqrasiyanın səbəbləri müxtəlifdir: bəzi respondentlər daha yaxşı təhsil almaq üçün getmək istədiyi halda, digərləri daha çox pul qazanmaq istəyir. Bəzi iştirakçılar "dövlətin zülmünə məruz qaldıqları" üçün (Kişi, 27 yaş) yaxud "yaşlı nəslə baxıb həvəsdən düşdükləri" üçün (Kişi, 17 yaş) ölkəni tərk etmək istədiyini qeyd edib. Qeyd olunan ikinci seçim insanların təhsil almasına baxmayaraq işsiz qalması ilə əlaqəlidir. Bu kontekstdə gənclər dövlətin gənclərin ölkəni tərk etməsinin qarşısını almaq üçün nə etməli olduğundan da bəhs edib. İştirakçılar qeyd edib ki, hökumət gənclərin ehtiyaclarını dinləməli, onların problemlərini öyrənməli və fikirlərini nəzərə almalıdır. Bundan əlavə, dövlət gəncləri ölkədə qalmağa stimullaşdırmaq üçün iqtisadi problemləri həll etməli və məşğulluq imkanları, yüksək maaş və yüksək səviyyədə təhsil təmin etməlidir.

Şəkil 67: **Köçmək istədiyiniz BİR ölkə hansı olardı? Ən çox üstünlük verdiyinizi qeyd edin. (%. Yalnız iş və ya təhsil üçün xaricə getmək istəyən respondentlər, o cümlədən "yəqin ki, xeyr" cavabını verənlər)**



# GƏLƏCƏKLƏ BAĞLI TƏSƏVVÜR

Azərbaycan gənclərinin öz ailələrinin, eləcə də bütövlükdə ölkənin gələcəyinə dair baxışlarının pozitiv olduğu görünür. Buna baxmayaraq, gənclərin nəzərəçarpan bir hissəsi gələcəkdə nəyin baş verəcəyini proqnozlaşdırmaqda çətinlik çəkir. Məsələn, növbəti 5 ildə öz ailələrinin yaşayış səviyyəsini qiymətləndirməyi xahiş etdikdə, Azərbaycandakı gənclərin demək olar ki yarısı (48%) yaxşılaşma proqnozlaşdırır. Gənclərin 28%-i isə bu suala necə cavab verəcəyini ya bilmir, ya da konkret cavab verməkdən imtina edir. Bu sualın sosial-demoqrafik qruplar üzrə ətraflı təhlili göstərdi ki, Bakıda yaşayan respondentlərin təxminən dörddə üçü (73%) öz ailələrində həyat səviyyəsinin yüksələcəyini gözləyir, digər şəhərlərdə yaşayanların yalnız 38%-i, kənd yerlərində yaşayanların isə 43%-i bu cür düşünür. Ali təhsilli gənclər (68%) ibtidai (46%) və ya orta (43%) təhsilli gənclərlə müqayisədə ailələrinin həyat səviyyəsinin yüksələcəyinə daha nikbin baxırlar.

Ailənin cari maddi vəziyyəti üzrə özünüqiymətləndirmə balı ilə bu mövzu arasında uzlaşma zəif olsa da, maddi vəziyyəti nisbətən yaxşı olan ailələrdə yaşayan gənclər maddi vəziyyəti daha zəif olan ailələrdən olan gənclərlə müqayisədə həyat səviyyəsində yaxşılaşma gözləntisini daha tez-tez qeyd edir (Şəkil 68).

Bundan sonra, Azərbaycanda həyat səviyyəsindəki dəyişikliklərə dair fikirlər də araşdırılıb (Şəkil 70). Gəlinən nəticələr ailələrin həyat səviyyəsi ilə bağlı yuxarıda qeyd olunan nəticələrlə üst-üstə düşür. Əksəriyyət (55%) ölkədə həyat keyfiyyətinin yaxşılaşacağını gözləyir, lakin buna baxmayaraq, gənclərin nəzərəçarpan bir qismi (27%) konkret qiymət verməkdən ya imtina edir, ya da çətinlik çəkir. Paytaxtda yaşayan gənclər (74%) digər şəhər (47%) və ya kənd (52%) yerlərində yaşayan gənclərlə müqayisədə ölkədə həyat səviyyəsinin yaxşılaşacağına daha nikbin yanaşır. Ailənin həyatındakı dəyişikliklərin qiymətləndirilməsində olduğu kimi, ali təhsilli gənclər (71%) ibtidai (55%) və ya orta (50%) təhsilli gənclərlə müqayisədə ölkənin həyat səviyyəsində müsbət irəliləyişlər olacağını daha çox qeyd edir. Bundan əlavə, burada da maddi vəziyyəti daha yaxşı olan gənclər imkansız ailələrdən olan gənclərlə müqayisədə bu baxımdan daha nikbindir (Şəkil 69).

Şəkil 68: **Sizcə, 5 ildən sonra ailənizin həyat səviyyəsi... (%, tam seçmə)**



Şəkil 69: **Sizcə, 5 ildən sonra ölkənizdə həyat səviyyəsi... (%, tam seçmə)**




## MÜZAKİRƏ

Azərbaycanda miqrasiya ilə bağlı rəsmi hesablanmış rəqəmlərə baxmayaraq, gənclərin yalnız kiçik bir qismi ümumiyyətlə nə vaxtsa xarici ölkəyə səfər etdiyini bildirib.[120] Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin (ICMPD) qiymətləndirməsinə görə, "Azərbaycan keçmiş sovet ölkələri arasında ən yüksək emiqrasiya səviyyələrindən birinə sahibdir". Buna baxmayaraq, son illərdə emiqrasiya səviyyəsi aşağı düşməkdədir.[121] Ola bilər ki, məhz bu səbəbdən, respondentlərin özləri tərəfindən bildirilən xaricdə qalma səviyyəsi nisbətən aşağıdır. Digər tərəfdən isə bu, Azərbaycandan köçən miqrantların nadir hallarda ölkəyə qayıtması ilə bağlı ola bilər. Bu iddianın öz əsası mövcuddur. Belə ki, gənclərdən hansı müddətdə xaricdə qalmaq istədikləri soruşulduqda, onların böyük qismi 5-10 il və ya birdəfəlik müddəti göstərib.

Miqrasiya və ya yerdəyişmənin potensial səbəbinin təhlili daha yaxşı maliyyə perspektivləri və təhsil imkanları ilə əlaqəni göstərib. Bu nəticələr əsasən Azərbaycandan emiqrasiya meylləri aspektini əks etdirir. UNESCO-nun məlumatlarına əsasən, 2015-ci ildə Azərbaycandan 40 minə yaxın tələbə xarici ölkələrdəki ali təhsil müəssisələrində qeydiyyata alınıb. Onların əksəriyyəti Rusiya, Türkiyə və Ukraynada təhsil alıb. "Tələbə axınının əsaslı dərəcədə regiona köklənməsi"nə töhfə verən amillərin dil bacarıqları ilə bağlı olması fikri irəli sürülüb.[122] Əmək miqrasiyası ənənəvi olaraq insanların emiqrasiyasının əsas səbəbi olmuşdur.[123]

Azərbaycandan olan tələbələr dil məsələləri və potensial mədəni amillər səbəbilə, təhsili davam etdirmək üçün əsasən regiondakı ölkələri seçirlər. Bu tədqiqatda iştirak edən gənclər də getmək istədikləri əsas təyinat ölkələri kimi əsasən eyni ölkələri qeyd ediblər. Burada yeganə yüngül kənaraçıxma Almaniyadır (köçmək üçün

ən çox üstünlük verilən 2-ci ölkə). Etnoqrafik müşahidə və keyfiyyət yönümlü tədqiqatların göstərdiyi kimi, sırf iqtisadi xarakterli səbəblərdən əlavə, Almaniya həm də siyasi səbəblərdən ölkəni tərk etmiş miqrantlar üçün arzuolunan ölkədir.[124] Beləliklə, nəzəri olaraq irəli sürmək olar ki, ölkə seçimi şəxsin motivlərindən və sosial-iqtisadi vəziyyətindən asılıdır.

Nəticə etibarilə, qeyd etdikləri problemlər və narahatlıqlara rəğmən, gənclər gələcəyə nikbin yanaşırlar. Həyat keyfiyyətinin yaxşılaşacağı gözləntisi və nikbinlik həm ailə, həm ölkə səviyyəsində bərabər paylanır. Bu təsdiqlənmiş nəticələr iqtisadi inkişaf, 2-ci Qarabağ müharibəsində qazanılmış uğurlar və ya ümumi nikbinlik tendensiyası kimi bir neçə faktordan irəli gələ bilər. Bu cür nikbin yanaşmaların potensial səbəblərini araşdırmaq üçün əlavə tədqiqatlar zəruridir, həmçinin bir neçə il sonra bu tədqiqatın təkrarlanması gözləntilərin nə dərəcədə qarşılandığını başa düşməyimizə kömək edə bilər.

12

# Nəticə

Bu hesabat azərbaycanlı gənclər arasında aparılan genişmiqyaslı tədqiqatın nəticələrini ümumiləşdirir və onların fikirlərini, münasibətlərini, şikayətlərini və dəyərlərini araşdırır. Hesabat, həmçinin, struktur xarakterli faktorları, o cümlədən çoxdan formalaşmış siyasi, iqtisadi və sosial reallıqlardan qaynaqlanan faktorları təsvir edir və sorğuda ortaya çıxan tendensiyaların potensial səbəblərini izah edir.

Bir çox azərbaycanlı gənclər əsas iqtisadi ehtiyacları qarşılamaq imkanına malikdir, əksəriyyəti ailələrinin qida və geyim kimi əsas məhsulları təmin edə bildiyini qeyd edir. Bununla belə, ölkənin paytaxtı ilə digər ərazilər arasında böyük fərq nəzərə çarpır. Bakı sakinləri subyektiv rifah şkalasında, xüsusən də kənd yerlərində yaşayan gənclərlə müqayisədə daha yüksək bal toplayırlar. Oxşar fərq ali təhsilli gənclərlə orta və ya daha aşağı təhsilli respondentlər, həmçinin milli azlıqlara mənsub gənclər arasında da müşahidə oluna bilər.

Azərbaycanda gənclərin əksəriyyətinin işləməsinə və şəxsi gəlirlərinin olmasına baxmayaraq, hələ də üçdə ikiyə yaxın hissəsi başqalarından, ilk növbədə valideynlərdən asılıdır.

Son illərdə tələbələrin sayı artsa da, ali təhsildə iştirak səviyyəsi aşağı qalır. Azərbaycanda gənclərin yalnız dörddə biri (26%) təhsil müəssisəsində təhsil alır. Paytaxtdan kənarda yaşayan gənclərlə müqayisədə, Bakıda yaşayan gənclərin (32%) təhsil müəssisəsində təhsil almaq ehtimalı daha yüksəkdir.

Təhsil sistemindən narazılıq kifayət qədər geniş yayılıb. Azərbaycan gənclərinin yarıdan çoxu təhsil müəssisələrində almaqda olduğu və ya aldığı təhsilin keyfiyyətindən narazıdır. Gənclərin çoxu təhsil müəssisələrinin onları məşğulluğa hazırlamadığını düşünür. Fokus qrup müzakirələrində gənclər köhnəlmiş tədris proqramları, müasir təhsil yanaşmalarından xəbərdar olmayan pedaqoqlar və istehsalat təcrübəsinin olmamasından şikayət ediblər. Təəccüblü deyil ki, azərbaycanlı gənclər həm də ölkədə istədiyin işi tapmaq üçün təhsildən daha çox siyasi əlaqələrin vacib olduğuna inanır.

Azərbaycanda gənc respondentlərin yarısı işlədiyini bildirib. Bununla belə, gender, coğrafi yerləşmə və təhsil faktorları baxımından nəzərəçarpan bərabərsizlik mövcuddur. Paytaxtdan kənarda yaşayan gənclər, gənc qadınlar (36%) və daha gənc yaş qrupları ilə müqayisədə, Bakıda yaşayan gənclər (59%), gənc kişilər (62%), 25-29 yaşlı gənclər (71%) və ali təhsilli gənclər (76%) arasında məşğulluq səviyyəsi daha yüksəkdir.

Təhsil, məşğulluq və ya təlimdə iştirak etməyənlərin xüsusi çəkisinin yüksək olması Azərbaycan üçün problem kimi vurğulanıb. Belə ki, 14-29 yaşlıların dörddə birə yaxını təhsil, məşğulluq və ya təlimdə iştirak etmir. Gənc kişilərlə (12%) müqayisədə, təhsil, məşğulluq və ya təlimdə iştirak etməyən gənc qadınların payı üç dəfə yüksəkdir (39%). Bakıdan kənardakı gənclərin də təhsil, məşğulluq və ya təlimdə iştirak etməmə ehtimalı daha yüksəkdir.

Azərbaycanın qapalı sistemi gənclərin siyasi iştirakı üçün seçim imkanlarını məhdudlaşdırır. Demokratik fəallığa maraq azdır. Bu, gənclərin siyasətdə iştirakı üçün imkanların daima daralması ilə əlaqələndirilə bilər. Bununla belə, gənclərə demokratiya ilə

bağlı sual verildikdə, qeyri-müəyyən cavablara tez-tez rast gəlinir. Azərbaycanlı gənclərin yarıdan çoxu demokratiyanın ölkə üçün ən yaxşı idarəetmə üsulu olduğuna inansa da, təxminən hər on respondentdən biri cavabı bilmir və ya cavab verməkdən imtina edir. Eynilə, respondentlərin yarısından bir qədər çoxu ölkədə real demokratiya təcrübəsinə ya müsbət ya da tam müsbət yanaşır (53%), beşdə biri isə qərarsızdır.

Siyasi iştirak imkanlarının məhdudluğu şəraitində, gənclərin cəmi beşdə biri siyasətlə maraqlandığını deyir. Gənclərin az bir qismi dostları və ya valideynləri ilə siyasəti müzakirə edir, siyasi xəbərlərlə tanış olur, yaxud üzərinə siyasi funksiya götürməyi düşünür. Bundan əlavə, gənclərin dörddə üçü hər hansı siyasi və ya vətəndaş təşəbbüslərində iştirak etməyib. Gənclərin əsas qismi öz maraqlarının yaxşı təmsil olunduğunu desə də, 30%-ə yaxını razılaşmır, daha 30%-i isə qərarsızdır. Bu nəticələr sırf qərarsızlıqdan daha çox, narazılığı göstərir.

Gənclər xüsusən söhbət xarici siyasətlə bağlı baxış və dəyərlərdən getdikdə, neytral və bəzən ziddiyyətli fikirlər bildirib. Azərbaycanlı gənclər xarici siyasətə münasibətdə daha çox neytral, daha doğrusu, qeyri-kəskin mövqelər seçərək, Qərb və ya Rusiya düşərgələri arasında “tərəf seçməkdən” yayınırlar. Qərbə simpatiya bir qədər üstünlük təşkil edir. Lakin bu, Qərb, Avropa və ya Avropa İttifaqının Azərbaycan gənclərinə yaxın və çox tanış olan bir şey olduğunu ehtiva etmir. Azərbaycan gəncləri üçün Avropa uzaq, yad, müəyyən məqamlarda onların dəyərlərinə zidd görünsə də, maddi rifahı, qanunun aliliyi, mədəni və elmi inkişafı baxımından yenə də cazibədar və cəlbedici görünür.

Azərbaycan gəncləri hesab edir ki, ölkələrinin ən yaxın tutmalı olduğu ölkə Türkiyədir. Əksər qonşular və regionların əsas dövlətləri ilə müəyyən dərəcədə yaxşı işgüzar münasibətlərin saxlanmasına və qarşılıqlı faydaya yönələn praqmatik xarici siyasət, yəqin ki, gənclərin mövqelərinə uyğun gəlib.

Tədqiqat göstərdi ki, gənclər arasında Ermənistana qarşı mənfi münasibətin üstünlük təşkil etməsi təkcə Ermənistan dövləti ilə deyil, müəyyən dərəcədə Ermənistan vətəndaşları ilə də bağlıdır. Azərbaycanlı gənclərin əksəriyyəti Ermənistanla əməkdaşlığın ölkənin milli dəyərlərinə, təhlükəsizliyinə və dövlətçiliyinə xələl gətirəcəyinə inanır, bir çoxları ermənilərə qarşı antaqonist fikirlər səsləndirir, onlarla təmasdan çəkinməyə və ya Ermənistandan kiminsə Azərbaycana buraxılmamasına üstünlük verirlər.

Gənclərin Sovet İttifaqına münasibəti neytraldır və birmənalı deyil. Gənclərin üçdə birindən çoxunun SSRİ-nin dağılmasının qiymətləndirilməsi ilə bağlı hər hansı mövqe bildirməməsi bu mövzunun ölkədəki gənclər arasında aktual olmadığını və ya fəal müzakirə edilmədiyini göstərir. Bu dəyişiklik Sovet keçmişinin əhalinin yaddaşından fəal şəkildə silinməsi ilə əlaqələndirilə bilsə (məhdud istisnalarla) də, bu, həm də Rusiya və rus dilinə meylli yanaşmalardan Qərb və Türkiyə yönümlü paradiqmalara yönəlmə ilə də əlaqələndirilməlidir.

İkinci Qarabağ müharibəsində qələbə və işğal olunmuş ərazilərin əhəmiyyətli bir hissəsinin geri qaytarılması müharibənin nəticəsindən məmnun olan gənclər də daxil olmaqla, Azərbaycanda ictimai əhval-ruhiyyəni yüksəldib. Yuxarıda qeyd edildiyi kimi,

Ermənistan və ya ermənilərlə münasibətləri dəstəkləyənlər azdır, çünki qələbəyə baxmayaraq, bu ölkə hələ də Azərbaycan üçün ən böyük təhlükə kimi qəbul edilir.

Azərbaycanlı gənclər yüksək vətəndaş millətçiliyi hissinə, dünyəviliyə meylli şəxsi düşüncələrə malikdir, lakin eyni zamanda çoxları güclü ənənəvi və mühafizəkar dəyərlərə sadiqliyini qoruyub saxlayır. Demək olar ki, bütün gənclər özünü Azərbaycan vətəndaşı kimi qəbul etdiyini vurğulayır, digər kimliklər isə nisbətən az təsdiq olunur. Bu, ola bilsin ki, hökumətin müstəqillikdən bəri formalaşdırdığı hakim diskursların təzahürüdür. Ailə, ənənəvi əxlaqi dəyərlər və şəxsi uğurla əlaqəli formada inanclar üstünlük təşkil etsə də, iştirakçılığı ehtiva edən dəyərlər daha az dəstəklənir. Bu, potensial olaraq, siyasi və vətəndaş təşəbbüslərində iştirakın aşağı səviyyədə olmasının səbəbi ola bilər.

Gənclər hakimiyyətlə əlaqəli qurumlara daha yüksək səviyyədə dəstək ifadə etsə də, siyasi və vətəndaş cəmiyyəti institutlarına şübhə və inamsızlıqla yanaşırlar. Orduya və Prezidentə inam səviyyəsinin yüksəlməsində əksini tapan hərbi uğurlar və nisbi iqtisadi tərəqqi digər dövlət qurumlarına müsbət təsir edib. Fərz etmək olar ki, Azərbaycanda institusional inamın vəziyyəti qismən gənclərin ümumi dəyər yönümlülüyü ilə üst-üstə düşür.

İqlim dəyişikliyinin mühüm qlobal məsələ olmasına baxmayaraq, Azərbaycanda gənclər ümumən iqlim dəyişikliyi barədə narahatlıq keçirmir. İqlim dəyişikliyi ilə bağlı konkret sual verildikdə, gənclərin demək olar ki yarısı onun problem olması ilə razılaşır. Bununla belə, çoxları onun aktuallığına inanmır.

Azərbaycanda miqrasiya ilə bağlı rəsmi hesablanmış rəqəmlərə baxmayaraq, gənclərin yalnız kiçik bir qismi ümumiyyətlə nə vaxtsa xarici ölkəyə səfər etdiyini bildirib. Qeyd etmək vacibdir ki, Azərbaycanda gənclərin əksəriyyəti iş və ya təhsil üçün xaricə getmək istəmir.

Gənclər gələcəyə ümumən nikbin yanaşır. Lakin bir çoxları qərarsızdır. Həyat keyfiyyətinin yaxşılaşacağı gözləntisi və nikbinlik həm ailə, həm ölkə səviyyəsində bərabər paylanır. Qeyd etmək lazımdır ki, nikbin münasibətlər Bakı şəhərinin sakinləri, ali təhsilli gənclər və sosial-iqtisadi vəziyyəti daha yaxşı olan gənclər arasında üstünlük təşkil edir.

13

# QEYDLƏR

1 Azərbaycanlıdan başqa etnik qrupa mənsub olduğunu göstərən gənclərə hesabatın qalan hissəsində "milli azlıqlar" kimi istinad ediləcək.

2 Hesabatda Azərbaycanda yaşayan gənclərə həm də "gənc azərbaycanlılar", yaxud "Azərbaycan gəncləri". kimi istinad edilir. Bu terminlər eyni qrup gəncləri, yəni, həm milliyyətcə azərbaycanlı olan gəncləri, həm də başqa etnik qrupa mənsub olduğunu bildirən gəncləri təsvir etmək üçün istifadə edilir.

3 Nəzərə alın ki, respondentlərə 1-dən artıq gəlir mənbəyi seçməyə imkan verildiyindən, faizlərin cəmi 100-ə bərabər deyil. Respondentin həm şəxsi gəliri ola, lakin eyni zamanda qismən valideynlərinin dəstəyindən yararlana bilər.

4 TMTİ - Təhsil, məşğulluq və ya təlimdə iştirak etməyən şəxslər.

5 Ümumiyyətlə marağı olmayanlar istisna olmaqla.

6 "Bilmirəm" və ya "Cavab verməkdən imtina edirəm" cavabı verənlər.

7 10 ballıq şkalada 5 və 6 qiymətlərinin cəmi.

8 "Tam" və "kifayət qədər çox" cavablarının cəmi.

9 "Qətiyyən" və "bir az" cavablarının cəmi.

10 Sorğu anketinin ingilis dilində olan versiyasında "Queer" (kvir) sözü işlədilib, lakin azərbaycan dilində ekvivalenti olmadığı üçün "homoseksual" sözündən istifadə edilib. Müəlliflər bu sözün ingilis dilində və azərbaycan dilindəki istifadəsində kontekstual fərqlər barədə məlumatlıdır.

11 Valiyev and Babayev, "Azerbaijani Youth in Transitio".

12 Təhlükəsizlik səbəbilə, üç region seçmədən çıxarılıb: Naxçıvan Muxtar Respublikası, Qarabağ iqtisadi rayonu, Şərqi Zəngəzur iqtisadi rayonu.

13 Seçmənin 7 faizi azərbaycanlıdan başqa etnik qrupa mənsubdur. Onlardan 2%-i özlərini ləzgi kimi təqdim edib, təxminən 5%-i isə özlərini digər etnik qruplara aid edib.

14 Valiyev and Valehli, "COVID-19 and Azerbaijan".

15 Nəzərə alın ki, respondentlərə 1-dən artıq gəlir mənbəyi seçməyə imkan verildiyindən, faizlərin cəmi 100-ə bərabər deyil. Respondentin həm şəxsi gəliri ola, lakin eyni zamanda qismən valideynlərinin dəstəyindən yararlana bilər.

16 Graham, "Subjective Well-Being in Economics".

17 Asian Development Bank, Azerbaijan.

18 World Bank, Europe and Central Asia Economic Update, Fall 2022.

19 World Economic Forum, "The Inclusive Development Index 2018".

20 Asian Development Bank, Azerbaijan.

21 Nəzərə alın ki, respondentlərə 1-dən artıq gəlir mənbəyi seçməyə imkan verildiyindən, faizlərin cəmi 100-ə bərabər deyil. Respondentin həm şəxsi gəliri ola, lakin eyni zamanda qismən valideynlərinin dəstəyindən yararlana bilər.

22 President of Azerbaijan, Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı [The state program for youth of Azerbaijan between 2017 and 2021].

23 President of Azerbaijan, 2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası [Azerbaijani Youth Development Strategy for 2015-2025].

24 European Training Foundation., Policies Supporting Youth Transition to Work in Armenia, Azerbaijan, Belarus, Georgia, Moldova and Ukraine.

25 Valiyev and Babayev, "Azerbaijani Youth in Transition".

26 Isakhanli and Pashayeva, "Higher Education Transformation, Institutional Diversity and Typology of Higher Education Institutions in Azerbaijan".

27 Sayfutdinova, "Tapş".

28 Times Higher Education, "World University Rankings".

29 Ergun and Kondakci, "The Internationalisation of Higher Education and Identity Construction in Azerbaijan".

30 I.V. Mullis et al., "International Results in Mathematics and Science".

31 OECD, "PISA 2018 Results. Combined Executive Summaries I, II & III".

32 European Training Foundation., Policies Supporting Youth Transition to Work in Armenia, Azerbaijan, Belarus, Georgia, Moldova and Ukraine.

33 Asian Development Bank, Azerbaijan.

34 Asian Development Bank.

35 Valiyev and Babayev, "Azerbaijani Youth in Transition".

36 Valiyev, "Attaining SDG 8 in Azerbaijan".

37 Hajizadeh et al., "Descriptive Analyses of Youth Transitions in Azerbaijan".

38 Asian Development Bank, "Azerbaijan Country Gender Assessment".

39 Isakhanli and Pashayeva, "Higher Education Transformation, Institutional Diversity and Typology of Higher Education Institutions in Azerbaijan".

40 President of Azerbaijan, 2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası [Azerbaijani Youth Development Strategy for 2015-2025].

41 Asian Development Bank, Azerbaijan.

42 Amirova and Valiyev, "Do University Graduate Competences Match Post-Socialist Labour Market Demands? Evidence from Azerbaijan".

43 European Training Foundation., Policies Supporting Youth Transition to Work in Armenia, Azerbaijan, Belarus, Georgia, Moldova and Ukraine.

44 Valiyev, "Attaining SDG 8 in Azerbaijan".

45 Valiyev and Babayev, "Azerbaijani Youth in Transition".

46 Valiyev and Babayev, 146.

